AFAQ RÜSTƏMOVA

# AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFININ FƏLSƏFİ PROBLEMLƏRİ: DİL və KOMMUNİKASİYA

*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun Elmi Şurasının 13 mart 2020-ci il tarixli (protokol № 02) qərarı ilə çap olunur*

BAKI: 2020

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -26479-
PREZİDENT KİTABXANASI

R 96

**Elmi redaktor:** **İlham Məmmədzadə**
*Fəlsəfə elmləri doktoru, professor,*
*Fəlsəfə İnstitutunun direktoru*

**Rəyçilər:** **Arif Büniyatov**
*Fəlsəfə elmləri doktoru, professor*
*AMEA Fəlsəfə İnstitutu*
*"Məntiq" şöbəsinin baş elmi işçisi*

**İlham Əhmədov**
*Pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU "Kompüter elmləri" kafedrasının dosenti*

Monoqrafiyada müasir dövrdə informasiya cəmiyyətinin fəlsəfi, elmi-nəzəri problemləri, dünya sivilizasiyasının inkişafında informasiya cəmiyyəti mərhələsi, Azərbaycanda informasiya cəmiyyətinin inkişaf tendensiyaları araşdırılır, o cümlədən informasiya cəmiyyətinin tələbləri baxımından dil və kommunikasiya proseslərinin fəlsəfi mahiyyəti, dil və siyasət, azərbaycançılıq ideologiyasının formalaşmasında dil amili, informasiya cəmiyyətində ünsiyyət və kommunikasiya problemləri təhlil edilir.

Monoqrafiya ictimai elmlər sahəsində çalışan mütəxəssislər, siyasətçilər, ali məktəblərin ictimai və humanitar fakültələrinin tələbələri, ümumiyyətlə, bu sahə ilə maraqlanan oxucu kütləsi üçün nəzərdə tutulub.

$D\frac{525000-786}{836-09}M$

***Hər bir xalqın milliliyini,***
***mənəvi dəyərlərini yaşadan,***
***inkişaf etdirən onun dilidir.***
**Heydər Əliyev**

## GİRİŞ:

Müasir cəmiyyət mürəkkəbliyi, qeyri-sabitliyi, müxtəlif xarakterli kolliziya və konfliktləri ilə səciyyələnir. Mövcud şəraitdə XXI əsrdə inkişaf edəcək proseslərin proqnozlaşdırılması bir tərəfdən ciddi məsələ olaraq qarşıda durur, digər tərəfdən isə bunu həyata keçirmək o qədər də asan məsələ deyil. Hazırda dünyada informasiyanın əhəmiyyəti sürətlə artır. İnformasiya bazarı yaranır, informasiyanın üstünlüyü mühüm sosial gücə çevrilir. Mövcud şəraitdə insan fəaliyyətinin ən vacib istiqamətlərini təmin edən informasiya dəyərli kütləvi məhsul və əsas əmtəə rolunu oynayır. Yəni informasiyanın cəmiyyətdə prioritet mövqeyi mühüm hadisə kimi təzahür edir. Bu isə qlobal kompüterləşmədə və insan fəaliyyətinin müxtəlif sahələrinin informasiyalaşdırılmasında özünü göstərir.

Hazırda informasiya cəmiyyətinin formalaşması prosesi baş verir. Müasir İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) cəmiyyətin sosial strukturuna, təhsilə, iqtisadiyyata, demokratik institutların inkişafına və insan fəaliyyətinin, demək olar ki, bütün istiqamətlərinə həlledici təsir göstərir, yəni informasiya prosesləri cəmiyyətin bütün sahələrinə sirayət edir. İnformasiya cəmiyyətinin xarakterini müəyyən edən əsas cəhət ondan ibarətdir ki, o artıq gələcəyin ideal obrazı, mücərrəd konstruksiya deyil, real, obyektiv əlamətlərə malik bir varlıqdır. İnformasiya cəmiyyətinin təşəkkülü prosesi informasiya-kommunikasiya texnologiyalarına əsaslanır. Müasir informasiya və telekommunikasiya texnologiyaları

cəmiyyətin sosial strukturlarına, iqtisadiyyata, demokratiyanın inkişafına həlledici təsir göstərir.

Cəmiyyətin inkişafında informasiyanın rolunun dəyişməsi və bu dəyişikliyin mahiyyətinin dərk edilməsi "informasiya cəmiyyəti"ni xarakterizə edən mühüm əlamət kimi təzahür edir. Yəni buradan belə bir qənaət hasil olur ki, dünyanın inkişafı informasiyanın toplanması ilə bağlıdır, informasiya cəmiyyəti isə insan sivilizasiyasında qanunauyğun mərhələdir.

*Sivilizasiyanın ümumi inkişaf qanunauyğunluqları müasir cəmiyyətin qlobal informasiyalaşması prosesinə imkan yaradır. Təbii ki, mövcud durum elmi-texniki, iqtisadi və sosial dəyişikliklərə səbəb olur və insanların adət etdikləri iş şəraitinə, həyat tərzinə, istirahətlərinə və s. güclü təsir göstərir. Dünya miqyasında baş verən dəyişikliklərin inkişaf tendensiyası və tempi qətiyyətlə bunu deməyə əsas verir ki, XXI əsr informasiya əsri olacaq.*

Son onilliklərdə informatika, informasiya texnologiyaları, şəbəkə texnologiyaları və telekommunikasiya sahələrində əldə edilən elmi naliyyətlər köklü şəkildə cəmiyyəti dəyişdirmişdir. Kompüter bacarıqları, gündəlik həyatda informasiya və telekommunikasiya texnologiyalarından yararlanmaq qabiliyyəti, internetdən istifadə etmək, nəzəri informatikanın əsaslarını bilmək, informasiya mədəniyyəti, elektron informasiya resurslarını yaratmaq və onlardan istifadə etmək yeni əsrin tələbləridir.

İnternetin yayılması mədəni vəziyyəti geridönməz şəkildə dəyişdirir. Bu dəyişikliklər dünyaya baxışda fərqliliklər yaradır, insanların təfəkkür tərzində və dəyərlər sistemində ciddi transformasiyalara səbəb olur. Tərbiyənin və cəmiyyətdə mənəvi birliyin əldə edilməsinin ədəbiyyat, kitab, təhsillə reallaşdırılması fikri getdikcə öz qüvvəsini itirir. "Ümumdünya ədəbiyyatı"nın yerini transmilli informasiya strukturları tutur.



Təbii ki, filosofların cəmiyyətdə baş verən bu köklü dəyişikliklərə münasibəti birmənalı deyil. Yəni yaşlı nəsil proseslərdə yüksək mədəniyyətin parçalanması əlamətlərini önə çəkirlər və bunun da qarşısının alınmasını inzibati üsullara əl atılmasında, ənənə sisteminin möhkəmləndirilməsində görürlər. Gənclər isə məsələyə daha loyal yanaşırlar. Onlar cəmiyyətin inkişafında əsas informasiya mənbəyi kimi informasiya-kommunikasiya vasitələrini görürlər. Təbii ki, hər iki tərəf öz arqumentlərində bu və ya digər şəkildə haqlıdır. Bununla belə, bu sahədə baş verən proseslərə neqativ münasibət göstərənlər hadisənin yalnız zahiri təzahürlərinə görə belə qənaətə gəlirlər. Məsələnin kökü isə daha dərindir və onun mənbəyini qlobal dəyişikliklərdə axtarmaq lazımdır. Artıq bir xeyli vaxtdır ki, insanların birgə yaşadıqları ənənəvi kollektiv mühitin aradan çıxması prosesi baş verir və cəmiyyət fərqli əsas üzərində mövcudluğunu davam etdirir. Bu baxımdan, müasir insanın yaşadığı mühit yeni informasiya reallığının ciddi nəzəri-fəlsəfi dərkini tələb edir.

İnformasiya cəmiyyəti müasir inkişaf fenomeni olaraq yeni dünya nizamını, insanlar arasında əsrlər boyu formalaşmış ünsiyyət qaydalarını kökündən dəyişən münasibətlər sisteminə keçidi xarakterizə edir. Yeni dünya nizamının qurulması çox mürəkkəb və son dərəcə ziddiyyətli proses olaraq müasir sosial gerçəkliyin bütün sahələrini, xüsusilə kommunikasiya sahəsini əhatə edir. Ümumdünya məkanına inteqrasiya prosesində dünyada baş verən güclü unifikasiya prosesləri fonunda hər bir xalqın özünəməxsusluğunu qoruyub saxlaya bilməsi və xalqlar arasında əsrlərlə formalaşmış mədəni-kommunikativ əlaqələrin mənəvi əsaslarının dağılmasına yol verilməməsi mühüm məsələdir.

Bugün insan olduqca sıx informasiya mühitində yaşayır. Bu səbəbdən də cəmiyyətdə baş verən hadisələrin dərindən dərki və analizi zərurəti yaranır. İnformasiyanın müxtəlifliyi və həddindən artıq bolluğu onun diferesiasiyasına və emalına ehtiyac yaradır. İnternetdə təqdim edilən məlumatların böyük hissəsinin dəqiq olmaması, biliklərin bir qisminin etibarlılığının şübhə doğurması informasiya cəmiyyətində fəaliyyət formalarının inkişaf etdirilməsi üçün analitik yanaşmanın vacibliyi qənaətini yaradır. Bu baxımdan mövcud şəraitdə analitik fəlsəfə dövrün tələblərini rasional, məqsədyönlü şəkildə ifadə edir və onun faydalı təsirini müasir fəlsəfənin bütün sahələrində görmək olur.

Dil gerçəkliyin dərk edilməsində vacib vasitə, insanlar arasında qarşılıqlı əlaqənin xüsusi forması olmaqla, sosial davranışın mühüm mexanizmi fəaliyyətini yerinə yetirir. Bu baxımdan informasiya cəmiyyətinin tələblərindən çıxış edərək dil və kommunikasiya proseslərinin fəlsəfi mahiyyətinin dərindən araşdırılması müasir elmin qarşısında duran mühüm məsələlərdən biridir.

Dil və siyasət sosial gerçəkliyin iki mühüm əhəmiyyət kəsb edən hadisəsi kimi, sıx şəkildə bir-biri ilə bağlıdır. Bu cür qarşılıqlı əlaqənin müxtəlif səpkili ontoloji təcəssümü nəzəri-metodoloji, analitik, deskriptiv, tətbiqi və təcrübi-texnoloji strukturlarda öz təzahürünü tapır. Belə bir sual meydana çıxa bilər ki, dil və siyasətin qarşılıqlı əlaqələrinin öyrənilməsinin mühüm cəhəti nədən ibarətdir və bu nəyə lazımdır? Suala siyasi linqvistika ilə məşğul olan mütəxəssislər belə cavab verirlər ki, bu, həm "dildə siyasət axtarışı" həm də "siyasətdə dil axtarışı"dır. Qeyd edilən fikri belə qiymətləndirmək olar ki, dil siyasətdə boyük rol oynayır və onun rolu bu sahədə getdikcə daha çox artır. Siyasi dil siyasətin və hakimiyyətin



vacib vasitəsidir, çünki o yalnız gerçəkliyi əks etdirmir, həm də onu informasiya vasitəsilə formalaşdırır. Öz növbəsində, siyasət də dilin, dil əlaqələrinin inkişafının mühüm amillərindəndir. Bu mənada dil yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də vətəndaşların siyasi davranışlarını müəyyənləşdirən idarəetmə üsulu kimi də çıxış edir.

Siyasi nitq insanların şüuruna və davranışına təsir göstərən ən güclü amillərdən biridir. Bu diskurs vasitəsilə dövlət və ictimai institutlar özlərini təqdim edirlər, legitimliklərini tanıdırlar və s. Siyasi dil vasitəsilə dövlət və beynəlxalq təşkilatlar özlərinin siyasi, iqtisadi, mədəni maraqlarını irəli sürə bilirlər. Başqa sözlə, dil siyasi davranışın determinantı və siyasi idarəetmədə vasitə kimi çıxış edir.

Hazırda Azərbaycanda dil siyasəti ölkənin milli birliyinə xidmət edir və bu mənada Azərbaycan dili dövlətimizin milli rəmzlərindəndir. Rəsmi dil siyasəti Azərbaycanda xüsusi qanun və fərmanlarda öz ifadəsini tapmışdır. Bu mühüm sənədlər respublikamızda yaşayan başqa xalqların ünsiyyət vasitələrinin fəaliyyət dairəsini məhdudlaşdırmadan, Azərbaycan dilinin tətbiqi üçün geniş imkanlar yaradır.

Azərbaycan çoxmillətli dövlətdir. Burada əksəriyyəti Azərbaycan türkləri olmaqla, müxtəlif xalqların nümayəndələri yaşayır. Azərbaycançılıq ideologiyasının əsasını da məhz bu xalqların tarixən formalaşmış milli-mənəvi dəyərləri təşkil edir. Bu ideologiya tolerantlıq, humanizm, xeyirxahlıq kimi yüksək insani keyfiyyətləri özündə ehtiva edir və Azərbaycan vətəndaşı olaraq, burada yaşayan bütün xalqlar azərbaycançılıq ideologiyasını və ölkəmizdə tarixən formalaşmış mədəniyyəti özünün mənəvi-mədəni sərvəti hesab edir. Vətəndaşlıq mövqeyi azərbaycançılığın əsas qayəsini təşkil edir və dövlətçiliyin inkişafında mühüm əhəmiyyət daşıyır. Belə ki, məhz

vətənpərvər insan öz xalqına, sözün gerçək mənasında, bağlı ola bilər, onun tərəqqi etməsində məsuliyyətini dərk edə bilər. Məhz vətənpərvərlik və dövlətçilik azərbaycançılığın əsas qayəsini təşkil edir, çünki dövlətçiliyin qurulmasında, onun inkişaf etdirilməsində vətənpərvərlik, vətənə sevgi hissi önəmli mahiyyət daşıyır. Bir məqamı xüsusilə qeyd etmək istərdik ki, vətənpərvərlik hissi vətəndaşlıq hissindən daha yüksəkdə durur, çünki vətəndaş olmaq üçün, ilk növbədə, vətənpərvər olmaq lazımdır. Təbii ki, Azərbaycanda qeyd edilən şəraitin formalaşmasında Azərbaycan dilinin əsrlər boyu burada yaşayan xalqların ünsiyyət vasitəsi, doğma dili olmasının mühüm rolu olmuşdur.

Bütövlükdə, ölkənin hərtərəfli inkişafının təmin edilməsində dünya sivilizasiyasının hazırki mövcudluğunu müəyyənləşdirən informasiya cəmiyyətinin formalaşmasının, bu istiqamətdə təzahür edən reallıqların, reallıqlardan doğan mürəkkəbliklərin, eyni zamanda informasiya cəmiyyətinin bəşəriyyətin inkişafında yaratdığı yeni perspektivlərin və s. məsələlərin araşdırılması dövrün mühüm tələblərindəndir. Qeyd edilən şəraitin gerçəkləşdirilməsində müvafiq ünsiyyət formalarının düzgün qurulmasının böyük əhəmiyyəti vardır. Bu baxımdan dil və kommunikasiya problemlərinin fəlsəfi mahiyyətinin hərtərəfli və dərindən araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Bu gün kütləvi kommunikasiya vasitələrinin cəmiyyətə təsir imkanları fonunda fəlsəfənin mövqeyi kifayət qədər hiss olunmur, çünki insanları fəlsəfi mahiyyətlərdən daha çox internet, televiziya və s. bu kimi güclü kütləvi kommunikasiya vasitələri maraqlandırır. Lakin bu vəziyyət ilk baxışdan belə təsir bağışlaya bilər, belə ki, müasir cəmiyyətin inkişaf dinamikasına nəzər yetirdikdə göz önündə belə bir mənzərə



yaranır ki, heterogenlik (müxtəliflik) dövrün spesifikliyini ifadə edir. Bu baxımdan mövcud durum fəlsəfənin rolunu nəinki azaldır, əksinə, hər zaman olduğundan daha çox artırır. Çünki dünyada baş alıb gedən ayıseçkiliyin aradan qaldırılmasının konstruktiv yollarını yenə də fəlsəfə göstərə bilər. Yəni istər cəmiyyətdə müxtəlif istiqamətlərə yönəlmiş qüvvələr arasında qarşılıqlı əlaqələrin, dialoqun qurulması yolları, istərsə də ayrı-ayrı insanların daxili, mənəvi dünyasının müvafiq məcraya yönəldilməsi imkanları yenə də fəlsəfədə tapıla bilər. Başqa sözlə, hazırda fəlsəfəyə hər zamandan daha çox ehtiyacın olması reallığı göz önündədir. Bunu doğuran çox ciddi səbəblər vardır. Belə ki, ayrı-ayrı dinlərin, ideologiyaların nümayəndələrinin, müxtəlif etnik və mədəni ənənə daşıyıcılarının birlikdə yaşamaları labüd gerçəklikdir. Buna isə yalnız birgəyaşayış qaydalarına riayət etməklə nail olmaq olar. Burada fəlsəfənin yeri ölçüyəgəlməzdir. Bu gün fəlsəfənin ümdə vəsifələrindən biri ictimaiyyəti qarşılıqlı anlaşmaya, dialoqa istiqamətləndirməkdən ibarətdir, çünki dialoq insani münasibətlərdə relyativizmi, ayırıcılığı, düşmənçiliyi aradan qaldırır. Bu mənada, təbii ki, fəlsəfə mühüm tənqidi funksiyalar gerçəkləşdirə və köhnəlmiş, inkişafa mane olan stereotiplərin yenidən nəzərdən keçirilməsinə imkan yarada bilər.

# I FƏSİL. İNFORMASİYA CƏMİYYƏTİNİN FƏLSƏFİ VƏ METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. İnformasiyanın fəlsəfi mahiyyəti və konsepsiyaları

İnformasiyanın fəlsəfəsi, bütövlükdə, fəlsəfənin bir sahəsi olaraq onun təbiətini, əsaslarını, inkişaf dinamikasını, həmçinin informasiya nəzəriyyəsinin metodlarını, eləcə də hesablama metodlarının fəlsəfi problemlərə tətbiqi məsələlərini öyrənir. Bu baxımdan informasiya anlayışı elm üçün fundamental mahiyyət daşıyır. Təbii ki, bu kontekstdə informasiyanın dərk edilməsi ilə fəlsəfə məşğul olur.

Yeni elm sahələrinin, idrak fəaliyyətinin metod və üsullarının yaranması, adətən, müxtəlif səpkili ümumelmi fenomenlərə metodoloji yanaşmalara marağı artırır. Bu marağın isə ciddi əsasları vardır; belə ki, məhz ümumelmi fenomenlər universal fəlsəfi metodologiya ilə konkret elmlərə aid metodologiyalar arasında spesifik əlaqələr yarada bilirlər. Bu baxımdan informasiya fenomeni bu qəbildən ümumelmi sahələrin ən bariz nümunəsidir. Buna görə də insan və cəmiyyət həyatında informasiyanın reallıq olaraq fəlsəfi dərki indiki zamanda böyük əhəmiyyət kəsb edir. Əslində isə aşkar şəkildə yeni bilik sistemi formalaşır. Bu bilik sistemi təbiət və sosial gerçəkliyin informativ inkişaf qanunauyğunluqları haqqında təlim kimi təzahür edir. İnformasiyanın ümumi nəzəriyyəsi elmi biliyin bütün sahələrinə, yəni nəzəri və tətbiqi istiqamətlərə sirayət edir. Qeyd edək ki, tətbiqi informatika sahəsində bir çox problemlərə dair, yəni informasiya texnologiyaları, proqram təminatı, maddi-texniki təchizat və s. məsələlərdə müəyyən fikir aydınlığı hasil olsa da, informasiyanın nəzəri kontekstində qeyri-müəyyənliklər az deyil, ən əsası isə, onun terminologiyası hələ tam müəyyənləşməyib. Bunun səbəbini problemin



özünün mürəkkəbliyində axtarmaq lazımdır, çünki informatikanın nəzəri təhlili bir çox elm sahələri, o cümlədən təbiət elmləri, sosial və humanitar biliklər və s. ilə sıx surətdə bağlıdır. Təbii ki, belə şərait bir çox elm sahələrinin qarşılıqlı əlaqəsini tələb edir ki, problemin təhlilində yaranan çətinliklər də məhz bundan qaynaqlanır.

İnformasiya fenomeninin fəlsəfi dərki çoxşaxəli problemdir. Aydındır ki, fəlsəfi analiz müəyyən üsul və qaydalara əsaslanan ənənəvi düşüncə tərzinin mövcudluğunu nəzərdə tutur. Yəni mövcud reallıqlar subyektib təfəkkürün spesifikliyinə təsir edir, informasion mentallığı formalaşdırır və bütün bunlar da öz növbəsində elmi biliklərin müxtəlif sahələrinə nüfuz edir.

Qeyd etmək lazımdır ki, "informasiya" anlayışı və bundan törənən ifadələr fəlsəfədə, sosiologiyada, psixologiyada, iqtisadiyyatda, politologiyada və s. bu və ya digər şəkildə öz yerini müəyyənləşdirir. ***Bütövlükdə, "informasiya" məfhumu haqqında belə bir fikir söyləmək olar ki, o, təbiət, insan və cəmiyyətin inkişafının dərk edilməsində varlığın universal fenomenidir.*** Hazırda informasiya bizi əhatə edən mühüm xüsusiyyətə malik materiya, əlamət kimi nəzərdən keçirilir və biz hələ onun cüzi bir hissəsini belə anlayıb özümüz üçün aydınlaşdıra bilməmişik.

İnformasiya fenomeninin öyrənilməsi, ilk növbədə, informasiya anlayışının mahiyyətinin müəyyənləşdirilməsini zəruri edir. Çünki, qeyd edildiyi kimi, mövzu olduqca geniş əhatə dairəsinə malikdir. İnformasiya nəzəriyyəsi riyaziyyatın bir bölməsi olaraq, siqnalların ötürülməsi, qəbul edilməsi və emal edilməsi problemlərini öyrənir. Əsasən, ehtimal nəzəriyyəsində və təsadüfi təzahürlər nəzəriyyəsində istifadə olunan siq-

nalın nizamlılıq səviyyəsinin (təsadüfi olmamasının) ölçülməsində K.E.Şennonun riyazi metodları bazasında inkişaf etmişdir. Bunun sayəsində mənbənin informasiyanı istehsal etməsinə, sürətinin müəyyənləşdirilməsinə, onun emalında kanalların ötürücülük imkanlarının dəqiqləşdirilməsinə dair metodlar yarandı. Bu metodlar rabitə sistemlərinin layihələndirilməsində mühüm əhəmiyyət daşıyır, linqvistikada, psixologiyada, hətta ədəbiyyat nəzəriyyəsində geniş tətbiq olunur".[1]

Başlanğıcda informasiya anlayışı məişətdə gündəlik ünsiyyət vasitəsi olaraq dilin funksional elementi kimi müəyyən edilirdi. Bu araşdırmalarda informasiya fənlərarası məna daşıyan ümumelmi kateqoriya kimi nəzərdən keçirilirdi. Daha sonra R. Hartli və K. Şennon (Klod Elvud Şennon "informasiya əsrinin atası" hesab olunur) "informasiya" terminini rabitə və mühəndislik kommunikasiyalarına aid işlərdə istifadə etməyə başladılar. Bu araşdırmalarda informasiya fənlərarası mahiyyətə malik ümumelmi kateqoriya kimi təqdim olunurdu. Şennonun riyazi əlaqə nəzəriyyəsində informsiya maddi sistemlərdə entropiya yaradan vasitə kimi qeyd edilir. Aydındır ki, burada entropiya sistemin nizamsızlıq dərəcəsi kimi qiymətləndirilir. Riyaziyyatçılardan sonra informasiyanı kateqoriya olaraq fiziklər də qeyd etməyə başladılar. Nəticədə, görkəmli alim, müasir bərk cisimlər fizikasının yaradıcısı L.Brillüen xüsusi informasiya nəzəriyyəsini yaratdı. Alim belə bir qənaətə gəldi ki, maddənin fiziki təzahürləri ilə sıx əlaqədə olan "informasiya" anlayışı böyük qnoseoloji potensiala malikdir.

Amerikan alimi, görkəmli riyaziyyatçı, filosof, kibernetikanın və süni intellekt nəzəriyyəsinin banisi Norbert Viner informasiya anlayışını ümumelmi dövriyyəyə daxil etdi

[1] Bax: Бриллюэн Л. Наука и теория информации. М.: Наука, 1960.



(1948-ci il) və oradan bu anlayış bütün səviyyələrə–gündəlik həyatdan başlamış fəlsəfəyə qədər yayıldı. Təqribən elə o illərdə informasiya nəzəriyyəsi (K.Şennon) formalaşmağa başladı. İnformasiya anlayışına dair çoxlu sayda təriflər (yüzdən çox) mövcuddur, lakin hamını qane edə biləcək bir tərif hələ yaradılmayıb. Bu da təbiidir, çünki əksər elm sahələrinə aid anlayışlara müəyyənləşmiş münasibət formalaşdırmaq çətindir. Özü də bu məsələ tək informasiya anlayışına aid deyil. Hətta ilk baxışdan sabitləşmiş təəssüratlar yaradan bəzi anlayışlar belə, ya sürətlə, ya da tədricən dəyişikliyə uğrayır.

İnformasiya anlayışı kibernetika, informasiya nəzəriyyəsi, informatika sahələrində tədqiqat aparan alimlərin sayəsində deyil, daha çox XX əsrin 40-cı illərində rabitənin inkişafı, atəşin idarə edilməsi, radiolokasiya, şifrələmə kimi hərbi ehtiyaclardan, eləcə də elektron kompüterlərin ixtirası sayəsində təşəkkül tapdı. İnformasiyanın əsas funksiyalarına müvafiq olaraq idarəetmə və konmmunikasiya (əlaqə) da nəzərdə tutuldu. İnformasiya bu funksiyaları özünün xüsusi formaları sayəsində idarəetmə və rabitə kanalları vasitəsilə reallaşdırmağa başladı. Bu informasiya funksional informasiya hesab olunurdu.

XX əsrin 60-cı illərində qeyd olunan əsərlərin nəşrindən sonra bu anlayışın qiymətləndirilməsində əhəmiyyətli sıçrayış baş verdi. Aparılan araşdırmalara müvafiq olaraq hər bir tədqiqatçı bu anlayışa müəyyən məna verirdi: informasiya xarici aləmdən ona (yəni xarici aləmə) uyğunlaşma prosesində əldə edilən məzmundur (Vinner); informasiya entropiyanın inkar edilməsidir (Brillüen); informasiya-kommunikasiya və əlaqə sayəsində qeyri-müəyyənliklər aradan qaldırılır (Şennon); informasiya müxtəlifliyin ifadə edilməsidir (Eşbi); informasi-

ya orijinallıq, yenilikdir; informasiya strukturun mürəkkəbliyinin ölçüsüdür (Mol); informasiya seçim ehtimalıdır (Yaqlom)[2].

Belə bir qənaət formalaşıb ki, informasiyanın fəlsəfəsi özündə üç əsas məsələni ehtiva edir: informasiya bir varlıq kimi; informasiyanın fəlsəfi statusu; informasiya ətraf mühitdə. Bu gün informasiyanın təbiətinə dair mülahizələr onun müxtəlif xüsusiyyətlərini əhatə edir və bu istiqamətdə yekdil fikir yoxdur. Belə ki, bəziləri hesab edirlər ki, o, bütün maddi obyektlərin atributudur, digərlərinə görə, informasiya canlı özünütəşkil və özünüidarəedən sistemlərə aid xüsusiyyətdir. Onu (yəni informasiyanı) yalnız insan şüurunun funksiyası kimi qəbul edənlər də vardır. Qeyd edilən fikirlərin hamısında bu anlayışın müəyyən tərəfləri ifadə olunur. İnformasiya həmişə fəlsəfənin ən fundamental məsələləri: varlıq və təfəkkür, dil, canlı və hətta cansız təbiət, kibernetik sferada və insan cəmiyyətində kommunikasiya, süni intellektin yaranması və funksiyası, virtual reallıq problemi ilə əlaqədar olub.

Tədqiqatçılar reallığın, əsasən, iki tipini ayırırlar: mümkün reallıq və gerçək reallıq. Kontekstdən çıxış edilərək, qeyd edilən reallıqların virtual və aktual varlıq formaları da nəzərdə tutulur. Hazırda informasiya "gerçək reallıq" kimi qəbul edilir, yəni hesab olunur ki, əksər hallarda "virtual" (ehtimal edilən) reallıq kimi nəzərdə tutulan informasiya reallığı mövcud reallıqdır. Qeyd edək ki, bu gün dövriyyədə olan heç bir elmi termin "virtual" anlayışı qədər məntiqi uyğunsuzluq yaratmır. Bəziləri "virtual" ifadəsini əsli olmayan, bəziləri isə xəyali, digərləri isə mövcud olmayan, qeyri-maddi anlayışlar kimi qəbul edirlər. Məsələn, "real dünyanın mövcudluğunu virtual

[2] http://www.dissercat.com/content/fenomen-informatsii-v-kontekste-nauchnogo-poznaniya-filosofskii-analiz



dünyaya köçürmək mümkün olmadığı kimi, virtual dünyanın məntiqini və azadlığını da gerçək dünyaya köçürmək mümkün deyil".[3] Burada bu terminlər arasında incə bir sədd mövcuddur. Yəni "virtual" adlanan dünya, əslində, informasiya dünyasıdır. Yəqin ki, informasiya dünyasını real dünyaya deyil, maddi dünyaya qarşı qoymaq məntiqə daha uyğundur. Düşünürük ki, bu yanaşmada da anlaşılmazlıqların meydana çıxmaması üçün, bir sıra tədqiqatçıların fikrinə müvafiq olaraq, bu proseslərin təsvir edilməsində aydın anlaşılan "informasiya reallığı" termininin işlədilməsi daha məqsədəuyğun olar.

İnformasiya reallığı mövcud olan və olmayan obrazları, modelləri və hadisələri nəzərdə tutur. Əşyalar və proseslər insan fəaliyyəti sayəsində reallaşan zaman onların maddi varlıq kimi mövcudluğunu mütləq şəkildə informasiya mövcudluğu da müşayiət edir. Temporal (fikir və mülahizələrdə zaman aspektinin nəzərə alındığı məntiq) əlamətə görə informasiya reallığını iki tipə bölürlər: keçmiş və indiki mövcudluq. Təbii ki, bu iki tipə müvafiq olaraq informasiya reallığı iki əsas funksiyasını həyata keçirir: varlığın dərk edilməsi və onun dəyişdirilməsi.[4]

XX əsrin 70-ci illərində elmin, fəlsəfi fikrin inkişafı informasiya probleminin öyrənilməsinin vacibliyi məsələsini ortaya qoydu. Bu mənada, əsasən üç istiqamətdə müzakirələr aparıldı. Belə ki, bəzi tədqiqatçılara görə, informasiya *atributiv* mahiyyət daşıyır, bir qrup tədqiqatçılar hesab edirlər

[3] Чичнева Е. А. Право и Интернет. Правовые проблемы Интернета // Вестник МГУ. Серия 7. Философия. 2002. № 3. С. 113.
[4] https://www.socionauki.ru/journal/articles/253171/

ki, *funksional,* digərləri isə *antropoloji* konsepsiyanı qeyd edirlər.[5]

Atributivistlərə görə, informasiya bütün mövcud olana aid xüsusiyyətdir. Yəni informasiya Kainatla birgə yaranıb. Onlar hesab edirlər ki, informasiya bütün materiyanın, yəni qeyri-üzvi və üzvi təbiətin, düşünən materiyanın (insanın) atributudur. Atributivistlər informasiyanı sistemin bir xüsusiyyəti, informasiya münasibətlərini isə həm sistemin daxilində, həm də ondan kənarda qarşılıqlı əlaqə üsulu kimi nəzərdən keçirirlər. Bu konsepsiyanın tərəfdarlarına görə, hərəkətin materiyada mövcudluq imkanları həmin sistemin informasiya səviyyəsinin və strukturunun inikasıdır. Kibernetika sahəsində əldə edilən nailiyyətlər sayəsində atributivistlər inikas nəzəriyyəsinin sərhədlərini genişləndirdilər, yəni onu nəzəri baxımdan yeniləndirdilər və belə qənaətə gəldilər ki, əksetdirmə materiyanın ümumi xüsusiyyəti olduğundan hər bir struktur özünəməxsus əlamətlərə malikdir. İnformasiyanı bütün sistemlərə aid olan xüsusiyyət kimi nəzərdən keçirən atributivistlər onun yalnız kibernetik sistemlərə aid olduğunu inkar edərək, informasiya haqqında təsəvvürləri genişləndirdilər.[6]

İnformasiyanın digər bir konsepsiyası funksional konsepsiyadır. Funksional yanaşmaya görə, informasiya həyat yarănandan sonra meydana gəlmişdir, çünki o, canlı orqanizm və insan cəmiyyəti kimi, mürəkkəb, özünütəşkiledən sistemlərin fəaliyyəti ilə bağlıdır. Belə olduqda, funksionalistlər biotik (biotik amil dedikdə, orqanizmlərin həm növdaxili, həm də müxtəlif

[5] http://school-collection.lyceum62.ru/ecor/storage/00bbcabd-a4bc-4f76-85738e5d051507d4/[INF11_01_04_TI].html
[6] Винер Н. Кибернетика, или управление и связь в животном и машине. - М.: Сов. радио, 1958. / http://filosof.historic.ru/books/item/f00/s00/z0000889/st000.shtml



növlər arasında təsir formaları nəzərdə tutulur) səviyyəyə qədərki dövrdə informasiyanın mövcudluğunu nəzərdən qaçırır, maddi aləmin sadədən-mürəkkəbə, cansızdan-canlıya doğru təkamül mərhələsini tarixi proseslərdən kənarlaşdırırlar. Bununla belə, hazırda mütəxəssislərin böyük bir qismi informasiyanın funksional təbiətə malik olması konsepsiyasına tərəfdardırlar.

Funksionalistlər informasiyanın materiyanın bütün səviyyələrində, o cümlədən cansız təbiət səviyyəsində də mövcud olduğunu inkar etmirlər. Onlar informasiyanın qeyri-üzvi sistemlərdə funksionallığını inkar edirlər. Funksional yanaşmanın nəzəri çətinlikləri informasiyanın idarəetmədə istifadə olunmamasının izahı zamanı yaranır. Funksionalistlər hesab edirlər ki, cansız materiya potensial olaraq informasiyaya malikdir, lakin onlarda (yəni cansız materiyada) informasiya prosesləri mövcud deyil. Burada informasiya statikdir, funksional deyil, qarşılıqlı mübadilədə iştirak etmir.

İnformasiyanın antropoloji konsepsiyasına görə isə informasiya yalnız insan şüurunda, onun qavrayışında mövcuddur. İnformasiya fəaliyyəti yalnız insana aiddir və o, sosial sistemlərdə baş verir.

Düşünürük ki, hər üç konsepsiya öz-özlüyündə müvafiq gerçəkliyi ifadə edir. Belə ki, birinci və ikinsi konsepsiyada (atributiv, funksional) informasiya müəyyən mənada passiv şəkildə də olsa, amma mövcuddur. Məhz bu informasiyaların mövcudluğu sayəsində üçüncü (antropoloji) fəaliyyət gerçəkləşə bilir. Yəni əvvəlki iki informasiya növü onun daşıyıcılarıdırsa, onların reallaşdırılması, fəaliyyəti isə insan şüurunda, insanın qavrayışında gerçəkləşir.

Qeyd etmək lazımdır ki, hazırda informasiya kateqoriyasına dair yanaşmalarda ciddi fikir ayrılığı müşahidə olunmur.



İnv. № -26479-
PREZİDENT KİTABXANASI

Hətta problemin çoxtərəfli tədqiqatı yanaşmalarda yaxınlaşmalara inkan yaradır. XX əsrin ortalarında İ.R.Priqojinin və Q.Hakenin özünütəşkilin idraki modellərinə dair fikirləri atributiv konsepsiyanı nəzəri cəhətdən təkmilləşdirdi.[7] Özünütəşkil prinsipləri açıq sistemlərin inkişaf xüsusiyyətlərinin araşdırılmasında istifadə edilməyə başladı. Açıq sistemlər dedikdə isə burada ətraf mühitlə əlaqədə olan informasiya sistemləri nəzərdə tutulur.

*****

Biliyin dinamikası onun müxtəlif sistemlərinin sürətli inkişafı, yeni elmi paradiqmaların yaranması ilə xarakterizə olunur. Gerçəkliyin informasiya paradiqmasının dərk edilməsi informasiya cəmiyyətinin şərtləndirdiyi çərçivədə biliyin funksiyasının keyfiyyətcə yeni sosiomədəni tələblərilə sıx surətdə bağlıdır. Tarix boyu hər bir cəmiyyət özündə müxtəlif səpkili informasiyalar daşıyıb. Lakin müasir dövrdə informasiya proseslərinin inkişafı indiyə qədər analoqu olmayan bır fenomen kimi təzahür edir.

Alimlərin apardıqları təhlillərin və gəlinən qənaətlərin nəticəsi olaraq, bütövlükdə informasiya fenomeninin cəmiyyət və insan üçün pozitiv dəyər daşıdığı müəyyənləşib. İnformasiyanın insan və cəmiyyət üçün əhəmiyyətinin dərki uzun zaman çərçivəsində baş vermişdir. Təbii ki, hər bir informasiya insan üçün faydalı ola bilməz, çünki onun dəyəri o zaman üzə çıxır ki, o, insanı biliklərə yiyələnməyə istiqamətləndirir. Bu tezisin mahiyyətini açıqlamaq üçün əvvəlcə qeyd edilən anlayışların məzmununa nəzər yetirməyə çalışaq. Ümumilikdə, bilik dünya

[7] Хакен. Синергетика. Иерархии неустойчивостей в самоорганизующихся системах и устройствах. М.: Мир. 1985. http://booksshare.net/books/physics/hakeng/1985/files/sinergetikaierarhiineustoychivostey1985.pdf



haqqında məlumatların, obyektlərin xüsusiyyətlərinin, proses və hadisələrin qanunauyğunluqlarının məcmusudur, həmçinin qərarların qəbul edilməsində istifadə imkanıdır; insanın idraki fəaliyyətinin nəticələrinin sistemləşdirilmə formasıdır. Geniş mənada bilik gerçəkliyin anlayış və təsəvvürlər vasitəsilə ifadəsinin subyektiv obrazıdır. Dar mənada isə bilik qoyulan məsələnin həll edilməsi üçün yoxlanılmış informasiyanın mövcud olmasıdır. İnformasiya haqqında yuxarıda geniş məlumat verilmişdir, lakin bu kontekstdə konkret olaraq belə bir fikri də söyləmək olar ki, o, kommunikasiya proseslərində insan tərəfindən gerçəkliyin qavranmasının əksi və müxtəlif vasitələrlə ifadəsidir. Həmçinin informasiya müxtəlif hadisələrdən əldə olunmuş faktlara əsasən situasiyaların təsvir və izahında biliyin tətbiq edilməsidir. Lakin bu, hələ bilik deyil. Yəni informasiyanın biliyə çevrilməsi çox mürəkkəb prosesdir. Əgər informasiya pərakəndədirsə və müəyyən təhlilə, sistemləşdirməyə cəlb edilə bilinmirsə, bu vəziyyət məsələni daha da mürəkkəbləşdirir. İnformasiya mexaniki şəkildə qəbul edilməməlidir, o, dərk olunmalıdır. Ümumi qənaət bundan ibarətdir ki, bilik müəyyən struktura malikdir. İnformasiya isə müxtəlif mahiyyət daşıya bilər. İnformasiyanın biliyə çevrilməsi insanın onu anlaması, yadda saxlaması, analiz etməsi qabiliyyəti ilə bilavasitə bağlıdır. Bununla belə, informasiya və bilik arasında sərhədlər qeyri-müəyyəndir və bir çox hallarda onu qəbul edən subyektlə bağlıdır. Belə ki, bu, ilk növbədə informasiyanı qavrayan insanın düşüncə səviyyəsi ilə əlaqədardır. Yəni ilk baxışdan əhəmiyyət daşımayan adi bir işarə də savadlı insan üçün bilik mənbəyi ola bilər. Burada yaddaş və düşüncə arasında münasibətə də diqqət yetirmək gərəkdir, çünki insanın çox güclü yaddaşı ola bilər, lakin

düşünmə imkanlarının zəif olması faktı da nəzərdən qaçırılmamalıdır. Bunları qeyd etməkdə məqsədimiz infomasiyanın biliyə çevrilməsinin nə qədər mürəkkəb bir proses olduğunu diqqətə çatdırmaqdır.

İnsan həyatında biliyin son dərəcə böyük əhəmiyyəti vardır. O, ömür boyu insanı müşayiət edir və insanların, xalqların həyatında, bütövlükdə, dünyanın taleyində mühüm əhəmiyyət daşıyır. İnsanı əhatə edən real dünya onun şüurunda informasiya şəklində əks olunur və bu informasiya insanda dünyaya baxışı formalaşdırır. Məhz bu ardıcıllıqdan insan öz mövcudluğunu təmin etmək üçün faydalanır. Bütün ömrü boyu insan informasiya ehtiyatı toplayır. Bu informasiyanın böyük bir hissəsi işlənməmiş, emal edilməmiş səviyyədə qalır və əldə edilən informasiyanın faydalı olması, ilk növbədə, onu qəbul edənin bilik və təcrübəsindən asılı olur. Eyni informasiya müxtəlif insanlar tərəfindən tamamilə fərqli şəkildə anlaşıla bilər və təbii ki, bunlardan da fərqli nəticələr ortaya çıxa bilər. Burada digər bir əsas məqam da ondan ibarətdir ki, fərdin normal inkişafı və bütövlükdə, intellektinin reallaşması üçün yararlı informasiya təminatı və şəxsin psixi, intellektual aktivliyi mühüm əhəmiyyət daşıyır. Başqa sözlə, qəbul edilən informasiya ətraf mühit və kainat qanunlarının dərk edilməsində sistemli biliyə çevrilməlidir. Bu gün texnika və texnologiyaların inkişafı sayəsində informasiya bolluğu hökm sürür, lakin bilik tutumlu informasiyalar azdır. Bu mənada insanın informasiya selindən özünə lazım olanı seçməsi, qeyd edildiyi kimi, artıq onun bilik səviyyəsindən çox asılıdır.

İnformasiya və bilik anlayışları insan haqqında elmlər üçün böyük əhəmiyyət daşıyır və bu ifadələrin izahına dair elmi ədəbiyyatda saysız-hesabsız münasibətlər mövcuddur. Lakin



"informasiya", "informasiya cəmiyyəti", "informasiya texnologiyaları" və s. ifadələrin tez-tez istifadəsi bu konseptlərin mahiyyətlərinin aydın olması qənaətini yaratmır, əksinə, bunların mənalarında daha çox qeyri-müəyyənliyin, bəzi hallarda isə ümumiyyətlə, təhriflərə yol verildiyinə rast gəlinir. Cəmiyyətdə proseslərin sürətli inkişafı (xüsusilə də müasir dövrdə) elə bir şərait yaradıb ki, bəzi hallarda terminlər bu günün reallıqlarını ifadə edərkən öz səmərəliliklərini itirirlər, bəzi hallarda isə bu reallıqların mənaları, prinsip etibarilə, gerçəkliyi əhatə edə bilmir. Bilik yalnız koqnitiv aktivlik deyil, o həm də prosesdir. Antropoloji paradiqma çərçivəsində bilik hər bir şəxsin fərdi nailiyyətidir. Burada bilik və informasiya arasında daha bir demorkasiya xətti keçir. Yəni əsas məsələ qarşıya qoyulan məqsəddir, çünki bu prosesdə məhz məqsəd strukturyaradıcı rol oynayaraq biliyin lazımlılıq səviyyəsini müəyyənləşdirir.

Bilik yalnız dünyada mövcud olanın təsviri deyil, o həm də insanın yaşam tərzini, cəmiyyəti, insanı əhatə edən dəyərlər sistemini ehtiva edir. Yuxarıda qeyd edildiyi kimi, anlayışlar, xüsusilə ictimai elmlər sahəsində funksiya göstərən terminlər çoxmənalı və mürəkkəb xüsusiyyət daşıyırlar. Bu mənada "dəyər" anlayışının əhatə etdiyi məna çalarlarına diqqət yetirək. Təbii ki, problemin qoyuluşu kontekstində dəyər anlayışı yalnız etik-estetik mahiyyəti əhatə etmir. Burada geniş mənada, yəni sosiomədəni və psixoloji istiqamətlərdə fərdin dünyagörüşünü formalaşdıran qiymətləndirmənin bütün parametrləri nəzərdə tutulur. Elmi bilik də dəyər komponentinə malikdir. Lakin bu mənada dəyərləndirmə daha çox subyektiv mahiyyət daşıyır. Yəni ayrıca olaraq hər bir fərd müəyyən faktları qəbul və ya inkar edə bilir. ***Bütövlükdə, bilik informasiyadan istifadənin bir üsuludur və obyektiv qərarın***

*əldə edilməsi üçün mövcud təcrübənin qarşıda qoyulan məqsədlə qarşılıqlı münasibətinin nisbətini müəyyənləşdirmək bacarığından alınan qənaətdir.*

Bu gün insan fəaliyyəti daha çox müxtəlif texnologiya və kompüter proqramlarında kodifikasiya olunmuş biliyə əsaslanır. Prosesin miqyası o qədər genişdir ki, artıq biliyə əsaslanan cəmiyyət formalaşır və bu bilik kifayət qədər mürəkkəb, ixtisaslaşmış sahələri əhatə etdiyindən onlardan istifadə üçün xüsusi informasiya və telekommunikasiya vasitələrinə ehtiyac yaranır. Yəni elmi biliyin dinamikası onun müxtəlif sistemlərinin sürətlə yenilənməsi, yeni elmi paradiqmaların meydana gəlməsi ilə xarakterizə olunur. Gerçəkliyin dərk edilməsinin informasiya paradiqması informasiya cəmiyyəti şəraitində biliyin funksiyası ilə sıx surətdə bağlıdır. Müasir dövrdə informasiyanın fəaliyyət xüsusiyyətləri, informasiya proseslərinin inkişafı ictimai həyatın bütün sahələrinə, o cümlədən biliyin inkişaf xüsusiyyətlərinə sirayət edir. Bu səbəbdən də hazırda informasiyanı biliyə çevirməyi bacaran və təbii ki, bu prosesi reallaşdıra bilən vasitələrə malik olan ölkələrin inkişaf səviyyəsi də yüksəkdir.



## 1.2. İnformasiya cəmiyyətinin fəlsəfi, elmi-nəzəri mahiyyəti

"İnformasiya cəmiyyəti" termini kifayət qədər geniş yayılsa da, onun fəlsəfədə yeri hələ ətraflı şəkildə müəyyən edilməyib. Bir fikri qeyd etmək kifayətdir ki, fəlsəfəyə dair ədəbiyyatda informasiya cəmiyyəti bir kateqoriya olaraq, demək olar ki, nəzərdən keçirilmir. Təbii ki, belə bir vəziyyət müəyyən nəzəri və metodoloji çətinliklərin yaranmasına səbəb olur. Fəlsəfə bu problemlərin təhlilindən kənarda qalmayıb, lakin informasiya fenomeninin refleksiv dərkində, bu anlayışla bağlı olan reallıqların, həmçinin "informasiya cəmiyyəti" konsepsiyasının statusunun müəyyən edilməsində qənaətləndirici nəticələr əldə edilməyib. Buna səbəb isə müasir dövrün spesifikliyini xarakterizə edən əsas cəhətin informasiya texnologiyalarının inkişafının təsiri altında cəmiyyətdə baş verən dəyişikliklərin sürətlə baş verməsidir. Yəni inkişaf istiqamətləri çox sürətlə gerçəkləşdiyindən onların tam formalaşmasını gözləməyə zaman qalmır. Başqa sözlə dünən yeni olan, bu gün artıq yeni olmaya bilir. Bununla belə, informasiya cəmiyyəti konsepsiyalarının təhlili nəticəsində belə bir qənaət yaranır ki, o, əsasən, üç xarakteristikaya malikdir: informasiya iqtisadi resurs kimi istifadə olunur; informasiyadan əhali kütləvi şəkildə istifadə edə bilir; informasiya sektorunun intensiv şəkildə formalaşması prosesi baş verir.

"İnformasiya cəmiyyəti"nin *qnoseoloji* funksiyası idrakda dünyaya baxışı müəyyənləşdirməkdən ibarətdir. Bu mənada informasiya fenomeninin öyrənilməsinin qnoseoloji perspektivlərinin sərhədi yoxdur, çünki idrak özü sonsuz prosesdir. Bu ümumelmi anlayış haqlı olaraq, öz mahiyyətinin müxtəlifliyi ilə müasir fəlsəfi sistemə daxil olub. "İnformasiya cəmiyyəti" anlayışının fəlsəfi mahiyyəti ondan ibarətdir ki, artıq bu hadisə

fəlsəfi dünyagörüşündə özünəməxsus funksiyalar yerinə yetirməyə başlayıb. Bu baxımdan insanın dünyada universal varlıq təcrübəsinin mühüm komponenti olan informasiyanın fəlsəfi analizinin böyük əhəmiyyəti vardır. Bir neçə onilliklərdir ki, dünya ictimaiyyəti tədricən və labüd şəkildə ictimai inkişafın yeni mərhələsi olan informasiya cəmiyyəti fenomenini dərk etməyə, öyrənməyə çalışır. Məsələyə bu kontekstdən yanaşıldıqda qətiyyətlə demək olar ki, informasiya cəmiyyəti tarixi reallıqdır.

Kompüter texnologiyaları vasitəsilə istənilən həcmdə informasiyanın bir an içərisində bütün dünyaya ötürülməsi imkanları bugünkü sivilizasiyanın informasiya erasına daxil olduğundan xəbər verir. Hazırda mövzu kifayət qədər geniş şəkildə müzakirə olunur və hadisəyə münasibət birmənalı deyil. Belə ki, baş verənləri bəşəriyyət tarixində yeni eranın mahiyyətini əhatə edən mühüm hadisə kimi qəbul edənlər də, bunları narahatlıqla izləyənlər və bu dəyişikliklərin insan həyatını çətinləşdirdiyini, onu gerçəklikdən uzaq olan virtual dünyaya apardığını hesab edənlər də vardır. Digərləri isə informasiya texnologiyalarının açdığı yeni imkan və perspektivləri təqdir etməklə yanaşı, yaranan təhlükələrin dərk edilməsini və vaxtında aradan qaldırılmasını düzgün seçim hesab edirlər. Lakin informasiya cəmiyyətinin insan həyatını kökündən dəyişdirməsi fikri heç kəsdə şübhə doğurmur. Məsələ ondadır ki, informasiya çevrilişinin uğurları və parlaq perspektivləri ətrafında cərəyan edən eyforiya əhval-ruhiyyəsi çəkildikcə mövcud təhlükələr və təhdidlər daha aydın şəkildə özünü göstərməyə başladı. Qənaət isə ondan ibarətdir ki, rəqəmsal texnikanın və informasiya texnologiyalarının inkişafı cəmiyyət həyatına total təsir göstərir və bununla da sürətlə həyat şərtlərini dəyişdirir.

İnformasiya cəmiyyəti ictimai varlığa yeni sosial-fəlsəfi konsepsiya təqdim edir. Bu konsepsiya özündə bəşəriyyətin



inkişafında iqtisadi, siyasi, mədəni-estetik və əxlaqi-etik mərhələləri ehtiva edir. Təbii ki, tarixin dövrlərə, mərhələlərə ayrılması şərti xarakter daşısa da, məhz belə yanaşmada ictimai münasibətlərdə, insanların təfəkkür tərzlərində, onların davranışlarında baş verən dəyişiklikləri müəyyənləşdirmək mümkün olur. Burada, ilk növbədə, siyasi plüralizm, sosial ədalət, fərdi azadlıq, tolerantlıq dünyagörüşü kimi ictimai şüurun ümumbəşəri dəyərlərindən söhbət gedir.

Hazırda informasiya cəmiyyətində istehsal sistemlərinin təşkili intellektual və informasiya imkanlarının aktivliyinin maksimallaşdırılması prinsiplərinə əsaslanılaraq, informasiya və elmi texnologiyanın inkişaf və yayılması ilə reallaşır. İnformasiya və kommunikasiya texnologiyalarının hərtərəfli inkişafı cəmiyyətin strukturunu köklü şəkildə dəyişir. Lakin məsələ yalnız mövcud dəyişikliklərdə deyil. Yaranan yeni ictimai strukturlar müxtəlif sosial mahiyyət daşıyan məsələlərin meydana çıxmasına səbəb olurlar. Bunlar fərqli problemləri əhatə edir. Milyonlarla insanın ağır, üzücü işdən azad edilməsi və bunun sayəsində onların asudə vaxtdan səmərəli istifadəsinə imkan yaratdığı kimi, qlobal iqtisadi böhranlara, işsizlik və güclü sosial sarsıntılara da səbəb ola bilirlər. Ən böyük təsirə isə insanların mənəvi dünyası məruz qalır və hətta əxlaqi dəyərlərin əsası sarsıla bilir. Bəşəriyyətin inkişafını yalnız elm və texnikanın əldə etdiyi nailiyyətlər müəyyənləşdirmir, burada dövrün tələblərinə müvafiq olaraq sosial sistemin tələbatlarını əks etdirən davranış normalarının formalaşdırılması, mədəniyyətin inkişaf etdirilməsi kimi amillər də olduqca böyük əhəmiyyət kəsb edir. Mədəniyyət isə bütövlükdə elm və texnkanın inkişafı istiqamətində cəmiyyətin əldə etdiyi ilə yanaşı insani münasibətlərin humanistləşdirilməsi səviyyəsini də xarakterizə edir. Mədəni proseslərin mahiyyətinin bu şəkildə dərk edilməsi belə bir qənaətə rəvac

verir ki, bütün dəyişikliklər ümumbəşəri dəyərlər və humanizm prinsiplərinə əsaslanılaraq həyata keçirilməlidir.

İnformasiya cəmiyyətinin *metodoloji* funksiyası onunla izah olunur ki, o cəmiyyətin inkişafının təhlili istiqamətində nəzəri-idraki məsələlərin həllində bir üsul rolunu oynayır. İnformasiya cəmiyyətinin yaranmasının mühüm səbəbləri kimi, məlumatların, xüsusilə də elmi məlumatların həcminin sürətlə artması, kompüter və internet şəbəkələrinin geniş tətbiqi əsasında müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılması, istehsal proseslərində, texnikada, idarəetmədə və digər fəaliyyət sahələrində məlumatlardan (xüsusən də nəzəri biliklərdən) aktiv şəkildə istifadə olunması və s. hesab oluna bilər. Bu onunla əlaqədardır ki, əsasən, praktiki və situativ biliklərin üstünlük təşkil etdiyi əvvəlki dövrlərdən fəlqli olaraq, hazırda nəzəri biliklər daha çox əhəmiyyət daşıyır. Yəni "bilik cəmiyyəti" ifadəsi təsadüfən yaranmayıb. İnsan fəaliyyətinin müxtəlif sahələrində informasiyanın üstünlük təşkil etməsinə, müasir informasiya və kommunikasiya infrastrukturunun yaratdığı geniş texnoloji imkanlara istinad edilərək əksər hallarda informasiya və ya kompüter inqilabı ifadələri işlədilir. Burada bir haşiyə çıxmaq istərdik ki, bu kontekstdə "inqilab" anlayışının istifadəsini o qədər də məqbul hesab etmirik. Yəqin ki, informasiya cəmiyyətini daha çox müasir dünyada baş verən köklü dəyişikliklər sayəsində formalaşan bir mərhələ kimi nəzərdən keçirmək daha məqsədəuyğun olar.

İnformasiya cəmiyyəti ideyası öz başlanğıcını postindustrial nəzərərıyyədən götürür. Buna isə elmi-texniki tərəqqinin müxtəlf aspektlərinin sosiuma təsiri məsələlərinə diqqətin artması səbəb olmuşdur. Nəticədə, bu sahəyə aid müxtəlif



səpkili konsepsiyalar yarandı.[8] Burada (bu barədə çox deyilsə də) amerikalı sosioloq, futuroloq E.Tofflerin əsərlərinə diqqət yetirək. Onun tədqiqatlarında "Üçüncü dalğa" adlanan konsepsiya mühüm yer tutur. Toffler bəşəriyyətin inkişafında üc əsas dalğanı qeyd edir: aqrar, industrial və postindustrial. Məlumdur ki, birinci dalğanı Toffler "kənd təsərrüfatı sivilizasiyası" adlandırır. Çinin, Hindistanın, Yunanıstanın, Romanın, Mərkəzi Amerikanın qədim sivilizasiyaları ümumi fundamental xüsusiyyətlərə malik idilər. Torpaq iqtisadiyyatın, həyatın, mədəniyyətin, ailə təşkilatının və siyasətin əsasını təşkil edirdi. Sadə əmək bölgüsü hökm sürürdü və bir neçə dəqiq müəyyənləşdirilmiş kasta, sinif mövcud idi: zadəganlar, ruhanilər, əsgərlər, qullar və təhkimçilər. Hakimiyyət sərt avtoritar xarakter daşıyırdı və insanın sosial mənşəyi onun həyatda yerini müəyyən edirdi.

İndustrial inqilabı Toffler əvvəllər yaradılmış ictimai institutları və həyat tərzini dəyişdirən "ikinci dalğa" adlandırır. Tofflerə görə, XX əsrin birinci yarısında "industrial sivilizasiya" qəti olaraq bərqərar oldu, lakin tez bir zamanda bəşəriyyəti yeni bir dalğa (postindustrial) çulğaladı. Bu dalğa özü ilə yeni institutlar, münasibətlər və dəyərlər gətirdi. Üçüncü dalğa dünyaya fərqli baxışlar sistemi, informatika, elektronika, molekulyar biologiya sahələrinə yeni elmi-texnoloji nailiyyətlər təqdim etdi.[9]

XX əsrin 60-70-ci illərində inkişaf etmiş ölkələrdə informasiya texnologiyalarının və bununla əlaqədar olaraq baş verən

[8] Чугунов А.В. Развитие информационного общества: теории, концепции и программы: Учебное пособие. -СПб.: Ф-т филологии и искусств СПбГУ, 2007.
//http://window.edu.ru/resource/377/57377/files/Chugunov_IST_concep2007web.pdf c.9.

[9] Тоффлер Э. Третья волна. -М.: АСТ, 1999.//ocioline.ru/pages/elvin-toffler-tretya-volna

proseslərin cəmiyyətin inkişafına əhəmiyyətli təsiri aydın oldu. Bu təsirlərin dərk edilməsinə cəhdlər informasiya cəmiyyəti konsepsiyasının yaranmasına səbəb oldu. İnformasiya cəmiyyətində aparıcı dəyər və strukturyaradıcı mənbə informasiyadır. Belə cəmiyyət, adətən, sivilizasiyanın təkamülündə növbəti mərhələ, ictimai inkişafın yeni fazası kimi nəzərdən keçirilir.

Hazırda informasiya cəmiyyəti nəzəriyyəsi aktiv şəkildə inkişaf edir. Bu inkişaf sosiologiyanın, iqtisadiyyatın, politologiyanın, fəlsəfənin, kulturologiyanın və s. elm sahələrinin konvergensiyası (yaxınlaşma, uyğunlaşma) şəklində baş verir. İnformasiya cəmiyyətində kompüterləşmə prosesi insanların etibarlı məlumat mənbələrinə çıxış əldə etməsinə, yeknəsəq işlərdən xilas olmasına, istehsalın yüksək səviyyədə avtomatlaşdırılmasına imkan yaradır. "İnformasiya cəmiyyəti" anlayışı ABŞ və Yaponiyada elmi dövriyyəyə, demək olar ki, eyni zamanda daxil olub. "İnformasiya cəmiyyəti" nəzəriyyəsi A.Toffler, T.Stounyer, Y.Masuda, D.Bell, N.Viner, P.Draker, M.Kastels, M.Maklüen və b. tərəfindən inkişaf etdirilmişdir. Hələ 1940-cı ildə Norbert Viner "kommunikativ cəmiyyət" haqqında söhbət açmış və ilk dəfə olaraq onun inkişaf istiqamətlərini, etik problemlərini qeyd etmişdir. Müasir tədqiqatçılar "informasiya cəmiyyəti" ifadəsinin müəllifinin Tokio Texnlologiya institutunun professoru Yu Xayaşi olduğunu iddia edirlər. 1972-ci ildə yaponlar informasiyanın inkişafı məsələsini irəli sürdülər və cəmiyyətlərini informasiya cəmiyyətinə çevirmək qərarına gəldilər. Bu zaman hələ Bellin konsepsiyaları meydana gəlməmişdi və hadisə yalnız cəmiyyətdə informasiyanın rolunun artırılması xarakteri daşıyırdı. Lakin sonralar, bütövlükdə, "informasiya



cəmiyyəti" konsepti yarandı və bu konsept cəmiyyətdə sənayenin deyil, məhz informasiyanın müəyyənedici rol oynadığı postsənaye cəmiyyətinin mahiyyətini müəyyənləşdirdi.

İnformasiya cəmiyyətinə dair çoxlu sayda təriflər mövcuddur. Yapon sosioloqu və futuroloqu, informasiya cəmiyyəti konsepsiyasının müəlliflərindən biri olan Yonedzi Masudanın 1983-cü ildə "İnformasiya cəmiyyəti postindustrial cəmiyyət kimi"[10] kitabı işıq üzü gördükdən sonra elmi ictimaiyyət yaponların informasiya cəmiyyətinə dair təqdim etdikləri izahlara diqqət yetirməyə başladı. Yonedzi Masuda "informasiya cəmiyyəti" anlayışının formalaşmasında ciddi işlər görən ilk alimlərdən olmuşdur. Masuda postindustrial cəmiyyəti daha çox iqtisadi rakursda görürdü. O, hesab edirdi ki, maddi əmtəə deyil, informasiya əmtəəsi cəmiyyətin inkişafında hərəkətverici qüvvə olacaq. Yeni cəmiyyətin əsasını Masuda insanın əqli əməyini əvəz edən və ya onu qüvvətləndirən kompüter texnologiyalarında görürdü. O, qeyd edirdi ki, informasiya inqilabı tez bir zamanda yeni məhsuldar qüvvəyə çevriləcək və koqnitivliyin, sistemləşdirilmiş informasiyanın, texnologiya və biliyin kütləvi istehsalını mümkün edəcək.

İdeal cəmiyyətin yaradılması ideyası italyan filosofu və yazıçısı, utopik sosializmin ilk nümayəndələrindən olan Tommazo Kampanellaya (1568-1639), ingilis mütəfəkkiri, yazıçı Tomas Mora (1478-1535) və ingilis filosofu, tarixçisi, empirizmin banisi Frensis Bekona (1561-1626) aiddir. Bu ideyalar informasiya cəmiyyətinin müxtəlif konsepsiyalarının formalaşmasına əhəmiyyətli təsir göstərdi. Buna Z. Bjezinskinin "texnotron konsepsiya", D. Qaborun "yetkin cəmiyyət", J.F.Liotarın "postmüasir cəmiyyət" və s. konsepsiyalar misal

[10] Masuda Y. The Information Society as Postindustrial Society. Wash.: World Future Soc., 1983.// https://iphras.ru/page46589323.htm

göstərilə bilər. İnformasiya cəmiyyəti anlayışını ilk əsaslandıranlardan biri yapon professoru İ.Masuda olmuşdur. O, ideal cəmiyyətə aşağıdakı parametrləri daxil edir: zamanın dəyərləndirilməsi; qərarların qəbul edilməsində sərbəstlik və imkanların bərabərliyi; müxtəlif azad ictimai birliklərin inkişaf etməsi; cəmiyyət daxilində qarşılıqlı sinergetik əlaqə; yuxarıdan, hakimiyyət idarəetməsindən azad olan funksional birliklər.[11] Masuda qlobal informasiya cəmiyyətinin sinifsiz, konfliktsiz, həmrəyliyin hökm sürdüyü bir cəmiyyət olacağını iddia edird. Təbii ki, Masuda öz fikirlərində informasiya cəmiyyətinin imkanlarını ideallaşdırır. Bununla belə, o, öz yanaşmasında informasiya cəmiyyətinin gələcək inkişaf perspektivini fənlərarası baxımdan təqdim etdi və nəticədə sonrakı dövrlərdə həm müxtəlif iqtisadi nəzəriyyələrdə, həm də sosiomədəni, fəlsəfi yanaşmalarda tədqiqatların məhz fənlərarası inteqrasiya kontekstində aparılmasına istiqamət verdi.

İnforamasiya cəmiyyətinin konturlarını müəyyən edən məlumatlar yapon hökumətinə XX əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərində təqdim edilmişdir. Lakin qeyd etmək lazımdır ki, hələ 40-cı illərdə avstraliyalı iqtisadçı alim A.Klark informasiya cəmiyyətinin perspektivlərindən bəhs etmişdir. 50-ci illərdə isə amerikalı iqtisadçı F.Maxlup informasiya iqtisadiyyatının yaranması haqqında məlumat vermişdir.

İnformasiya cəmiyyəti konsepsiyasının yapon variantı, ilk növbədə, Yaponiyanın iqtisadi inkişafını nəzərdə tuturdu və qeyd olunan yanaşma hadisənin sərhədlərini məhdudlaşdıraraq, bir növ tətbiqi xarakter daşıyırdı.

XX əsrin 70-ci illərində informasiya cəmiyyəti ideyası ABŞ-da və Qərbi Avropa ölkələrində populyar olmağa başladı. Bu sahədə ən məşhur nəzəriyyələrdən biri Kolumbiya

[11] https://iphras.ru/page46589323.htm



və Harvard universitetlərinin professoru, amerikalı sosioloq və iqtisadçı Daniel Bell tərəfindən yaradılmışdır. D.Bell "İnformasiya cəmiyyətinin sosial sərhədləri"[12] əsərində postsənaye və informasiya cəmiyyəti ideyalarının konvergensiyası variantını irəli sürdü. O, cəmiyyətin yeni tipini XX əsrin ikinci yarısından başlayaraq aqrar və sənaye tipindən sonra gələn postindustrial tip adlandırmışdır. Bell yeni cəmiyyətdə informasiyanı içtimai strukturun əsası kimi nəzərdən keçirir. Öz növbəsində, Bell postindustrial cəmiyyətin 11 xüsusiyyətini qeyd edir: nəzəri biliyin mərkəzi rolu; yeni intellektual texnologiyaların yaradılması; bilik daşıyıcılarının artması; əmtəə istehsalından xidmət istehsalına keçid; əməyin xüsusiyyətinin dəyişilməsi (əgər əvvəllər əmək insanla təbiət arasında qarşılıqlı münasibət kimi təzahür edirdisə, postindustrial cəmiyyətdə o, (yəni əmək) insanların qarşılıqlı əlaqəsində ifadə tapır); qadınların rolu (ilk dəfə olaraq qadınlar iqtisadi müstəqillik üçün etibarlı əsas əldə edirlər); elm özünün yetkin səviyyəsinə çatır; situslar (situs-postindustrial cəmiyyətdə hansı təbəqəyə aidiyyətindən (statusundan) asılı olmayaraq, insanların peşə və maraq dairəsinin ümumiliyi istiqamətində sosial struktur elementi) siyasi vahidlər kimi; meritokratiya (sosial mənşəyindən və maliyyə imkanlarından asılı olmayaraq cəmiyyətdə ən qabiliyyətli insanların rəhbər mövqeləri

[12] Bell D. The Social Framework of the Information Society. Oxford. 1980.//https://books.google.az/books?id=5glMH8h2hpwC&pg=PA118&lpg=PA118&dq=Bell+D.+The+Social+Framework+of+the+Information+Society.+Oxford,+1980.&source=bl&ots=oST-fuvyUO&sig=ACfU3U0bYBHa2OiYOM2_L1b4jaUWxDkw_A&hl=ru&sa=X&ved=2ahUKEwjyxoOkgpTnAhXtN-wKHXJrB1kQ6AEwBHoECAoQAQ#v=onepage&q=Bell%20D.%20The%20Social%20Framework%20of%20the%20Information%20Society.%20Oxford%2C%201980.&f=false

tutmasına dair idarəetmə prinsipi); maddi nemətlərin məhdudluğunun sonu; informasiyanın iqtisadi nəzəriyyəsi.[13]

Bellin bu nəzəriyyəsinin inkişafında amerikan futuroloqu A.Tofflerin apardığı tədqiqatların böyük təsiri olmuşdur. Tofflerə görə, postindustrial cəmiyyət kompüterlərin, yüksək texnika və texnoloji avadanlıqların yayılması, biotexnologiyaların, gen mühəndisliyinin, informatikanın, elektronikanın, tele və videokommunikasiya növlərinin, informasiyanın durmadan inkişafı fonunda bir növ, "üçüncü dalğa" mahiyyəti daşıyır.[14]

Məhz bu sahələr postidustrial istehsalın əsasını təşkil edir. Sosial planda bu hadisənin mühüm cəhəti isə elmi-texniki sahədə çalışan işçilərin sayının artması, sinfi qarşıdurmaya son qoyulması və sosial ziddiyyətlərin aradan qaldırılması, siyasi mənada isə demokratiyanın bərqərar olması ilə xarakterizə olunur. Yəni informasiya cəmiyyəti özü ilə yeni institutların, münasibətlərin, dəyərlərin, həyat tərzinin yaranmasını şərtləndirir.

İnformasiya cəmiyyəti konsepsiyasını amerikalı alim, XX əsrin menecment nəzəriyyəçilərindən olan Piter Ferdinand Druker tamamilə fərqli cəhətdən xarakterizə edir. Ənənəvi kapitalizmdən imtina ideyası onun təliminin əsasını təşkil edir. Əldə ediləcək irəliləyişin mühüm əlamətləri isə biliyə və informasiyaya istiqamətlənməyə, kapitalist şəxsi mülkiyyətindən imtinaya, müasir insanda yeni dəyərlər sisteminin formalaşdırılmasına, iqtisadiyyatın və sosiumun qloballaşması sayəsində milli dövlətin transformasiyasına əsaslanan sənaye təsərrüfatından iqtisadi sistemə keçid hesab olunur. P. Drukerin fikrincə, müasir dövr radikal dəyişikliklər zamanıdır. Bunun

[13] Вах: Белл Д. Грядущее постиндустриальное общество. – М., 1999.
[14] http://www.read.virmk.ru/present_past_pdf/Toffler_Tretiya_volna.pdf



səbəbi isə yeni telekommunikasiya və informasiya texnologiyalarının inkişafı sayəsində kapitalist cəmiyyətini biliyə əsaslanan cəmiyyətə dəyişdirmək imkanlarının əldə edilməsidir.

Bu istiqamətdə ispan alimi Manuel Kastelsin fikirləri də maraq doğurur. O, hesab edir ki, təqribən 1960-cı illərin axırı, 1970-ci illərin ortalarından informasiya müharibəsi texnologiyalarının inkişafı, kapitalizmin, etatizmin böhranı, insan hüquqları uğrunda mübarizə, ətraf mühitin qorunması kimi bir-birindən asılı olmayan proseslərin təzahürü sayəsində sosial hərəkatların yüksəlişi ilə yeni dünya yaranıb. Kastelsin məsələyə münasibətində digərlərindən fərqli cəhət ondan ibarətdir ki, o, yalnız texnoloji və iqtisadi aspektləri deyil, müasir cəmiyyətə daha geniş təsirə malik urbanizasiya, demoqrafiya və s. bu kimi məqamları da nəzərdə tutur.

Qeyd etmək istərdik ki, hələ XX əsrin əvvəllərində kanadalı filosof, kommunikasiya sahəsində görkəmli nəzəriyyəçi Marşall Maklüen informasiya texnologiyaları haqqında ciddi fikirlər söyləmişdir. Maklüen sivilizasiyaların inkişafını üç mərhələyə bölür: kollektiv həyat tərzi prinsiplərinə əsaslanan ibtidai, yazıdan əvvəlki mədəniyyət; yazılı-çap mədəniyyəti və elektron cəmiyyət mərhələsi. Sonuncu mərhələdə artıq insan çap olunmuş mətndən imtina edir və elektron obrazların dərkinə keçir.

Təqdim edilən fikirlərin müxtəlifliyinə baxmayaraq, informasiya cəmiyyətinin, əsasən, aşağıda göstərilən xüsusiyyətləri nəzərdən keçirilir: bu ilk növbədə, kompüter texnologiyalarının, telekommunikasiya texnologiyalarının, güclü informasiya infrastrukturunun yüksək inkişaf səviyyəsidir. İnformasiya cəmiyyətində insanların daha geniş informasiya əldə etmək imkanları meydana çıxır. Bütövlükdə isə, informasiya cəmiyyətinə dair konsepsiya və proqramlarda informasiyanın

və biliyin informasiya epoxasında cəmiyyətin strateji resursu olması qənaəti irəli sürülür.[15]

İnformasiya cəmiyyəti ideologiyası çərçivəsində sonrakı dövrlərdə müxtəlif istiqamət və tendensiyalar formalaşmağa başladı. Bu istiqamətdə 2000-ci ilin iyul ayında Okinavada keçirilən "Böyük səkkizlik" (İngiltərə, Almaniya, İtaliya, Kanada, Rusiya, ABŞ, Fransa, Yaponiya) ölkələrinin sammitində "Qlobal İnformasiya Cəmiyyəti Xartiyası"nın (Okinawa Charter on Global Information Society) qəbul etdiyi sənəd mühüm əhəmiyyət kəsb edir. Burada belə bir qənaətə gəlindi ki, bəşəriyyətin gələcəyi informasiya cəmiyyətinin inkişafı ilə müəyyənləşir. İnkişaf dedikdə isə ilk növbədə, informasiya siyasətinin həyata keçirilməsi və formalaşdırılması, informasiya bərabərsizliyinin aradan qaldırılması, bu sahəyə aid proqramların həyata keçirilməsi məsələləri nəzərdə tutuldu və dövlətlərin, ölkələrin belə bir cəmiyyətə daxil olmaları üçün əsas prinsiplər müəyyənləşdirildi. Nəzərdə tutulan prinsiplər aşağıdakı kimi ümumiləşdirilə bilər: İnformasiya-Kommunikasiya Texnologiyaları XXI əsrdə cəmiyyətlərin inkişafına təsir edən mühüm amillərdən biridir. Bunlar insanların həyat tərzinə, cəmiyyətin bütün sahələrinin fəaliyyətinə, hökumət və vətəndaş cəmiyyətinin qarşılıqlı əlaqələrinə təsir edir. İKT ümumdünya iqtisadiyyatının sürətlə inkişaf etməsinə stimul verir və hamının qarşısında geniş imkanlar açır; iqtisadi və sosial transformasiyada İT-nin stimullaşdırıcı rolu ondan ibarətdir ki, o, bilik və ideyaların əldə edilməsində insanlara və cəmiyyətlərə imkan yaradır. Qeyd edilən məqsədlərə nail olmaq üçün "Böyük səkkizlik" (G8) ölkələrinin liderləri bütün insanların hər yerdə, istisnasız olaraq qlobal informasiya cəmiyyətindən faydalana bilmək prinsipinə sadiq olduqlarını təsdiq etdilər. İnformasiya

[15] http://www.un.org/ru/events/pastevents/wsis.shtml



cəmiyyətinin dayanıqlığı informasiya və biliklərin sərbəst mübadiləsinə, qarşılıqlı tolerant münasibətə və digər insanların özünəməxsusluqlarına hörmət kimi cəmiyyətin inkişafına stimul verən demokratik dəyərlərə əsaslanır; "Böyük *səkkizlik ölkələri*"nin rəhbərləri qeyd etdilər ki, Xartiya, hər şeydən əvvəl, həm dövlət, həm də özəl sektorlarda beynəlxalq informasiya və bilik sahəsində boşluqların aradan qaldırılmasına çağırışdır. İT sahəsində aparılan siyasət və fəaliyyət dünya miqyasında sosial və iqtisadi tərəqqinin əldə edilməsi naminə qarşılıqlı əlaqələrin metodlarında dəyişikliklərin reallaşdırılmasına şərait yarada bilər. Birgə siyasi əməkdaşlıq daxil olmaqla, iştirakçılar arasında effektiv tərəfdaşlıq da informasiya cəmiyyətinin rasional inkişafının əsas elementi hesab olundu.[16]

Burada qəbul olunan Nizamnamə özündə dörd müddəanı cəmləşdirir:

- rəqəmsal texnologiyaların imkanlarından istifadə;
- elektron-rəqəmsal uyğunsuzluqların aradan qaldırılması;
- ümumi iştiraka nail olmaq;
- gələcək inkişaf.[17]

Yəni 2000-ci ildə qəbul edilmiş Xartiya və buna müvafiq 2001-ci ildə təqdim edilən plan inkişafda olan ölkələrin siyasətini yeni texnologiyaların inkişaf etdirilməsinə istiqamətləndirdi.

10-12 dekabr 2003-cü ildə İnformasiya cəmiyyəti məsələlərinə dair yüksək səviyyədə Ümumdünya Görüşünün Cenevrə mərhələsi baş tutdu. Ümumdünya Sammitinin iştirakçılarının 2003-cü ildə Cenevrədə qəbul etdikləri Deklarasiyada birinci bölmə "İnformasiya cəmiyyətinin ümumi konsepsiyası" adlanır. Burada qeyd olunur: "Biz, 10-12 dekabr 2003-cü il tarixlərində Cenevrədə İnformasiya Cəmiyyəti Ümumdünya Sammitinin birinci mərhələsini keçirmək üçün toplanmış dünya xalqlarının nümayəndələri, bildiririk ki, ayrı-

[16] http://www.iis.ru/library/okinawa/charter.ru.html
[17] http://society.polbu.ru/kopylov_pravo/ch02_i.html

ayrı şəxslərin və xalqların informasiya və bilik yaratmaq və onlardan istifadə etmək imkanlarını tam şəkildə həyata keçirə bilməsi üçün Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsipləri əsasında davamlı inkişafa və həyat keyfiyyətinin yüksəldilməsinə töhfə vermək naminə İnsan hüquqlarının Ümumi Bəyannaməsinə tam şəkildə riayət və onu müdafiə etməklə, informasiya cəmiyyəti qurmağa qətiyyətliyik".[18]

İnformasiya cəmiyyəti məsələlərinə dair yüksək səviyyədə Ümumdünya Görüşünün fəaliyyəti 2015-ci ilədək yerinə yetirilməsi nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün zəruri sərmayələr cəlb etmək məqsədilə dövlət və özəl sektorlar arasında tərəfdaşlıq münasibətlərinin qurulmasına yönəlmişdi. Ümumdünya Görüşündə 175 ölkədən yüksək səviyyəli nümayəndə heyəti, o cümlədən 50 dövlət rəhbəri və vitse-prezidentlər iştirak etmişlər. Ümumilikdə, informasiya cəmiyyəti məsələlərinə dair Ümumdünya Görüşündə 11 000 nəfər insan iştirak etmişdir. Görüşün gedişatında "İnformasiya cəmiyyətinin quruluşu yeni minilliyin qlobal məsələsidir" başlığı altında prinsiplər deklarasiyası qəbul edilmişdir.

18 noyabr 2005-ci ildə keçirilən İnformasiya cəmiyyəti məsələlərinə dair yüksək səviyyədə Ümumdünya Görüşünün Tunis mərhələsi isə dövlət idarəetmə orqanlarının, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirak etdiyi çoxtərəfli bir prosesdir. Əsas məqsəd isə informasiya və kommunikasiya texnologiyaları sahəsində rəqəmsal inqilabın potensialını insanlığa xidmət etmək istiqamətinə yönəltməkdən ibarət olmuşdur.

---

[18] Организация Объединенных Наций ЮНЕСКО. Всемирная встреча на высшем уровне по вопросам информационного общества (г. Женева, 2003 г.). Построение информационного общества-глобальная задача в новом тысячелетии: Декларация принципов (Документ WSIS-03/GENEVA/DOC/4-R. 12 декабря 2003 года.// https://www.un.org/ru/events/pastevents/wsis.shtml



# II FƏSİL. DİL VƏ FƏLSƏFƏ

## 2.1. Dilin fəlsəfi analizi

İctimai hadisə olaraq dil fenomeni həmişə diqqət mərkəzində olub, çünki o, cəmiyyətdə ünsiyyət fəaliyyəti və idraki funksiyalar yerinə yetirir. Fəlsəfi düşüncənin tarixi inkişafı boyunca dilin nəzəri problemləri görkəmli alimləri, filosofları, dilçiləri hər zaman düşündürüb. Diqqət mərkəzində isə dilin meydana gəlməsi, onun təbiəti, müxtəlif dövrlərdə və cəmiyyətlərdə gerçəkləşdirdiyi funksiyaların spesifikliyi və s. məsələlər olub. Müasir ictimai münasibətlər sistemində də dilin inteqrasiya rolunun düzgün başa düşülməsi bu sualların cavabından çox asılıdır. Bugün dil dövrün ən vacib problemlərindən biri kimi qarşıya çıxır. Bu, ilk növbədə, "informasiya", "ünsiyyət", "kommunikasiya", "mədəniyyət" və s. bu kimi sosial parametrlərin insan cəmiyyətinin inkişafında kəsb etdiyi böyük əhəmiyyət və dilin rolu ilə əlaqədardır.

Ünsiyyətin modelləşdirilməsi, süni intellektin yaradılması, insan beyninin funksiyalarının modelləşdirilməsi və s. bu kimi vacib məsələlərin düzgün həll yollarının tapılması bilavasitə bu problemlərin metodoloji cəhətdən düzgün əsaslandırılması ilə bağlıdır. Bu yerdə "intellekt" anlayışına münasibətimizi bildirmək istərdik. Belə ki, elmi ədəbiyyatda bu terminlə əlaqədar müxtəlif səpkili fikirlər mövcuddur və bir çox hallarda bu anlayış ona mənaca yaxın ifadələrlə qarışıq salınır. Düşünürük ki, *ağıl-informasiya, zəka-onun emalı, intellekt isə bunların vəhdətidir.* Yəqin ki, məsələyə bu şəkildə yanaşıldıqda hər bir anlayış ifadə etdiyi mahiyyətə uyğun olaraq öz yerini tuta bilir.

Qədim yunan filosofu, ənənəvi olaraq Avropa elm tarixinin başlanğıcı hesab edilən Milet (İon) fəlsəfə məktəbinin banisi, Yunan mədəniyyətinin və dövlətçiliyinin təməlini qoyan,

"Yeddi müdrik"dən biri olan Falesin dövründən başlayaraq (e.ə. 6-cı əsr) fəlsəfəsiki istiqamətə ayırılır[19]. Qeyd edək ki, Egey dənizinin ətrafındakı ərazi klassik ellin mədəniyyətinin beşiyi hesab olunur. Bu mədəniyyət Samos adasında, Miletdə, Efesdə və İoniyanın digər şəhərlərində meydana gəlmişdir. Təsadüfi deyil ki, məhz İoniya qədim Yunan mədəniyyətinin beşiyi hesab olunur. Ona görə ki, İoniya şəhərləri eyni sosial-iqtisadi inkişaf səviyyəsində idilər və o dövrdə Şərqin qabaqcıl ölkələri ilə geniş iqtisadi, mədəni əlaqələri mövcud idi. Birinci istiqamətdə əsas meyil dünyanın dərkinə, gerçəklik, həqiqət axtarışına yönəlmişdisə, ikincisində, fikrin, düşüncənin aydınlığı, onun konseptual analizi, yəni analitik təhlil nəzərdə tutulurdu. Bu iki istiqaməti bir-biri ilə qarşılıqlı şəkildə əlaqələndirən cəhət hər ikisinin obyektiv gerçəklik axtarışında olması idi.

Dünyanın anlamı dil, düşüncə və mənanın məntiqinin dərkidən keçir. Bu məqamın fəlsəfəsi ondan ibarətdir ki, qeyd edilən kontekst xalqın mədəniyyətini yaradır və bu da, öz növbəsində, sosial təcrübəni müəyyənləşdirir. Təbii ki, burada fəlsəfənin böyük rolu vardır, çünki o, rasional-nəzəri idrakın xüsusi forması olaraq varlığın və biliyin ən mühüm xüsusiyyətlərini öyrənir və bununla da özünü əsaslandırır, digər elmlər üçün ontoloji, qnoseoloji və aksioloji təməl kimi çıxış edir, elmilik kriteriyalarının sistemli və tənqidi dərkini reallaşdırır.

Bu barədə britaniyalı filosof və riyaziyyatçı alim Bertrand Rassellin maraqlı fikirləri vardır. O, hesab edir ki, fəlsəfə elm və din arasında kimsəyə aid olmayan torpaq, tənqidi, ciddi intellektual fəaliyyətdir. Doğrudan da, fəlsəfə, ilk növbədə, idrakın sitemli və tənqidi fəaliyyətidir. Bu mövqe fəlsəfənin, eləcə də insan haqqında olan bütün elmlərin təbiətindən irəli

[19] https://www.ajol.info/index.php/ujah/article/viewFile/72634/61552



gəlir, çünki mənəvi, psixoloji, maddi və insanla bağlı bir çox başqa mahiyyətlərin konseptuallaşdırılması bu elmlərin xarakterini müəyyənləşdirir. İnsanın təbiəti, onun şüurunun, təfəkkürünün imkanları kainat qədər sonsuzdur və təbii olaraq, bu qədər böyük əhatə dairəsinə malik mövzuların araşdırılmasını elmlərarası inteqrasiya sayəsində gerçəkləşdirmək mümkün ola bilər. Bunu spontan bir hadisə kimi qəbul etmək də düzgün olmaz, əksinə, mövcud durum zamanın tələbindən irəli gəlir və aydındır ki, bu mənada yalnız konkret bir elmin predmeti və obyekti çərçivəsində təhlillərin aparılması və lazımi nəticələrin əldə edilməsi mümkün deyil. Burada müxtəlif səpkili paradiqmaların (bütün elm sahələrinə aid) yarada bildiyi imkanlar səviyyəsində işlər görülə bilər ki, bunu da daha optimal şəkildə insanın əqli fəaliyyətinin forması olan fəlsəfi refleksiya, fəlsəfi ümumiləşdirmə imkanları gerçəkləşdirə bilər. Çünki fəlsəfə zaman və məkan kontekstində təcrübənin və intuisiyanın hər bir obyektini metafizika, epistemologiya, məntiq və etikadan çıxış edərək tənqidi qiymətləndirmə imkanına malikdir.

Düşüncə, dil və mənanın əlaqəsi ayrılmaz şəkildə bir-birilə bağlıdır. Düşüncə şüurun əlaməti olaraq yalnız dildə ifadə tapır. Yəni insanın rasional düşüncə tərzinin formalaşmasında bu üç amil zəruri mahiyyət daşıyır. Başqa sözlə, düşüncə şüuru ifadə edir. Dil düşüncə proseslərini həm *eksternalizasiya* (gizli biliyin aşkar biliyə çevrilməsi prosesi) edə bilir, həm də obyektivləşdirir.

İnsanlar dili öz ehtiyaclarına müvafiq və ətraf mühitə uyğun şəkildə inkişaf etdirirlər. Bu kontekstdə dil ünsiyyət vasitəsi fəaliyyətini gerçəkləşdirir, bilik, mədəniyyət və dəyərləri ifadə edir, eləcə də insanların dünyagörüşünün formalaşmasını reallaşdırır. Bu mənada, hər bir dil adekvat olaraq aid olduğu

dil qrupunun tələbatlarını təmin edir. Digər dillər və mədəniyyətlərlə qarşılıqlı əlaqələrdə dilin lüğət tərkibi zənginləşir, ümumi strukturu mükəmməlləşir, nəticədə, yeni reallıqların ifadə olunmasına imkan yaranır. Burada fəlsəfənin əbədi və əsas funksiyası bütün maddi, mədəni və intellektual varlıqların mahiyyətinin rasional təhlilini gerçəkləşdirməkdən ibarət olur. Fəlsəfə bunu məntiqi, analitik, tənqidi, reflektiv, hermenevtik və digər metodların vasitəsilə həyata keçirir. Təbii ki, sadalanan metodlar insan təcrübəsinin bütün sahələrinin fəlsəfi mahiyyətinin axtarışında mühüm əhəmiyyət daşıyır, lakin məntiqi və analitik metodlar ünsiyyət prosesində təfəkkür və dilin rasional təhlilində mühüm rol oynayır. Bir vacib məsələyə də diqqət çəkmək istərdik ki, dil canlı sosiomədəni fenomen olaraq inkişaf edir, onun ifadə imkanları genişlənir, hətta "ölə" də bilir. Məsələn, latın dili kimi. O, bu gün yalnız yazılı abidələrdə, terminlərdə mövcudluğunu davam etdirsə də, yəni canlı şəkildə funksiya göstərməsə də, onun strukturu, özünəməxsus ruhu ispan, fransız, italyan, portuqal, ingilis və digər dillərdə özünü göstərir. Bu fikri bu gün ölü dillər sayılan sanskrit, qədim yunan, qədim slavyan və s. dillər haqqında da söyləmək olar.

Burada bir haşiyə çıxmaq istərdik. Alman filosofu Vilhelm Humboldt hesab edir ki, dil xalq ruhunun xarici ifadəsidir: xalqın dili onun ruhu, xalqın ruhu isə onun dilidir. Humboldta görə dil yalnız insanlar arasında ünsiyyət vasitəsi deyil, o həm də fəaliyyətdir, ruh enerjisinin təzahürüdür.[20] Doğrudan da, həqiqətlər bunu deməyə əsas verir ki, tarix boyu müxtəlif niyyətlərdən çıxış edilərək hökmdar dövlətlərin təsiri altında olan xalqların dillərini sıradan çıxarmaq, onları assimilyasiya etmək cəhdləri olub. Belə ki, Azərbaycan dili min illər

[20] https://vikent.ru/author/368/



boyunca müxtəlif imperiyaların təsirlərinə məruz qalıb. Şer dilimiz-fars, elm dilimiz-ərəb dili olub, lakin dilimizi tarixin sınaqlarından Azərbaycan xalqının ruhu çıxarıb, çünki xalğın ruhu–yenilməzdir, əbədidir.

Təfəkkürün və dilin mahiyyətinin aydınlaşdırılmasında fəlsəfə bir vasitə olaraq, özünün əzəli meqa-dissiplin statusuna müvafiq şəkildə müasir sivilizasiyanın bütün fiziki, intellektual və mənəvi varlıqlarının rasional mahiyyətinin öyrənilməsinə nail ola bilir. Belə böyük bir vəzifəni yerinə yetirməkdə fəlsəfənin ümdə missiyası reallığın rasional strukturunu müəyyənləşdirmək naminə ümumbəşəri təcrübəni sintez etməkdən ibarətdir.

Tənqidi rasionalizmin banisi sayılan K.R.Popperin qədim yunan filosoflarına böyük rəğbəti vat idi, çünki o, onları fəlsəfi fikir tarixinin ilklərindən hesab edirdi. Apardıqları müzakirələrə, məsələlərə göstərdikləri tənqidi münasibətə, irəli sürdükləri yeni nəzəriyyə və arqumentlərə görə Popper bu filosofları təqdir edirdi. Poppera görə, məhz bu filosofların sayəsində rasionallığın və elmi metodların tarixi mənbələri müəyyənləşmişdir. Onlar düşüncə, təfəkkür problemlərinin təhlilində bilavasitə iştirak etmişlər. Bu da, öz növbəsində, yalnız Yunanıstanın deyil, bütövlükdə bəşəriyyətin təkamülündə özünəməxsus rol oynamışdır.

Müdriklər bütün zamanlarda insan düşüncəsinin sərhədsiz və dərin olması haqqında fikirlər söyləmişlər və bundan çıxış edərək onun (yəni düşüncənin) davranışda, sosial münasibətlərdə mərkəzi rol oynadığını iddia etmişlər. Sonrakı dövrlərin filosofları insan düşüncəsinin, təfəkkürünün təkamülünə tənqidi münasibət bildirmişlər.

Burada qeyd etmək istərdik ki, fəlsəfənin dilə və həqiqətin ifadə olunmasına münasibəti onun özü qədər qədimdir. Qədim

dövrlərin filosoflarının kosmoloji düşüncələrində söz və adlardan düzgün istifadə mühüm məsələ hesab olunurdu və bu yanaşma, nəticədə, dünya haqqında müxtəlif təsəvvürlərin yaranmasına səbəb oldu. Məhz adların ifadə etdilkləri incə mətləblərin konseptual şəkildə anlanmasına təşəbbüslər sonralar filosofların sözlərin, mənaların ifadəsinə daha ciddi münasibət göstərmələrinə səbəb oldu. Sistemli şəkildə linqvistik və kommunikativ səviyyədə məntiqlilik, səlislik Qərb fəlsəfi fikrinə aiddir. Sözlərin mənalarının və məna çalarlarının (yəni aydın və sətiraltı mənalarının) məntiqi mahiyyətinin düzgün müəyyənləşdirilməsi onların maraq dairəsini təşkil edirdi.

Təməli Sokratın dövründən qoyulan tənqidi və analitik ənənəni orta əsr filosofları davam etdirmişlər, lakin məqsəd, müəyyən mənada, başqa mahiyyət daşımışdır. Yəni orta əsrlərin filosofları onlardan əvvəl yaşamış filosofların fikirlərinə tənqidi münasibət göstərmək üçün linqvistik təhlilə müraciət etmişlər. Bununla onlar dini inanclarının, ezoterik düşüncələrinin postulat kimi qəbul olunmasını təmin etmək məqsədi güdürdülər. Bu da təbiidir, belə ki, dini fəlsəfənin bir növü olan sxolastika xristian dini təlimlərini əsaslandırmaq və sistemləşdirməklə məşğul idi. Orta əsr filosofları süni, formal məntiqi arqumentlər yaradaraq kilsə doqmalarını əsaslandırmağa cəhd göstərirdilər. Bununla onlar həyatla, gerçəkliklə əlaqəsi olmayan abstrakt, təcrübəyə əsaslanmayan bilik formalaşdırmağa müvəffəq olmuşlar. Yeni dövrün ilk, görkəmli filosoflarından biri, elmi idrakın antisxolastik metodunun tərəfdarı Frensis Bekon (1561–1626) orta əsr filosoflarının müəyyən məqamlarda qərəzli və dərin təhlilə əsaslanmayan fəlsəfəsini dilin və ünsiyyətin məntiqi-linqvistik analizinə istiqamətləndirmək kimi bir misssiyanı reallaşdıra bilmişdir. O, söz və



ifadələrin izahının xristian dinində "bütlər", "yalançı tanrılar" haqqında gerçəkliklə əlaqəsi olmayan yanlış təsəvvürlərin yaradılmasına yönəldildiyini iddia edirdi. Bekon hesab edirdi ki, orta əsr fəlsəfəsində hökm sürən bu tendensiyanı dünyəviliyə əsaslanan məntiqi-linqvistik təhlillə aradan qaldırmaq lazımdır.

Orta əsrlərdə hökm sürən linqvistik dolaşıqlığa ingilis filosofu Con Lokk da diqqət yetirmişdir. "İnsan Anlayışı mövzusunda esse"də (*Essay on Human Understanding*) (1690) Con Lokk çoxşaxəli struktura malik məntiqi-linqvistik nəzəriyyə formalaşdırdı. Bu nəzəriyyə effektiv fəaliyyət gerçəkləşdirə biləcək dil və ünsiyyət problemlərinə istiqamətlənmişdi. Burada əsas diqqəti Lokk sözlərə, ümumi terminlərə, adlara, mücərrəd ifadələrə, cümlələrin formalaşdırılmasına yönəltmişdi. Lokkun məntiqi-linqvistik analizinə görə, fiziki obyektlər bizdə özləri haqqında ideya və obrazlar yaradırlar, daha sonra insanlar digərləri ilə ünsiyyət qurmaq üçün onları dil (və ya kommunikasiya) vasitəsilə ifadə və inkişaf etdirirlər və bu şəkildə sosial həyat gerçəkləşə bilir. Lokk sözlərin, cümlələrin formalaşması, həmçinin ümumi terminlər, adlar, abstrakt anlayışlar üzərində dayanaraq hesab edirdi ki, hadisə və faktlara saysız-hesabsız adların verilməsi məqsədəuyğun deyil. O, bunun əvəzinə abstrakt terminlərdən istifadə etmək mövqeyini müdafiə edidi.

Digər canlılardan fərqli olaraq insana xüsusi əqli qabiliyyətlər verilmişdir və bunun sayəsində o, söz və cümlələrdən istifadə edə bilir. Lokkun empirizmi mövcud olanların sözlər vasitəsilə ideyalarla əlaqələndirilməsi metoduna əsaslanır, onlar (mövcud olanlar) ideyalar formalaşdırır və təkrar-təkrar bu ideyaları identifikasiya etmək imkanı insana ətraf mühiti fərqləndirmək şəraiti yaradır. Yəni hiss üzvlərimiz vasitəsilə

qəbul etdiyimiz fiziki obyektlər bizdə onlara aid ideyalar formalaşdırır və digərləri ilə ünsiyyət qurmaq üçün dil və ya kommunikativ simvollar vasitəsilə sosial həyatın reallaşması mümkün olur.

Fikrin ifadəsində təfəkkür və dilin fəlsəfi mahiyyətinin aydınlaşdırılmasına münasibət XX əsrdə Vitgenşteynin və Rasselin fəlsəfəsində pik nöqtəyə çatdı. Britaniya analitik fəlsəfəsi dil və mənanın ifadə məsələləri ilə çox sıx şəkildə bağlı idi və bu fəlsəfə linqvistik fəlsəfə adlanırdı. Analitiklər fəlsəfi problemləri linqvistik problemlərlə əlaqələndirirlər və bunların bilavasitə sözlərin və mənaların dildə düzgün işlədilməməsi ilə bağlı olduğunu iddia edirlər.

Təqdim edilən izahatlar belə qənaət yaradır ki, təfəkkür, dil və ünsiyyətin fəlsəfi analizi mənanın adekvat ifadəsində və insanın həqiqət axtarışında mühüm rola malikdir. Bu da təbiidir, çünki intuisiya və həyat təcrübəsi mədəniyyətin bir parçasını təşkil edir, onlar dildə qorunub saxlanılır və nəsildən-nəslə ötürülür. Müxtəlif səpkili konsepsiyaların fəlsəfi mahiyyətinin mükəmmləşdirilməsi mədəniyyəti zənginləşdirir və o, (yəni mədəniyyət) daha çox mədəni məzmun əldə edir.

Ünsiyyətdə çaşqınlığı, qeyri-müəyyənliyi, qeyri-dəqiqliyi aradan qaldırmaq səyləri bir qrup filosofu süni dil yaradılması ideyasına gətirib çıxardı. Bu ideyanın tərəfdarları Bertran Rassel, Rudolf Karnap, Lüdviq Vitgenşteyn və Vilhelm Leybnits və b. hesab olunurlar. Məntiqi linqvistikanın nümayəndələri olan bu filosoflar hesab edirdilər ki, təbii dil gerçəkliyi, xüsusilə fəlsəfi, elmi diskursu obyektiv şəkildə ifadə etmək imkanına malik deyil. Məntiqi-linqvistik analitiklərin bu qrupu qarşılarına reallığın strukturunu tam şəkildə ifadə və dünyanı olduğu kimi təsvir edə biləcək məntiqi cəhətdən mükəmməl dil yaratmaq məqsədi qoydular. Onlar



hesab edirdilər ki, yalnız ideal dil və onun vasitəsilə reallaşan izah ideyanı, fikri, ümumiyyətlə, mövcudluğu adekvat çəkildə əhatə edə bilər. İdeal dil tərəfdarları təbii dilin çatışmazlıqlarını müxtəlif məntiqi və konseptual analiz vasitəsilə aradan qaldırmağa çalışırdılar. Karnap "Dilin məntiqi sintaksisi" ("Logical Syntax of Language") (1934-1937) adlı kitabında belə bir fikir irəli sürür ki, fəlsəfə məntiq elmi ilə əvəz olunmalıdır, yəni elmi anlayışların, cümlələrin sintaksisinin analizi ilə məşğul olmalıdır, çünki məntiq elə elmi dilin məntiqi sintaksisidir[21]. Karnap "Dünyanın məntiqi quruluşu" (Logical Building of the World) (1967) adlı digər bir kitabında məntiqi və linqvistik rekonstruksiyaya, yəni köhnə ifadələrə yeni mənalar verməyə təşəbbüs göstərir. Burada mənalandırma məqsədyönlü mahiyyət daşıyır və yeni mənaların köhnələrdən fərqi ondadır ki, onlar gerçəkliyi daha dəqiq, daha aydın şəkildə ifadə edə bilirlər.

Rassel üçün isə məntiq və riyaziyyat ideal dilin nəzəriyyəsinin yaradılmasında müstəsna əhəmiyyət kəsb edirdi. İdeal dil xətti Vitgenşteynin "Məntiqi-fəlsəfi traktat"ında *(Logical-Philosophical Treatise)* davam etdirilmişdir. Vitgenşteynin irəli sürdüyü ideyaya görə, elə bir ideal dil yaratmaq lazımdır ki, o, dünyanı düzgün təsvir edə bilsin. Lakin onun elmi yaradıcılığının sonrakı dövrlərində bu fikirlər radikal dəyişikliyə uğradı və o, başa düşdü ki, dil obyektləri əks etməkdən əlavə, çoxlu funksiyalar da yerinə yetirir, yəni dil hər zaman müəyyən kontekstdə funksiya göstərir, bu səbəbdən də müxtəlif məqsədlər güdür. Vitgenşteynə görə, bu prosesin gerçəkləşməsi üçün təfəkkürün, dilin, ünsiyyətin saflaşdırılmasında fəlsəfi analizin rolu danılmazdır və burada fəlsəfə dilin ən yaxın müttəfiqidir. ***Yəni dil insanın dünya, eləcə də özü***

---

[21] Bax: https://en.wikiquote.org/wiki/Rudolf_Carnap

***haqqında gerçəkliyi anlamasına yol açır və bunda onun ən yaxın köməkçisi fəlsəfədir.***

Britaniya analitik ənənəsi Amerika fəlsəfi düşüncəsində də öz əksini tapdı. Hadisələrin məhz bu istiqamətdə inkişafı amerikan praqmatiki V.V.Kuaynın 1960-cı ildə "Söz və obyekt" *(Word and Object)* əsərinin işıq üzü görməsinə səbəb oldu. Burada əsas ideyalar bilik nəzəriyyəsini hərtərəfli öyrənməyə, ontoloji nisbilik, tərcümənin qeyri-müəyyənliyi problemlərini əsaslı şəkildə təhlil etməyə istiqamətlənmişdi. Kuayn hesab edirdi ki, vacib olan adlandırma sferasını məna sferasından ciddi şəkildə ayırmaqdır. Vəziyyətdən çıxış yolunu isə Kuayn dilin fəlsəfəsi çərçivəsində terminlərin semantikasının analizində görürdü. Belə münasibət həqiqətin dərkində insanlarda şüurun qavrama imkanlarını müəyyənləşdirir. Beləliklə, fəlsəfə gerçəkliyin dərk edilməsi ilə yanaşı, insanların sosial təcrübəsini şərtləndirən obyektiv şüurun formalaşmasına da imkan yaradır. Məhz fəlsəfə və sosial təcrübə arasında mövcud olan bu açıq və ayrılmaz əlaqə bizim zehnimizi lazımsız məlumatlardan təmizləyir, mənanın dərkinə yönəlmiş konseptual analiz vasitəsilə fikrin ifadəsində dildə meydana gələn dolaşıqlıqlardan xilas edir. Prosesin ən önəmli məqamı isə ondan ibarətdir ki, dilin məntiqi analizi sayəsində əldə edilən linqvistik effektivlik sosial ünsiyyətdə müvafiq anlaşmanın meydana gəlməsinə şərait yaradır. Məntiqi və linqvistik əlaqələrdə meydana gələn çətinliklər effektiv sosial ünsiyyətin reallaşdırılmasına da maneələr törədir. Qarşılıqlı ünsiyyətdə yaranan anlaşılmazlıq ayrı-ayrı fərdlər, qruplar və hətta millətlər arasında müşahidə oluna bilir. Çıxış yolu isə tənqidi analizin imkanlarından istifadə edərək ünsiyyət prosesində meydana gələn qeyri-müəyyənlikləri aradan qaldırmaqdan ibrətdir.



Dillərin quruluşunun fərqliliyi və onların bəşəriyyətin mənəvi inkişafına təsiri məsələlərinin təhlili Humboldtun (1830-1835) fundamental tədqiqatlarının əsas istiqamətlərindən olmuşdur və bu mənada Humboldt dili fəaliyyət kimi nəzərdən keçirir. Sözsüz ki, fəaliyyət olaraq bu proses nitqdə reallaşır. Alimin fikrincə, nitq prosesi əlaqəliliyi, bütövlüyü, tamlığı nəzərdə tutur. Dili sözlərə, qaydalara ayırma onu canlı mahiyyətindən uzaqlaşdırır və "elmi analizin cansız məhsulu"na çevirir. Humboldt canlı dilin dialektikasını belə izah edir: "... dil sabit, eyni zamanda hər an keçici ola bilən", ən başlıcası isə "ruhun fəaliyyətini yeniləyən" mahiyyətdir[22]. Dili ruhun fəaliyyəti kimi təqdim etməsi fikri özünü doğruldur, çünki ruhun varlığı yalnız fəaliyyətdə təsəvvür edilə bilər. Buradan anlamaya dair Humboldtun özünəməxsus yanaşması ortaya çıxır. Belə ki, o, anlamanı söz və cümlələrin mənalarını mənimsəməklə deyil, "ruhun fəaliyyəti nəticəsində" gerçəkləşdiyini iddia edir. Təbii ki, qeyd edilən proses ünsiyyətdə reallaşa bilər ki, bu zaman söz öz mahiyyətini alır, dil isə tamlığını. Bu təqdimatda dil bütövlükdə düşüncəyə və anlamaya imkan yaradır, eyni zamanda appersepsiyanı (ilkin təsəvvürlərə və ya təcrübəyə əsaslanan qavrayış) və ya dünyagörüşünü formalaşdırır. Humboldt hesab edirdi ki, "dil xarici hadisələrlə insanın daxili aləmi arasında mövcud olan bir dünyadır"[23].

Beləliklə, bu təqdimatda dilin ruhun daxili fəaliyyəti ilə bağlı olması kimi mühüm xüsusiyyəti ön plana keçir. Humboldtun gəldiyi qənaətin əsas aparıcı mahiyyəti ondan ibarətdir ki, alim dilə aparan yolu yalnız dillə şərtləndirmir, o, daha çox dili bəşərəyyətin mənəvi-tarixi inkişafında vahid, bütöv mənzərənin

---

[22] Гумбольдт.В.фон. Избранные труды по языкознанию. М., 1984, с.70.

[23] Yenə orada, s. 304

yaradıcısı və onun daima özünəməxsusluğunu təmin edən hadisə kimi qiymətləndirir.

Bununla əlqədar olaraq dilə dialektik-materialist yanaşmada da özünəməxsus münasibət müşahidə olunur. Marksizmin klassikləri qeyd edirdilər ki, "... dil gerçək şüurdur və bundan çıxış edərək dil də şüur kimi digər insanlarla ünsiyyət tələbatından meydana gəlir".[24] Dilə dialektik-materialist yanaşmada həmçinin hesab olunur ki, dil "dərketmənin üsulu, vasitəsi", obyektiv gerçəkliyin ideal formada inikasıdır. Nitq fəaliyyəti bu inikasın reallaşdığı prosesdir[25]. Habermasın bu kontekstdə məsələlərə münasibəti köklü şəkildə fərqlənir. O, dilin inikas imkanlarını inkar etmir, lakin hesab edir ki, dil onu (yəni gerçəkliyi) təhrif edilmiş şəkildə təqdim edir. "Cəmiyyətin tənqidi" nəzəriyyəsində (Frankfurt məkrəbinin nümayəndələrinin işləyib hazırladıqları marksizm, freydizm və hegelçilik ideyalarını birləşdirən nəzəriyyə) məhz qeyd edilən təhrifləri aradan qaldırmağa cəhdlər edilir[26]. Burada daha çox kommunikativ etika məsələlərinə diqqət yetirilib, çünki diskurs Habermas üçün, ilk növbədə, məcburiyyətdən azad kommunikasiyadır və belə bir şəraiti təmin etmək üçün məcburiyyəti istisna edən əlavə vasitəyə, yəni əxlaqi prinsipə ehtiyac yaranır. Bu prinsipin imkanlarını reallaşdırmaq üçün isə diskursda iştirak edən hər bir şəxsin öz subyektiv tələblərini ümumi tələblərə transformasiya etməsi bacarığı mühüm şərtdir. Habermas üçün bu prinsip ağlabatan, məntiqəuyğun nitq normalarıdır. O, hesab

[24] Маркс К., Энгельс Ф. Соч. Т.3, Х, 1955 // https://www.marxists.org/russkij/marx/cw/t03.pdf

[25] Леонтьев А. Слово о речевой деятельности. М., 1965, с. 19. // https://iling-ran.ru/library/psylingva/OTRD.pdf

[26] Bax: Проблема легитимации позднего капитализма. М., издательство «Праксис», 2010.// file:///C:/Users/USER/Downloads/problema_legitimatsii.pdf



edirdi ki, bu normalar hamının maraqlarını əhatə edir, çünki məntiqli anlaşmaya (konsensusa) əsaslanır[27]. Əgər bu normalar ümumi maraqları nəzərdə tutmursa, təzyiq, güc üsulları ortaya çıxır və təbii ki, burada qarşılıqlı ünsiyyətdən söhbət gedə bilməz. Habermas hesab edirdi ki, dil ümuminin və təkin arasında yaranan ziddiyyətləri həll edə bilən ən uğurlu vasitədir[28].

Habermasın məsələyə münasibətinə dərindən yanaşdıqda aydın şəkildə görmək olar ki, alim üçün dil transsendental xarakter daşıyır. Ona artıq ümumi normalar verilmişdir, çünki nitq prosesində tək ümumiyə çevrilir, ümumidə isə tək öz əksini tapır. Dili əsas sosial amil kimi nəzərdən keçirən filosof onun mahiyyətini mütləqləşdirir, çünki burada, əsasən, sözlər arasında əlaqələrdən söhbət gedir, obyektiv gerçəlikdə baş verən dəyişikliklərin sözdə, dildə əks olunması müəyyən mənada diqqətdən kənarda qalır.

[27] Yenə orada, s. 165.

[28] Yenə orada, s. 152.

## 2.2. Analitik fəlsəfə: təkamülü və xarakterik xüsusiyyətləri

XX əsr fəlsəfi fikrində dil problemi aparıcı mövqelərdən birini tuturdu. Buna struktur linqvistikanın insan təfəkkürünün forma və üsulları haqqında yaratdığı yeni təsəvvürlər səbəb oldu. Bu şərait əvvəlcə dilçilikdə, sonra isə fəlsəfədə, etnologiyada, sosiologiyada, antropologiyada və tarix elmində pozitivist təfəkkürün yüksəliş dövrü kimi qiymətləndirildi. Qeyd etmək lazımdır ki, XX əsr bəşər tarixində əhəmiyyətli dəyişikliklər dövrü kimi xarakterizə olunur. Bu dəyişikliklər, demək olar ki, ictimai həyatın bütün sahələrini–maddi, siyasi, mənəvi və s. -əhatə edirdi. XX əsrin əsas aparıcı fəlsəfi cərəyanlarını marksizm, praqmatizm, neopozitivizm, neotomizm, fenomenologiya, personalizm, strukturalizm, freydizm, neofreydizm və s. təşkil edir.

Əsası XIX əsrdə fransız filosofu O.Kont (1798-1857) tərəfindən qoyulmuş *pozitivizm* fəlsəfədə geniş yayılmış cərəyanlardan biridir. Onun əsas problemi fəlsəfə ilə elm arasındakı əlaqə məsələsidir. Pozitivizmin aparıcı tezisi ondan ibarətdir ki, gerçəklik haqqında həqiqi bilik yalnız konkret elmlər sayəsində əldə edilə bilər. Dar mənada, bu termin O.Kontun fəlsəfəsini ifadə edir. Kont hesab edirdi ki, insan təfəkkürü öz inkişafında üç-teoloji, metafizik və pozitiv (və ya elmi) mərhələlərdən keçmişdir. Fransada E.Linttre, E.Renan bu istiqamətin tərəfdarları olmuşlar. İlkin pozitivizm O.Kontun, D.Stüartın və Millin adı ilə bağlıdır. "Pozitiv fəlsəfə kursu" (Cours de philosophie positive», т. 1-6, 1830-1842) əsərində Kont qeyd edirdi ki, pozitivizmin reallıq və elmlə sıx əlaqəsi olduğundan, metafizika dini əvəzlədiyi kimi, o da metafizikanın yerinə gələcək. Kont tərəqqinin və tarixi qanunların qaçılmaz proses olduğuna inanırdı. O, sosial



elmlərə çox böyük əhəmiyyət verirdi və hesab edirdi ki, təbiətşünaslıq elmi əsaslı şəkildə təbiət aləmini öyrəndiyi kimi, elə bir elm sahəsi yaratmaq lazımdır ki, o da cəmiyyəti öyrənə bilsin. Bu elm sahəsi ideal cəmiyyət uydurmamalı, real insani əlaqələri öyrənməlidir. İngiltərədə pozitivizm Con Stüart Millin (1806-1873) və Herbert Spenserin (1820-1903) yaradıcılığında öz əksini tapıb. Almaniyada pozitivizm ideyalarını Y.Moleşott (1822-1893) və E.Hekkel (1834-1919) inkişaf etdirmişlər. Adları şəkilən pozitivistlər bu istiqamətin ilk dövrlərinə aid edilirlər.

Pozitivizmin ikinci dövrü biliyin əsasını təşkil edən təcrübənin tənqidini nəzərdə tutur (R.Avenarius (1843-1896), E.Max (1838-1916). İsveçrəli filosof Avenarius hesab edirdi ki, təcrübə insanın dünya ilə təbii əlaqəsidir və bu əlaqə idrakın əsasını təşkil edir. Avstriyalı alim Max da təcrübəni psixofiziki problemlərin həllində mühüm amil kimi nəzərdə tuturdu. Elm hissi təcrübədə mövcud olan faktların ideyalarda təcəssümüdür, idrak isə mühitə uyğunlaşma prosesidir.

Pozitivizm ideyaları Anri Puankarenin (1854-1912) Bertran Rasselin (1872-1970), Rudolf Karnapın (1891-1970), Lyudviq Vitgenşteynin əsərlərində davam etdirildi və yenidən dəyərləndirildi. Bu dəyərləndirmə isə neopozitivizm adlandırıldı.

Pozitivizmin mühüm cəhətlərindən biri də ondan ibarətdir ki, o, materializmlə yanaşı, klassik idealizmdən də uzaqlaşmağa cəhd göstərir və elmə əsaslanan yeni fəlsəfə yaratmağa istiqamətlənirdi. Elmin fəlsəfəsi ilə məşğul olan kanadalı filosof Hakinq pozitivizmin mahiyyətini təqdim etməyə çalışaraq onun bir neçə kriteriyalarını qeyd etmişdir:

1.Verifikasiyaya (yoxlama), həmçinin falsifikasiyaya diqqət yetirmək. Mülahizələr öz gerçəkliklərində aydın kriteriyaya malik olmalıdırlar.

2. Təcrübənin verdiyi müşahidəyə maraq. Bütün biliklər, son nəticədə, bizim hiss və duyğularımıza istinad etməlidir. Bu kriteriya birinci bəndlə səsləşir, yəni gerçəkliyin təsdiq olunması üçün o, təcrübəyə əsaslanmalıdır.

3. Antikazualizm (təbiətdə səbəbiyyət yoxdur, yalnız hadisələr arasında sabitlik var). Hadisələr əlahiddə səbəbiyyət daşımır, onlar arasında yalnız əlaqələrin sabitliyi mövcuddur.

4. İzahatların rolunun aşağı salınması. Bunlar mühüm əhəmiyyət daşımır, yalnız məlumatları aydınlaşdırmaqda və ümumiləşdirməkdə bizə yardım edir[29].

XX əsrin 60-cı illərindən başlayaraq *postpozitivizm* konsepsiyası məntiqi-metodoloji tədqiqatların mühüm mahiyyət daşıyan istiqamətlərindən biri kimi təşəkkül tapmağa başladı. Qeyd etmək lazımdır ki, postpozitivizmin tərəfdarları arasında ciddi fikir ayrılıqları mövcud idi və onlar neopozitivizmin artıq əhəmiyyətini itirmiş mövqelərinə tənqidi münasibət göstərirdilər, lakin postpozitivizmin və neopozitivizmin arasında mövcud olan varislik prinsipi də nəzərdən qaçırılmırdı. Neopozitivistlər kimi, postpozitivistlər də idrakın rasional metodlarına xüsusi əhəmiyyət verirdilər. İngilis filosofu Karl Popper postpozitivistlərin ən görkəmli nümayəndələrindən biri hesab olunur. Popper hesab edirdi ki, verifikasiya konsepsiyası uğurlu hesab edilə bilməz, çünki bu konsepsiya elmin mütləq şəkildə gerçək olduğu ideyası üzərində qurulub. Lakin bu mütləqlik özünü doğrultmur, çünki tez və ya gec, mahiyyətlərini itirmiş nəzəriyyələr yeniləri ilə əvəz olunurlar. Yəni gerçək hesab olunanlar zaman keçdikcə, elm inkişaf etdikcə yeni xüsusiyyətlər əldə edirlər və ilkin mahiyyətlərindən uzaqlaşırlar. Təbii ki, epistemologiyanın, yəni fəlsəfənin elmi idrakının qarşısında duran məsələ nəzəriyyələrin axtarışında

---

[29] http://1917.com/XML/lKPQAVL23OQREbVBgp2gSnNX8Ts



deyil, ilk növbədə, biliklərin inkişafı probleminin həll edilməsindədir. Biliklərin inkişafı isə mövcud biliyin tənqidi ilə rasional diskussiyası sayəsində reallaşır. Bu baxımdan Popper öz fəlsəfəsini tənqidi rasionalizm adlandırır.

Popper biliyin inkişafında bir çox incə məqamları ifadə edə bilmişdi, bununla belə, onun da konsepsiyası tənqidə məruz qaldı. Popperin biliyin inkişafına yanaşmasında sanki hipotezlər, müşahidə faktları bir-biri ilə mübahisəyə girir və faktik olaraq, bu gedişatda Popper müəyyən mənada gerçəkliyi gözardı edir. Lakin unutmaq lazım deyildir ki, hipotezlər və müşahidə faktlarından başqa, sosial və texniki "dünyalar", biliyin inkişafına təsir göstərən saysız-hesabsız amillər də mövcuddur. Onlar bəzi hallarda tənqidə məriz qalsalar da, bir çox təməl nəzəriyyələr bu gün işləyir, dövrün tələblərinə müvafiq olaraq biliklərin inkişafına xidmət edir. Başqa sözlə, Popperin qənaətləri daha çox normativ xarakter daşıyır. Təbii ki, belə yanaşma gerçək həyatla hər zaman uyğunluq təşkil etməyə bilər.

Bu mövzuya dair digər postpozitivistlərin özüməməxsus konsepsiyaları mövcuddur. İngilis filosofu İmre Lakatos elmi-tədqiqat proqramlarının metodologiyasını irəli sürdü. Popperə görə, bir nəzəriyyə digəri ilə əvəz olunur və köhnə nəzəriyyə tamamilə inkar olunur. Lakatos isə nəzəriyyələri bir-biri ilə müqayisə etməyin vacib olduğunu təklif edir. Və qeyd edir ki, burada nəzəriyyələri deyil, elmi-tədqiqat proqramlarını müqayisə etmək lazımdır. Hər bir elmi-tədqiqat proqramı bir neçə nəzəriyyəni əhatə edə bilər. Lakatos elmi-tədqiqat proqramlarının və nəzəriyyələrin müqayisəsinin zəruriliyini qeyd etməklə, biliklərin inkişafı prosesində mühüm məqamları ayırmağa müvəffəq ola bilmişdi. Burada əsas olan elmi-tədqiqat proqramları və nəzəriyyələrin düzgün müəyyənləşdirilməsidir. Yəni hər bir tədqiqatçı apardığı araşdırmanın tələblərinə

müvafiq olaraq elmi-tədqiqat proqramını və nəzəriyyəni özü üçün aydınlaşdırmalıdır. Əgər tədqiqatçı yalnız bir elmi-tədqiqat proqramını və ya bir nəzəriyyəni seçirsə, təbii ki, burada mütləqlik meydana gəlir və müqayisə etməyə imkan yaranmır.

Postpozitivistlər haqlı olaraq elmi idrakın inkişaf tarixinin əsaslı şəkildə öyrənilməsinin zəruri olduğuna diqqət çəkirdilər. Elmlərin öyrənilməsi onların tarixi inkişafından təcrid olunmuş şəkildə həyata keçirilirsə, bu, sonda birtərəfli biliyin əldə olunmasına gətirib çıxarır. Bu istiqamətdə amerikan filosofu Pol Feyerabendin də maraqlı fikirləri mövcuddur. O, biliklərin inkişafının tədricən toplanması, yəni kumulyasiya olması ideyasının əleyhinə idi. Feyerabend hesab edirdi ki, plüralizm yalnız siyasətdə deyil, elmdə də hökm sürməlidir. O, idrakın universal metodunun mümkünlüyünü qəbul etmirdi. Bəzən Feyerabend belə ideyalar da irəli sürürdü ki, elmi cəmiyyət tərəfindən qəbul olunan hər bir nəzəriyyə məqbul sayıla bilər. Mütləq rasionallıq kriteriyaları mövcud deyil, onlar nisbidirlər. Təbii ki, buradan belə bir fikir yaranır ki, Feyerabend elmin inkişafı sayəsində formalaşmış sabit tendensiyaları diqqətdən kənarda qoyur. Halbuki bu istiqamətlər mövcuddur və bütövlükdə, elmin inkişafı bunlarsız mümkün ola bilməz. Yəni yeninin yaranmasının təməli olmalıdır.

Amerikalı filosof Tomas Kun elmin inkişafı ilə əlaqədar Popperin sxeminə tənqidi münasibət göstərmişdir. Onun fikrincə, elmi biliyin inkişafında əsas rolu elmi birlik oynayır. Kunun bu məsələlərə münasibətinin mahiyyətini belə açıqlamaq olar ki, elmin inkişafında mühüm olan məntiqin normaları, metodologiyalar deyil, paradiqmalardır, yəni elmi birlik tərəfindən qəbul edilmiş və elmi ənənəni təmin edən qənaətlər, dəyərlərdir. Təbii ki, paradiqmalar mahiyyətləri baxımından nəzəriyyələrdən və elmi-tədqiqat proqramlarından daha



genişdirlər. Paradiqmaların üstünlüyü bir də onunla izah olunur ki, hər bir paradiqma rasionallıq kriteriyaları ilə fərqlənir və onlar universal xüsusiyyət daşımırlar.[30]

Elmin inkişaf mərhələləri, əsasən, belə təsnif olunur: konkret praktik vəzifələrlə sıx bağlı reseptur biliklərdən klassik elmə, klassik elmdən qeyri-klassik elmə, qeyri-klassik elmdən isə postqeyri-klassik elmə. Lakin bu bölgü müəyyən mənada şərti xarakter daşıyır. Belə ki, bu gün cəmiyyətlər, real olaraq müxtəlif zamanlarda yaşayırlar və təbii ki, belə şəraitdə elmlər də qeyri-bərabər şəkildə inkişaf edirlər. Hazırda elə elm sahələri vardır ki, onlar hələ klassik mərhələyə çatmayıblar. Qeyd edilən mərhələlərdə elmin, yaşanan dövrün tələblərindən çıxış edilərək bu və ya digər elmi istiqamət prioritet mövqe daşıyıb. Bu baxımdan, bəzən hesab edilir ki, XX əsrin analitik fəlsəfəsi fəlsəfəni elmi əsaslar üzərinə qoydu və bununla elmin fəlsəfəsi yarandı. Lakin bu yanaşmaya münasibət birmənalı olmayıb. Belə ki, analitik fəlsəfənin əsas istiqamətlərindən biri məntiqi empirizmdir və bu cərəyanın tərəfdarları hesab edirdilər ki, yalnız elm həqiqi bilik verə bilər və fəlsəfənin rolu burada nəzərə alınmırdı. Digər tərəfdən isə analitik fəlsəfənin özü yekcins deyil. Yəni məntiqi empirizm elmi nəzərdə tutursa, analitik fəlsəfənin digər əsas istiqamətlərindən olan linqvistik fəlsəfə *antissientik* mövqe (elm və texnikanı tənqid edən fəlsəfi dünyagörüşü mövqeyi) tutur. Qeyd edilən ideyalara diqqət yetirdikdə belə qənaət yaranır ki, analitik fəlsəfə, yəni dilə əsaslanan təhlillər effektivliyini kifayət qədər təsdiq edə bilmədi. Yəni istər məntiqi pozitivistlərin nəzərdə tutduqları elmin dili, istərsə də linqvistik fəlsəfədə gündəlik dil fəlsəfi problemlərin həllində qəti imkanlar yarada bilmədi. Bununla belə, müasir elm klassik analitik fəlsəfəyə aid səmərəli ideyalara

[30] http://www.grandars.ru/college/filosofiya/pozitivizm.htmlт мифа.

tez-tez müraciət edir. Bunu son dövrlərin aparıcı elmi istiqamətlərindən sayılan sinergetikada müşahidə etmək olar. Sinergetikanın təməlini qoyan A.Priqojin, A.Uaythed, A.Berqson analitik fəlsəfənin elmi axtarışlara təsirini etiraf edirdilər. Bu fikirləri fənlərarası elmi istiqamət olan koqnitiv elm (idrak nəzəriyyəsi, koqnitiv psixologiya, neyrofiziologiya, koqnitiv linqvistika, qeyri-verbal kommunikasiya, süni intellekt nəzəriyyəsi və s.) haqqında da söyləmək olar.

Neopozitivizm ("məntiqi atomizm," "məntiqi pozitivizm", "analitik fəlsəfə", "məntiqi empirizm" də adlandırılır) geniş yayılmış fəlsəfi cərəyandır. Məntiqi pozitivizm XX əsrin əvvəllərində M.Şlikin (1882-1936) rəhbərliyi ilə "Vyana dərnəyi"ndə yaranmışdır və tərkibinə L.Vitgenşteyn, R.Karnap, O.Neyrat və b. daxil idilər. Bu gün daha çox analitik fəlsəfə kimi adlanan neopozitivizmin ümumi xüsusiyyəti fəlsəfi problemlərin aydınlaşdırılması məqsədilə dilin müfəssəl təhlilini əhatə edir. Analitik fəlsəfənin daha çox tanınmış nümayəndələri B.Rassel və L.Vitgenşteyn hesab olunurlar. Tarixdən məlumdur ki, Bertran Rassel çox uzun ömür sürmüş və xeyli elmi əsərlər yazmışdır: "Riyaziyyatın başlanğıcı" (A.Uaythedlə həmmüəllif), "Şüurun analizi" (1921), "Mənanın və həqiqətin təhlili" (1949), "İnsan təfəkkürü, onun sfera və sərhədləri" (1950), "Qərb fəlsəfəsi tarixi" (1948) və s.[31] Rassel görkəmli riyaziyyatçı idi və riyaziyyatın əsaslarının təhlilində məntiqi analizin tətbiqinə böyük töhfələr vermişdir. Alimin fikrincə, söz və cümlələrin mənaları dəqiqləşdirilməlidir. Məntiqi analiz metodunu o, fəlsəfəyə tətbiq edirdi. "Ətraf mühit haqqında bizim biliklərimiz" (1914) və "Məntiqi atomizm" (1924) əsərlərində o, belə bir ideya irəli sürürdü ki, məntiqin köməkliyi ilə fəlsəfənin mahiyyətini açmaq olar. Qeyd etmək lazımdır ki,

[31] http://1917.com/XML/IKPQAVL23OQREbVBgp2gSnNX8Ts



B.Rasselin maraqları yalnız dilin məntiqi analizi ilə məhdudlaşmırdı. Onun idrak nəzəriyyəsi, sosial fəlsəfə, etikaya aid də dəyərli əsərləri vardır. L.Vitgenşteyn Rasselin tələbəsi olub. O, "Məntiqi-fəlsəfi traktat"ın (1921) müəllifidir. Bu əsərdə yer alan yeddi aforizmi qeyd etmək istərdik:

- Dil və dünya Vitgenşteyn fəlsəfəsinin mərkəzi anlayışıdır. "Traktat"da onlar "güzgü"dəki cütlük kimi dururlar: dil dünyanı əks etdirir, çünki dilin məntiqi strukturu dünyanın ontoloji strukturuna identikdir.
- Dünya, bir çox fəlsəfi sistemlərin fərz etdiyi kimi, obyektlərdən deyil, faktlardan ibarətdir. Dünya bütün mövcud faktları ifadə edir. Faktlar sadə və mürəkkəb ola bilərlər.
- Obyektlər qarşılıqlı əlaqəyə girərək faktların yaratdığı mahiyyətdir. Obyektlər bu və ya digər münasibətə daxil olmağa imkan verən məntiqi forma, xüsusiyyətlər məcmusuna malikdirlər.
- Dildə sadə faktlar sadə cümlələrlə təsvir olunur. Adlar deyil, onlar (yəni faktlar) ən sadə dil vahidləridir. Mürəkkəb faktlara mürəkkəb cümlələr uyğundur.
- Bütövlükdə, dil dünyada mövcud olanın, yəni faktların təsviridir.
- Dil həmçinin mümkün faktların da təsvirini nəzərdə tutur. Bu halda dil, bütövlükdə, məntiqin qanunlarına və formalizasiyaya tabe olur.
- "Traktat"ın son aforizmi belədir: "Bir şey haqqında danışmaq mümkün olmadıqda, o haqda susmaq lazımdır".[32]

Lüdviq Vitgenşteyn və pozitivistlər hesab edirdilər ki, biliyin doğruluğunu üzə çıxarmaq üçün təcrübəyə müraciət etmək lazımdır. Fikrin, mülahizənin mənası onun verifikasiya-

[32] https://www.proza.ru/2011/12/26/223

sında müəyyənləşir. Məhz empirik verifikasiya mənanı cəfəngiyyatdan ayırmağa imkan verir[33]. Analitiklər hesab edirlər ki, dil və düşüncə ayrılmazdır və birinin məntiqi təhlili digərinin analizini gerçəkləşdirir. Nəticədə, fəlsəfədə bütövlükdə elmdə olan anlaşılmazlıqların aradan qaldırılmasına şərait yaranır. Vitgenşteyn və məntiqi pozitivistlər analitik metoda əsaslanaraq ifadələrin bir-biri ilə və dünya ilə qarşılıqlı əlaqələrini aydınlaşdırmağa cəhd etmişlər. Bu təqdirdə fəlsəfə sözlərin, onların mənalarının düzgün ifadə olunmasına tənqidi münasibət bəsləyir və bununla da gerçəkliyin təqdim edilməsində effektivliyə nail olunur.

Qeyd etmək lazımdır ki, Vitgenşteynin "Traktat"ı Vyana dərnəyinin filosoflarının stolüstü kitabına çevrilmişdi, lakin əsərin bəzi müddəaları bu filosoflar tərəfindən qəbul edilmədiyindən Vitgenşteyn öz fəlsəfəsinə yenidən nəzər yetirmək məcburiyyətində qaldı. Vitgenşteynin yeni fəlsəfəsi nəzəriyyədən daha çox metod və təcrübələrin məcmusundan idarət idi. Alim hesab edirdi ki, predmeti daim dəyişikliyə məruz qalan bilik sahəsi məhz belə olmalıdır. Vitgenşteynin son dövrlərə aid görüşləri, ilk növbədə, Oksford və Kembricdə qəbul edildi və bununla da linqvistik fəlsəfənin bünövrəsi qoyuldu. Neopozitivizmin digər nümayəndələri olan R.Karnap, F.Frank, Q.Reyhenbax və b. da idrak nəzəriyyəsinin və elmin fəlsəfəsinin inkişafına böyük töhfələr vermişlər.

Analitik təhlil 1950-1960-cı illərdə dominantlıq təşkil edirdi və ayrı-ayrı elm sahələri fəlsəfənin ümumiləşdirici xüsusiyyətindən çıxış edərək dünyanı dərk etməyə çalışırdı. Lakin 1970-ci illərdə analitik fəlsəfə postmodernistlər tərəfindən tənqidə məruz qaldı və XX əsrin sonlarında o, demək olar ki, ideya, fikir istiqaməti olaraq mahiyyətini itirməyə başladı,

[33] https://www.ruthenia.ru/logos/number/1999_08/1999_8_07.htm



yəni özünü əsas tədqiqat istiqaməti kimi göstərən analitik fəlsəfənin həyati qüvvəsi tədricən tükəndi və illər keçdikcə bu istiqamətin varisləri tərəfindən ya tamamilə rədd edildi, ya da yenidən dəyərləndirilməyə cəhd göstərildi. Dilin məntiqi analizi vasitəsilə metafizikadan kənarlaşmaq məqsədi güdən (R.Karnap) bu istiqamət tədricən təqdim etdiyi nəzəriyyə və doktrinalardan daha çox, metafizik mahiyyət daşımağa başladı. Bu mənada müasir analitiklər arasında bu sahə ilə əlaqədar metod və yanaşmalarda vahid mövqe izlənilmir.

Əsaslandırmanın aydınlığı və ciddiliyi, metaforik, təlqinedici ifadələrdən imtina, əsas anlayışların dəqiqliklə müəyyən edilməsi, fəlsəfi ümumiləşdirmələrə ehtiyatlı yanaşma, lakoniklik və s. analitik diskursun xarakterik xüsusiyyətləri hesab olunur. Analitik fəlsəfədə linqvistik reduksionizm, yəni bütün fəlsəfi problemlərin dil problemlərinə aid edilməsi nəzərdə tutulur. Bu "dilə dönüş" faktını analitiklər yalnız ingilis-amerikan fəlsəfəsinin deyil, bütövlükdə XX əsr Qərb fəlsəfəsinin nailiyyəti kimi qiymətləndirir və hesab edirdilər ki, bu hadisə fəlsəfədə metafizikadan epistemologiyaya və dilin fəlsəfəsinə keçid olaraq təbii bir prosesdir, yəni əvvəlcə filosoflar dünya, onu dərketmənin yolları haqqında düşünürdülər, sonra bu dərketmənin üsullarına diqqət yetirməyə başladılar.

Hazırda analitik fəlsəfənin vəziyyəti kifayət qədər mürəkkəbdir. Bir tərəfdən o, bu gün beynəlxalq hərəkata çevrilib və ingilis-sakson ölkələrində (ABŞ, Böyük Britaniya, Avstraliya, Kanada, Yeni Zelandiya), həmçinin Skandinaviya və Niderlandda aparıcı mövqeyə malikdir, Avropada isə (Almaniya, Fransa, İtaliya) bu sahədə mövqeyini gücləndirməkdədir. Üstəlik, fərqli ölkələrdə özünəməxsus xüsusiyyətlərini qoruyub saxlayır. Məsələn, ABŞ-da analitik fəlsəfəyə praqmatik istiqamət xarakterikdirsə, Avstraliya və Yeni Zelandiyada

"elmi realizm" mahiyyəti daşıyır. Britaniya analitik fəlsəfəsi isə daha çox məntiqi-semantik problemlərə yönəlmişdir.[34] Digər tərəfdən isə tədqiqatçılar getdikcə daha çox fəlsəfi ideologiya olaraq analitik fəlsəfənin böhranından söhbət açırlar. Bütün bu deyilənlərlə yanaşı, analitik fəlsəfənin XX və XXI əsrlərin ingilisdilli fəlsəfi fikrində üstünlük təşkil etməsi onunla əlaqədardır ki, o, dilin analizindən istifadə edərək məntiqi və linqvistik metodlarla fəlsəfi problemləri həll edən müxtəlif fəlsəfi istiqamətləri birləşdirir, məntiqilik, aydınlıq, dəqiqlik kimi məqamları nəzərdə tutur. Analitiklər inanırdılar ki, onların məntiqi-metodoloji və konseptual tədqiqatları metafizikanın qeyri-müəyyənliklərini aradan qaldıracaq, fəlsəfədə yeni elmi mərhələ başlanacaq. Bununla belə, linqvistik analiz adı altında nəzəriyyə və yanaşmaların son dərəcə müxtəlifliyi, hərəkatın ilkin mərhələlərində onun proqramının əsasını təşkil edən bir sıra mühüm prinsiplərdən uzaqlaşma, mövqeyində aydın oriyentirlərin və təsəvvürlərin olmaması, qeyri-müəyyənliyə səbəb olan məsələlər özünü göstəririd. Aydın oldu ki, yalnız analitik yanaşma ilə fəlsəfi problemləri həll etmək mümkün ola bilməz, çünki belə təhlil bilavasitə konteksti, yəni mədəni, tarixi, milli və s. sahələri nəzərdə tutmadığından obyektiv nəticələrin əldə edilməsi real görünmür. XX əsrdə analitik fəlsəfənin təkamülü prosesində belə qənaət yarandı ki, kontekstdən kənarda, yəni mədəni, tarixi, milli və s. konstantalar nəzərə alınmadan fəlsəfə ilə məşğul olmaq mümkün deyil. Məntiqi pozitivistlərin dilin məntiqinə və strukturuna aid olan münasibətlərini milli mədəniyyət, ənənə, dünyagörüşü kimi daha geniş məsələlər əvəz etdi. Təbii ki, belə bir mövqe fəlsəfi analiz, onun prinsip və vəzifələri haqqındakı təsəvvürləri dəyişdi və nəticədə belə bir

[34] https://gtmarket.ru/concepts/7326



fikir formalaşdı ki, analitik fəlsəfə elmi fəaliyyəti dar çərçivədə reallaşdırır. Bu amil XX və XXI əsrin filosoflarının məsələlərə münasibətində fərqli mövqelərin formalaşmasına səbəb oldu. Belə ki, bir sıra Avropa alimləri hesab edirlər ki, analitik fəlsəfə dünya fəlsəfi fikrinin inkişafına heç bir yenilik gətirməyib. Onlar bu mövqeyi qəbul etməyən Amerika alimlərini tənqid edirlər və hesab edirlər ki, məntiqi pozitivistlərin, metafizikadan, ənənəvi fəlsəfi nümunələrdən tam imtina kimi irəli sürdükləri fikirlərlə elə özləri keçmişə dönürlər. Artıq XX əsrin sonunda filosof-analitiklərin Aristotelə, orta əsr sxolastikasına, Kanta, Hegelə, milli-fəlsəfi ənənəyə, amerikan praqmatizminə yenidən marağının artdığı müşahidə olunur.

Amerikan filosofu, son dövr analitik ənənənin ən nüfuzlu nümayəndələrindən biri olan Riçard Rorti qeyd edir ki, fəlsəfə tarixinə etinasızlıq ənənəvi olaraq analitik filosorlara xas xüsusiyyətdir. Lakin bu, təsadüfi və keçici hadisədəir[35]. Fin filosofu Yakko Hintikkanın isə məsələlərə münasibəti tam əksinədir. O, hesab edir ki, son dövrlərin "ekzegetik dönüşü" (ekzegetika–bibliyaya dair mətnlərin, zamanın təsiri nəticəsində ilkin mənası qeyri-müəyyən vəziyyətə düşmüş qədim mətnlərin şərhi haqqında təlim) fəlsəfə tarixinə dair münasibətlərdə qeyri-proporsional münasibət formalaşdırdı. "Fəlsəfi fəaliyyəti həqiqət axtarışı kimi anlamaq əvəzinə, bəzi filosoflar bunu diskurs naminə mədəni diskurs halına gətirdilər"[36].

Analitik fəlsəfədə antimetafizik istiqamət onun təşəkkülü müddətində dominantlıq təşkil etmişdir, lakin metafizikanın ənənəvi problemləri müəyyən müddətdən sonra yenə aktuallaşdı. Artıq 1948-ci ildə Oksford universitetinin professoru

[35] https://gtmarket.ru/laboratory/basis/5141

[36] http://vphil.ru/index.php?option=com_content&task=view&id=348&Itemid=52

Stüart Hempşir Aristotel cəmiyyətinin iclasında "Bütün fəlsəfi məsələlər dilə aiddirmi? sualına mənfi cavab vermişdir. Bir müddətdən sonra "Vena məktəbi"nin nümayəndəsi Fridrix Vaysman da qeyd etmişdir ki, metafizikanın mənasız olması fikrinin irəli sürülməsinin özü mənasızlığa məhkumdur[37]. Sonrakı dövrlərdə dilin məntiqi analizində formalizmin yaratdığı nəticəsizlik məntiqi pozitivistləri (yəni neopozitivistləri) öz təlimlərini yenidən dəyərləndirmək məcburiyyətində qoydu. Əgər əvvəllər onlar elmi dilin məzmununu gözardı edirdilərsə və yalnız formal sintaktik qaydaları nəzərdə tuturdularsa, sonralar getdikcə daha çox semantik problemlərə, yəni söz və ifadələrin mənalarına diqqət yetirməyə başladılar.

Semantik problematikaya təkanı A.Tarskinin, sonralar isə amerikan pozitivisti, praqmatizmə yaxın olan Ç.Morrisin tədqiqatları verdi. Artıq dil və işarələr sistemində üç sahə ayrılmağa başlandı: dilin ondan istifadə edənə münasibəti–praqmatika; dillə onun ifadə etdiyi arasında münasibət-semantika; dil ifadələri arasında münasibət-sintaksis. Bu üç hissədən ibarət olan təlim semiotika adlandırılıdı. Sözlərin və işarələrin analizinə keçməklə neopozitivistlər öz təhlillərinə böyük elmi və təcrübi mahiyyət daşıyan bir sıra məntiqi, linqvistik, psixoloji problemləri daxil etdilər. Semantik problematikaya əsaslanaraq dilə məna daşıyıcısı və kommunikasiya forması kimi müxtəlif cəhətlərdən yanaşan məktəb və cərəyanların nümayəndələri bir araya gəldilər. Karnapın və Tarskinin qrupu riyazi məntiqlə bağlı simvolik ifadələrin təhlilinə yönəldi. Ümumi semantik problemlərlə məşğul olanlar isə (A.Kojibski, S.Çeyz və b.) dilin semantik analizindən istifadə edərək içtimai münasibətlərin, sosial ziddiyyətlərin təhlilinə cəhd göstərdilər.

[37] Bax: Блохина Н. А. Метафизика в аналитической философии: очерки истории. Ряз. гос. ун-т им. С.А. Есенина. -Рязань, 2011 // http://dspace.rsu.edu.ru/xmlui/bitstream/handle/123456789/3742/%D0%91%D0%BB%D0%BE%D1%85%D0%B8%D0%BD%D0%B0%20%D0%9D.%D0%90.%20%D0%9C%D0%B5%D1%82%D0%B0%D1%84%D0%B8%D0%B7%D0%B8%D0%BA%D0%B0%20%D0%B2%20%D0%B0%D0%BD%D0%B0%D0%BB%D0%B8%D1%82%D0%B8%D1%87%D0%B5%D1%81%D0%BA%D0%BE%D0%B9%20%D1%84%D0%B8%D0%BB%D0%BE%D1%81%D0%BE%D1%84%D0%B8%D0%B8.pdf?sequence=1 c.10.



Deyilənlərdən görünür ki, analitik fəlsəfənin bütün məqsəd və prinsipləri zaman keçdikcə bu istiqamətin davamçıları tərəfindən ya inkar edilib, ya da əsaslı şəkildə yenidən dəyərləndirilib. Müasir dövrün analitik filosofları arasında metafizikanı inkar etmək, fəlsəfə tarixinə biganə qalmaq kimi bir münasibət müşahidə olunmur. Bu barədə amerikan filosofları belə bir ideya irəli sürürlər ki, analitik fəlsəfənin metodoloji və prosedur tərəfini onun ideoloji və ya doktrinal cəhətindən asılı olmadan nəzərdən keçirmək lazımdır. Doktrina olaraq analitik fəlsəfə sıradan çıxmışdır, lakin metodoloji mənbə olaraq, o, özünü son dərəcə səmərəli və məhsuldar şəkildə ifadə edir və onun faydalı təsirini müasir fəlsəfənin bütün sahələrində görmək olar.

Tədqiqat işində analitik fəlsəfəyə geniş yer verilməsinin səbəbi onunla izah olunur ki, onun təfəkkür tərzi və metodologiya olaraq yenidən aktuallaşması prosesi baş verir və bu da təsadüfi xarakter daşımır. Belə ki, qeyd edilən zərurət zamanın tələbindən irəli gəlir, çünki informasiyanın üstünlük təşkil etdiyi müasir dövrdə analitik fəlsfənin irəli sürdüyü lakoniklik, detallıq və incə fərqlərin aydınlaşdırılmasında dərin axtarışlar (təhlillər); terminoloji dəqiqliyə və aydınlığa malik olan dillərdən istifadə kimi prinsiplər bu gün üçün də mühüm əhəmiyyət kəsb edir. Təbii ki, məsələlərə bu şəkildə yanaşma öz ciddiliyi

ilə fərqlənir və arqumentlərin, faktların dərindən təhlil edilməsinə şərait yaradır. Yəni hazırda internetdə təqdim edilən məlumatların hədsiz çoxluğu və bunların böyük bir qisminin qeyri-müəyyənliyi, gerçəkliyi ifadə etməməsi nəzərə alınarsa qeyd edilən prinsiplər problemdən çıxış yollarından biri kimi göstərilə bilər.

Analitik fəlsəfə XX əsrin mədəniyyətində Qərb fəlsəfi fikrinin digər istiqamətlərinə münasibətdən də çıxış edilərək nəzərdən keçirilə bilər və bunlar kifayət qədər çoxşaxəli və müxtəlifdirlər. Bu baxımdan analitik fəlsəfə və fəlsəfi hermenevtika arasında çox sıx əlaqələr mövcuddur. Fəlsəfi hermenevtika alman fəlsəfəsinin ənənələri ilə bağlıdır və bir çox sahələrə aid mətnlərin interpretasiyasının həyata keçirilməsi üçün metodoloji əsas kimi çıxış edir.

Hermenevtik, analitik, metodoloği, məntiqi kontekstlərə istinadən reallaşan interpretasiya sosial-humanitar idrakın əsas fəaliyyət dairəsi və ümumelmi metodu kimi özünü göstərir. Mətnlərin izahında mənanı nəzərdə tutan, onu aydınlaşdıran əməliyyatları həyata keçirən üsul olaraq hermenevtika müxtəlif səpkili funksiyalar yerinə yetirə bilir. Təbiət elmlərində o, formal simvol və anlayışların tərcümə qaydalarına müvafiq olaraq biliyin məna daşıyan dilinə çevrilməsini gerçəkləşdirir. Fəlsəfi fikirlərin, anlayışların, təlimlərin özünəməxsus funksiyaları vardır. Bu mənada fəlsəfədə interpretasiya fərqli fəaliyyət yerinə yetirir. Yəni yeni kontekstlərin ortaya çıxması, mədəniyyətin inkişafı interpretasiyanı yenidən problematikləşdirir və sonrakı interpretasiyaların gerçəkləşməsinə açıq olur. Humanitar bilikdə işarəvi sistem olaraq mətnlərlə iş interpretasiyanın fundamental metodudur. Mətn bütöv funksional struktur kimi sosial kommunikasiya sistemlərində mövcud olan bir çox mənalara açıqdır.



Amerika analitik fəlsəfəsində interpretasiya problemi fərqli yanaşma ənənəsini və təcrübəsini nəzərdə tutur. Bu vəziyyət onun linqvistik versiyasına da aiddir. Britaniyalı şair, dramaturq D.Devidsona görə, dilin ümumi xüsusiyyətlərinin arxasında gerçəkliyin ümumi parametrləri və əlamətləri durur. Təbii dilin ümumi strukturunun öyrənilməsi əksər hallarda dünya mənzərəsini təqdim edir. Təbii dildə ümumi qənaətlərin, prinsiplərin mövcud olması isə uğurlu kommunikasiyanın reallaşdırılmasına şərait yaradır. Yəni Devidsonun qeyd edilən ideyaları interpretasiya nəzəriyyəsinin təməl şərtlərini və əsasını təşkil edir. Devidsonun yanaşmasında interpretasiya daha təkmil, arqumentləşdirilmiş şəkildə təqdim olunur. Bununla o, interpretasiyanın fəlsəfi anlamının sərhədlərini əhəmiyyətli dərəcədə genişləndirdi. Devidsona görə, dil və təfəkkür, real dünyanın özü müəyyən subyektlərarası struktura -vahid konseptual sxemə daxil olunub. Reallıq yalnız obyektiv deyil, həmçinin dil və interpretasiyanın köməyi ilə formalaşdığından subyektivdir. Devidson hesab edir ki, idrakın əsasını bizim digərləri ilə həyata keçirdiyimiz kommunikasıya fəaliyyəti təşkil edir və burada da təbii ki, hər bir hadisə, hər bir situasiya nəzərdə tutulan interpretrasiya fəaliyyətini gerçəkləşdirir. Yəni onun üçün reallıq "dil və interpretsiyanın" "qarışığıdır" və reallığın dərk edilməsi digər insanlarla qarşılıqlı əlaqə və fəaliyyətdə mümkün ola bilir[38]. Təsadüfi deyil ki, Devidsonun nəzəriyyəsi "radikal interpretasiya" adlandırıldı. çünki onun bu nəzəriyyəsində dil, kommunikasiya, həqiqət, əqidə, razılıq məntiqi-metodoloji və ya etik prinsip, eləcə də sosioloji və linqvistik mahiyyət daşımırlar, onlar yalnız interpretasiya edən subyektin varlığının komponenləri kimi çıxış edirlər.

[38] Вах: Дэвидсон Д. Истина и интерпретация. М., 2003.

İnterpretasiyanın tədqiqində və təsnif edilməsində müəyyən ənənə mövcuddur. Bu barədə hermenevtikanın tarixinə dair əsərində Q.Q.Şpet qeyd edir ki, humanitar elmlərin bütün sahələrində hermenevtikaya aid təqdim olunan ayrı-ayrı tədqiqatlardan anlamanın ümumi nəzəriyyəsinə keçid onun müxtəlif növlərinə marağı artırdı[39]. İnterpretasiyanın qrammatik, psixoloji və tarixi növləri seçilir. Qrammatik interpretasiya dilin hər bir elementinə, yəni sözə, onun müəyyən zaman çərçivəsində istifadəsinə müvafiq olaraq qrammatik və sintaktik formalarına tətbiq edildi. Psixoloji interpretasiya təsəvvürün, niyyətin, məqsədin, məlumat verənin mətnin məzmunundan aldığı hisslərini, tarixi interpretasiya isə mətnin real münasubətlərə və şəraitə müvafiq çəkildə izahını nəzərdə tutur. Təbii ki, belə yanaşma hermenevtikanın fəlsəfi kontekstini ehtiva edir, yəni burada məsələ interpretasiyanın yalnız mətnlə işi ilə bitmir. Başqa sözlə, onun əhatə dairəsi genişlənir və bütövlükdə insan varlığının fundamental sahələrini nəzərdə tutur.

[39] Шпет Г.Г. Герменевтика и ее проблемы // Мысль и слово. Избр.труды. М. 2005. // http://www.losev-library.ru/materials/russian-philosophy?id=56



## 2.3. Dil və siyasət: siyasi diskurs anlayışı

Fəlsəfə tarixində "linqvistik dönüş" kimi adlandırılan hadisə XX əsr Avropa elmi və mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb etmişdir. Buna isə kartezianlıqda ( kartezianlıq Dekartın latın dilində adının ifadə formasıdır. Fəlsəfə tarixində ideyaları Dekarta aid olan fəlsəfi istiqamətdir. Kartezianlıq üçün ondan əvvəl gələn sxolastik fəlsəfi ənənənin tənqidi xarakterik xüsusiyyət daşıyır. Bundan əlavə, kartezianlığa dualizm xasdır. Bu istiqamətə görə dünya dəqiq şəkildə iki müstəqil və bir-birindən asılı olmayan substansiyalara-müəyyən ölçüsü olana (lat. *res extensa*) və düşünənə (lat. *res cogitans*) ayrılır. Şüurun özgerçəkliyi və anadangəlmə ideyalar nəzəriyəsi kartezianlığın qnoseologiyasının əsas prinsiplərini əhatə edir.) idraki proseslərin müəyyənləşdirilməsində yaranan böhrana reaksiya səbəb olmuşdur. Yeni şəraitə müvaviq olaraq idrak və kommunikasiya problemlərinin həllində alternativ yanaşmalar axtarılmağa başlandı və beləliklə, linqvistika mühüm elmi status aldı. Təsadüfi deyil ki, keçən əsrin ortalarında Lütfi Zadə mexanistik sistemlərdən fərqlənən "humanistik sistem"lər anlayışını irəli sürdü. O, hesab edirdi ki, adi keyfiyyət metodları vasitəsilə "humanistik sistemlər"in təhlilində müvafiq nəticələrin əldə edilməsi çətinliklərlə rastlaşır, çünki bu sistemlər daha mürəkkəb və daha qeyri-müəyyən xüsusiyyət daşıyır, çünki insan təfəkkürü, onun dünyaya münasibəti ilə bağlıdır. Bu kontekstdə L.Zadə dəqiqliyi ifadə edən rəqəmin linqvistik dəyişənlərlə, yəni sözlərlə, cümlələrlə əvəz edilməsini müvafiq saymışdır.

Linqvistik dönüşün ilk dalğası 1920-ci illərə təsadüf edir. Bu dövrdə məntiqin qanunlarına əsaslanılaraq dili müxtəlif kontekstlərdən təhlil etməyə cəhdlər göstərilirdi. İkinci dalğa

isə 1940-1950-ci illəri əhatə edir. Burada artıq dilin mükəmməlləşdirilməsinə dair layihələrin hazırlanması deyil, onun funksiyası zamanı situasiyadan asılı olaraq istifadə edilən müxtəlif səpkili fəaliyyət növlərinin təhlili və təsviri ön plana keçdi. Strukturalizmdə, hermenevtikada, linqvistik fəlsəfədə, əsasən, ayrı-ayrı kontekst və şərtlərdə ifadələrin subyektdən asılı olmayan əlaqələrinə diqqət yetirildi. Vahid, mükəmməl dil ideyası müxtəlifliklə, çoxmənalılıqla, dilin əsaslarının tarixiliyi ilə, onun sosial və siyasi funksiyalarının təsviri fikirləri ilə əvəz olundu.

XX əsrin 90-cı illərində sosiohumanitar elmin inkişafı ilə əlaqədar olaraq müxtəlif sahələrin nümayəndələri problemləri bir-birindən təcrid olunmuş deyil, məhz əlaqəli şəkildə öyrəmnəyə başladılar. Bu sırada politologiya və linqvistika da istisna deyildi. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, bu hadisə fəlsəfədə yer alan "linqvistik dönüş"ə analoji olaraq siyasi elmdə də "linqvistik dönüş" kimi qiymətləndirildi. Kontekstdən çıxış edərək siyasətə kommunikativ aktlar sxemi kimi baxılmağa və siyasi tədqiqatlarda bir neçə mühüm sahələr tədqiq olunmağa başlandı. Tədqiqatlar, əsasən, siyasi dilin simvolikası, verbal davranışın empirik təhlili, siyasətin diskurs-analizi və s. mövzuları əhatə edirdi.

Müasir cəmiyyətin öyrənilməsinə istiqamətlənmiş sahələr sırasında dil və siyasət problemi mühüm yer tutur, çünki hazırda cəmiyyətdə siyasi sahədə dilin aktiv rolu ölçüyəgəlməz dərəcədə artıb. Bu baxımdan siyasi diskursun öyrənilməsinə yaranan maraq yeni bir istiqamətin-siyasi linqvistikanın (*political linguistics*) yaranmasına səbəb olub. Siyasi diskurs ünsiyyətin xüsusi növüdür. Burada əlahiddəlik ondan ibarətdir ki, bu ünsiyyət növü insanların şüurunu manipulyasiya etmək imkanına malikdir. Belə şəraitdə, siyasi kommunikasiya mexanizmlərinin müəyyən edilməsində təsir vasitəsi kimi,



dilin xüsusiyyətlərinin dərindən öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Belə bir fikir mövcuddur ki, "siyasət və linqvistika" probleminə aid təhlillərin əsasını H.Lassuell, P.Korkorana, Y.Bulmmert qoymuşlar. Çarlz Morrisin fikirlərinə istinad edərək H.Lassuell iki anlayışı bir-birindən ayırır: "siyasi semantika" və "siyasi sintaktika". Alimin apardığı tədqiqatlarda siyasi semantika əsas anlayışları, şüarları və doktrinaları, siyasi sintaktika isə məntiqi və qrammatik əlaqələri öyrənir.[40]

Qeyd etmək lazımdır ki, siyasi linqvistikanın predmetinin izahına dair fikirlər o qədər də çox deyil. Siyasi linqvistika və siyasi diskursun eyni məna ifadə etdiyi haqda fikirlər mövcuddur. Məsələn, A.N.Baranov siyasi kommunikasiya kontekstində dil fəaliyyətini təhlil edərkən belə qənaətə gəlib: "Siyasi dilin öyrənilməsi ən azı üç zərurətdən yaranıb: birincisi, linqvistik nəzəriyyələrin tələblərinə müvafiq olaraq tarixin müxtəlif dövrlərində linqvistikanın dil sisteminin real sferalarının funksiyasına müraciət etməsi; ikincisi, siyasi təfəkkürün politoloji problemlərinin, onun siyasi davranışla əlaqələrinin öyrənilməsi, politologiyada öncədən görməni təmin edə bilən modellərin qurulması, üçüncüsü isə, siyasi və kütləvi informasiya vasitələrinin mətnlərinin analizinə dair metodların hazırlanması zərurəti ilə bağlıdır. Həmçinin bu zərurət, sosial sifariş olaraq, siyasi kommunikasiyanı siyasətbazların manipulyasiyası cəhdlərindən azad etmək tələbatından doğub".[41] Siyasi linqvistikanın predmetinə gəlincə isə,

---

[40]Laswell H.D., Leites N. Language of politics: Studies in quantitative semantics.-N.Y.: Sewart, 1949.//https://babel.hathitrust.org/cgi/pt?id=mdp.39015002398272&view=1up&seq=10

[41]Баранов А.Н. Введение в прикладную лингвистику / МГУ им. М.В.Ломоносова. Философский факультет.-М.: Эдиториал УРСС, 2001, с. 245-246 / http://padabum.com/d.php?id=38073

burada iki prinsipial mövqe mövcuddur. Birinci yanaşma bu tədqiqat istiqamətinin məzmununun sərhədlərini müəyyənləşdirir, yəni siyasi linqvistikanı tətbiqi linqvistikanın bir sahəsi kimi nəzərdən keçirir. İkinci, daha geniş yanaşma isə bu sahəni fənlərarası, kompleks tədqiqat sahəsi kimi qiymətləndirir. Bu kontekstdə siyasi linqvistika yalnız dil və siyasətin qarşılıqlı əlaqələrinin təhlilini nəzərdə tutmur. Bu istiqamət siyasət-dil münasibətlərinin bütün təzahürlərinin təhlilini özündə ehtiva edir.[42]

Dil siyasəti konkret bir dilə, dil qrupuna, kommunikativ situasiyaya dair dövlətin fəaliyyət növüdür. Bu və ya digər dövlətdə dil siyasətinin əsas istiqamətlərini belə ümumiləşdirmək olar: 1. Rəsmi dövlət dili və onun vəziyyətinin müəyyənləşdirilməsi. 2. Digər dillərin dövlət dilinə münasibətdə vəziyyətlərinin müəyyənləşdirilməsi. Dövlət və yerli dillərin funksiyasının fəaliyyət sferalarının və tiplərinin müəyyənləşdirilməsi. 3. Rəsmi dil normalarının təkmilləşdirilməsi və s. Beləliklə, dili siyasətdən ayırmaq mümkün deyil, həmçinin dövlət siyasəti, eləcə də dövlətin özü əhalini vahit millətdə birləşdirən, təfəkkürü, mədəni genofondu formalaşdıran dildən çox asılıdırlar.

Qeyd etmək istərdik ki, "linqvistik dönüş" humanitar və ictimai elmlərin metodologiyasında yaranan böhranla əlaqədar olub. Böhranı doğuran səbəb isə ilk növbədə onunla şərtlənirdi ki, artıq yaranan situasiyaların mahiyyətinin aydınlaşdırılmasında metadilin universal, ümumi təsvir modeli müvafiq nəticənin əldə edilməsinə imkan yarada bilmirdi. Bu baxımdan "linqvistik dönüş" siyasi elmdə məhz bu elmə məxsus metadilin dərk edilməsi zərurətini ortaya qoymuşdu.

[42] www.rusnauka.com/20_DNII_2012/Philologia/3_114258.doc.htm



Dil işarələr sistemidir. Onun vasitəsilə insan dünyanı dərk edir, şəxsiyyətin özünüdərki obyektivləşir. Təbii ki, dilin kateqorial strukturunun formalaşması və inkişafı təfəkkürün kateqorial strukturunun formalaşmasını və inkişafını əks etdirir. Siyasi obyektləri işarəvi sistemlər kimi nəzərdən keçirmək olar. Siyasi gerçəkliklər dil vasitəsilə reallaşır. Yəni sözlər yalnız siyasəti təsvir etmir, onlar özləri təsvir olunan siyasətin bir hissəsidir. Dilin siyasi aspektləri çox mürəkkəb məsələləri ön plana çəkir. Bu gün siyasi elm minimal özünürefleksiya və çoxlu sayda yanlış dilemmalarla xarakterizə olunur. Belə vəziyyət anlayışlarda qeyri-müəyyənlik, metodoloji konteksdə ziddiyyətlər yaradır. Qeyd edilən problemlərin həllini reallaşdırmaq üçün elmi ədəbiyyatda siyasi elmin metadili konsepsiyası irəli sürülür. Hesab olunur ki, metadil konsepsiyasının köməyi ilə siyasi refleksiyanın metodoloji strukturu müəyyənləşə bilər[43]. Yəni siyasi metadil, metodoloji olaraq, süni şəkildə müəyyənləşdirilmiş dil strukturudur və bu dilin köməyi ilə digər bir dil haqqında, yəni siyasi nəzəriyyənin dili haqqında fikir yürütmək mümkün olur[44].

Siyasi idrakın diskursiv strukturunu təşkil edən siyasi elmin metadilə müraciət etməsi fərdin özünüdərki ilə həyata keçir. Bu məqam onu, yəni siyasi dili, uydurmadan, qeyri-reallıqdan kənarlaşdırır. "Metadil" termininin əhəmiyyəti böyükdür, çünki dilin təhlili elə onun özünün vasitəsilə həyata keçirilir. "Siyasi dil" – "metadil" deməkdir. Sözsüz ki, linqvistika sahəsində deyil, siyasət sahəsində. Bu "metadilin" vasitəsilə siyasət təsvir edir, izah edir və müəyyən mənada, insanlara özünü qəbul etdirir. Müasir siyasi elmdə metadilin metodoloji

[43] http://lit.lib.ru/m/martxjanow_w_s/metalanguageofpoliticalscience.shtml
[44] https://books.google.az/books?id=vLAlvbRkr90C&pg=PA23&lpg=PA23&dq=

əsaslarına dair dünya siyasi elmində saysız-hesabsız nəzəriyyələrin, yanaşmaların, konsepsiyaların irəli sürülməsi sayəsində bu sahəyə aid nəzəri kontekstdə bir aydınlıq müşahidə olunmağa başlayıb. Lakin dəyişikliklər dövründə məsələlərin mürəkkəbliyi daha çox artır. Bu zaman paradiqmaların, siyasətin normativ struktur-nəzəri modellərinin əvəzlənməsi baş verir. Bu dəyişikliklər siyasi elmin təməlində mövcud olan metodiki dilemmaları aydın şəkildə aşkara çıxarır. Siyasi elmdə metadil problemi daha çox ön plana o zaman keçir ki, elmi ictimaiyyət yeni siyasi kontekstlərin təsvirində qəbul edilmiş elmi dilin yetərsizliyini müəyyən edir. Metadil konsepsiyasının köməyi ilə siyasi refleksiyanın metodoloji strukturunun aydınlaşdırılmasına şərait yaranır. Burada bir məqam da qeyd edilməlidir ki, metadil birbaşa siyasətə yönəlməyib, onun əsas funksiyası siyasi reallığın təqdim və təhlil edilməsidir.

Cəmiyyətin siyasi vəziyyətinin tarixi təkamülü bir sıra mərhələlərdən keçmişdir. Bu mərhələlərin hər birində dövrə müvafiq, siyasi şəraitə uyğun müəyyən immanent durum hökmranlıq edib. Yəni cəmiyyətlərdə ideya və simvolların strukturlarında fərqli ideya mənbələri yaranır və bu təməlin əsasında hakimiyyətdə münasibətlərin qurulması üçün başlanğıclar, prinsiplər, dəyər və məqsədlər məkanı formalaşır. Elmi ədəbiyyatda siyasi, hakimiyyət, cəmiyyət və insan haqqında fundamental fərqlərin mövcud olduğu tarixi metaparadiqmaları müəyyənləşdirmək haqqında, əsasən, belə fikirlər mövcuddur:

- Siyasət mifoloji kontekstdə. Burada sakral və dünyəvinin bir an içində bir-birinə keçməsi, mifologiyada personajın zahiri görünüşünün magik dəyişməsi, cismanilik, alogizm (məntiqsizlik), dilin və dünyanın, obyektin və subyektin fərqləndirilməməsi və s. kimi mifik strukturlar hökm sürürdü.



- Siyasət dini kontekstdə. Siyasi varlıq təcrübəsinin ilahiliyi. Gerçəklik vəhy kimi mifik forma daşıyır. Xolizm-hakimiyyətin öz fəaliyyətinə haqq qazandırmasında əxlaqi dəyərlərin Allahla əlaqələndirilməsi. Siyasi etikanın əsas anlayışlarının vəzifə, namus, vicdan, şərəf kimi ifadələri əhatə etməsi. Sakral və dünyəvi olanın dəqiq şəkildə bir-birindən fərqləndirilməsi. Cəmiyyətin sosial-siyasi quruluşunun sakral, ali dəyərlər nizamına əsaslanması.

- Siyasət–ideologiya kimi. Antroposentrizm. Siyasi varlığın təcrübəsinin rasionallığı. Siyasətin subyektinin abstrakt, universal düşüncəyə malik olması. İctimai müqavilə, vətəndaş cəmiyyəti, sosial-siyasi formasiyaların təkamülü və s.

- Siyasət–narrativlik kimi. Siyasi varlığın xəyaliliyi (virtuallığı), ideologiyanın dekonstruksiyası, "kütlənin implozi-yası" (imploziya-eyni televiziyadan istifadə edən, eyni filmlərə baxan, eyni radio verilişlərinə, eyni musiqiyə qulaq asan insanların tez bir zaman içərisində birləşməsi).[45] Burada söhbət hakimiyyətin legitimləşməsinin klassik, rasional modellərinin iflasından gedir. Postmodern şəraitdə klassik elmi prosedurların verifikasiyasına, yəni obyektivlik, rasional izah, təkrar əksolunma imkanlarına və s. ehtiyac duyulmadan subyektiv siyasi təcrübə dəyər qazanır.[46]

Sadalanan bu tarixi metaparadiqmaların hər birində xüsusi siyasi həqiqət kodu və onun daxili siyasi məkanına müvafiq simvollar, ideyalar, təsəvvürlər sistemi mövcuddur. Qeyd olunanlar belə qənaət yaradır ki, onların fərqli cəhətləri oxşar cəhətlərindən daha çoxdur. Bu səbəbdən də siyasət çoxşaxəli və çoxqatlıdır. Siyasətin müasir dövrdə ifadəsi üçün isə artıq metadillərin "monoloqu" deyil, "poliloqu" tələb olunur.

---

[45] http://lit.lib.ru/m/martxjanow_w_s/metalanguageofpoliticalscience.shtml
[46] Yenə orada.

Universal, rasional-məntiqi metadilin yaradılmasına XX əsrin əvvəllərində məntiqi pozitivizmzin nümayəndələri B.Rassel, L.Vitgenşteyn, M.Şlik, R.Karnap və b. təşəbbüs göstərmişlər. Öz mülahizələrində onlar hesab edirdilər ki, mövcud bir reallıq vardır və problem bu reallığın təsvirində meydana çıxır, nəticədə, reallığın dildə təsviri zamanı yaranan dolaşıqlıq təfəkkürdə də ziddiyyətlər yaradır. Onların fikrincə, reallığın təsvirində sözlərin, ifadələrin ziddiyyət təşkil etməyən məntiqini formalizə etmək, cümlələri adi "atomar mülahizələr" və məntiqi əlaqələr səviyyəsində təqdim etmək lazımdır. Bu qənaətdən çıxış edilərək, siyasi elmin klassik, rasional dili süni dil kimi dəyərləndirildi və təbii ki, artıq o, təbii, nümunəvi dil statusuna iddialı ola bilməzdi. Rasional dilin özünün imtiyazlı vəziyyətini itirməsi bir tərəfdən elmin böhranı, digər tərəfdən isə epistemin (epistemlər-bu və ya digər cəmiyyətin konkret tarixi dövrdə inkişafında şüur və mədəniyyətinin yaranması imkanlarını müəyyənləşdirən tarixən dəyişən strukturlar və ya "tarixi apriorilər") biliyin bütün sahə və formalrına inteqrasiyası ilə səciyyələnir. Yəni artıq burada dilin insan fəaliyyətinin bütün sahələrini əhatə etməsi nəzərdə tutulur. Digər bir tərəfdən isə insanın simvolik aktivliyi artdıqca, sanki fiziki reallıqdan uzaqlaşması da səbəb kimi göstərilə bilər. Yəni insan linqvistik formalara, mifik simvollara, dini rituallara o qədər daxil olur ki, bu vasitəçi (dil) olmadan bir şey bilə bilmir.

Haydeggerin məşhur "dil varlığın evidir" ifadəsinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, ilkin yaranış dildə ifadə olunur. Yaranış isə həmişə simvolikdir. Yəni məhz simvolik dil gerçəkliyin dilidir, çünki yalnız o, artıq mövcud olanı yeni yaranandan ayıra bilir və təbii ki, bunun nəticəsində də *onun* öz adını, yəni *onun* gerçəkdə nə olduğunu müəyyən edir. Bundan çıxış edərək deyə bilərik ki, məhz simvolik dil siyasətdə



mövcud olanın mahiyyətini aça bilir. Mövcud situasiya siyasətin metadilinin transformasiyası və onun yenidən dərkinə yaranan zərurətdən doğur. Qeyd etmək lazımdır ki, paradiqmaların və metadilin prinsiplərinin dəyişilməsi həm humanitar, həm də təbiət elmlərində paralel olaraq baş verdi. Burada V.Heyzenbergin fikri yerinə düşür: "Nyutonun eksperimentlərə və Aristotelin məntiqinə əsaslanan klassik fizikasının dili dalana dirəndi"[47]. Klassik Nyuton fizikasının dilinə aid kateqoriya, anlayış, təsəvvürlərlə təsvir həyata keçirilə bilinmədiyindən, hadisələri izah etmək üçün müasir fizikaya metaforik, simvolik dilin ifadə imkanlarına müraciət etmək lazım gəldi.

Belə şəraitdə siyasətin dili simvolik mahiyyət aldı və məlum oldu ki, bu statusda o, daha çox söz deyə bilir. Burada bir haşiyə çıxmaq istərdik ki, ifadə etdikləri məna baxımından bir çox hallarda eyniləşdirilən işarə və simvollar fərqli cəhətlərə də malikdirlər. Bunların fərqləndirilməsinin vacibliyi onunla şərtlənir ki, hər iki anlayış ünsiyyət prosesində mühüm rola malikdir. Fərq isə ondan ibarətdir ki, işarə birbaşa ifadə etdiyi obyektə yönəldiyi halda, simvol bilavasitə predmetə yönəlməyib, o, daha çox mücərrəd fikirləri, yəni şoxmənalı obrazları, anlayışları, ideya və hadisələri ifadə edir. Başqa sözlə, simvol çox mənalar daşıyan işarədir. İşarə və simvollar siyasi diskursda komplementar münasibətdədirlər, yəni bir-birinin konstruktiv, metodoloji çatışmazlıqlarını tamamlayırlar. İşarənin və simvolun xüsusiyyətlərinin müfəssəl təhlili ona görə aktualdır ki, məhz bu kontekstə əsaslanılaraq metodil modellərinin prinsiplərinin müəyyənləşdirilməsi reallaşa bilir və təbii ki, dilin əsasında siyasi metadilin metodoloji modelinin də struk-

---

[47] Гейзенберг В. Язык и реальность в современной физике // Шаги за горизонт. М.: Прогресс, 1987, с.208-226

turlaşdırılması mümkün ola bilir. Simvollar, yəni siyasi simvolika, təbii ki, siyasətdə hər zaman mövcud olub. Simvolik nəzəriyyələr və metadil modelləri siyasi psixologiyada, kütlə və lider psixologiyasında, dilin nəzəriyyəsində, siyasi fəlsəfədə, siyasi hermenevtika və s. sahələrdə meydana gəldi. Lakin simvolik metadillərin siyasi sahəyə tətbiqinin effektivliyi və relevantlığı təsdiq edildikdən sonra simvolikliyin və siyasinin kogerentliyi (qarşılıqlı əlaqəsi) öz-özlüyündə yarandı.

XX əsrə qədər simvoliklik elmi təfəkkür üsulundan kənarlaşma ilə assosiasiya olunurdu. Universal normanın tənqidi sayəsində poststrukturalizmin, psixoanalizin, hermenevtikanın formalaşması işarəyə münasibəti dəyişdi və elmin simvollara marağı artmağa başladı. Bunun ciddi səbəbi onunla izah olunur ki, simvollar vasitəsilə həyat haqqında daha dolğun və məzmunlu bilik əldə edilir. Bu kontekstdə simvolik metadillə təsvir edilən siyasət yenidən özünün "itirilmiş" transsendent ölçülərini aşkara çıxarır. Bu mövqe ilə bağlı E.Fromm gerçəkliyi əhatə edən fikirlər irəli sürür. O, hesab edir ki, simvolların dili universal dilə iddialı yeganə dil ola bilər.[48] Fromm üç növ simvol ayırır: şərti simvollar, təsadüfi simvollar və universal simvollar.[49] Universal simvolları Yunq arxetipik, bəşəriyyətin tarixində kök salmış, nəsillərin təcrübəsi sayəsində cilalanmış simvollar adlandırır.[50] Universal simvolların önəmliliyi bir də onunla səciyyələnir ki, məhz onların təbiətində təfəkkürün

[48] Фромм Э. Забытый язык // Душа человека. М.: Республика, 1992, с. 180// https://imwerden.de/pdf/fromm_dusha_cheloveka_1992.pdf
[49] Yenə orada, s. 185-187.
[50] Юнг К. Г. Подход к бессознательному // Архетип и символ. М., 1991// http://www.pseudology.org/Psyhology/Jung/Arhetip_and_simbol.pdf



fundamental qanunauyğunluqları əks olunur. Universal simvolların sayəsində bütün bəşəriyyət üçün anlaşıqlı şəkildə insanın daxili aləmi, ruhunun hərəkəti məlum olur.

*****

Liberalizmin əsasını fərdiyyətçilik fəlsəfəsi təşkil edir. Onun üstünlyü də bundadır və digər ideologiyalarla məhz bu kontekstdə mübarizə aparır. Liberalizm onunla rəqabətdə olan ideologiyalar üzərində qələbə çalıdı və bəlkə də, elə bu səbəbdən, liberal fikir öz inkişafında kritik nöqtəyə çatdı. Bir tərəfdən onun sintaqması ilə (semantik-qrammatik-fonetik prinsipə əsasən birləşmiş bir neçə söz, sintaqmatik vahid) paradiqmasının (elm və fəlsəfədə paradiqma mühakimələrin ardıcıl ifadəsini gerçəkləşdirən müəyyən konsepsiyaların məcmusunu, təfəkkür şablonlarını, tədqiqat nəzəriyyələri və metodlarını, həmçinin postulat və standartları nəzərdə tutur) birləşməsi baş verdi, çünki digər ideologiyaların tənqidinə ehtiyac olmadığından, burada nə isə deməyə də lüzum qalmadı. Digər tərəfdən isə liberal paradiqma ya əksər hallarda süni surətdə yaradılan alternativ mifologemlər timsalında yeni opponentlər, məsələn, "beynəlxalq terrorizm", "islam fundamentalizmi" və s. axtardı, ya da öz sərhədləri çərçivəsində (Avropa liberalizmi, Amerika liberalizmi, Asiya liberalizmi və s.) daxilən xırdanlanmağa başladı.[51]

XX əsrdə liberalizm özünün ən yüksək inkişaf səviyyəsini əldə etmişdi. Totalitar rejimlərdən fərqli olaraq liberallar fərdi azadlıq ideyasını əsas meyar olaraq nəzərdə tuturdular. Lakin diktatura, totalitarizm aradan qalxdıqca liberal rejim və normalar universal xarakter aldı. Yəni siyasi sahədə liberalların əsas hədəfi azadlıq olduğundan bu situasiya vəziyyəti kökündən dəyişdi. Bu gün yer üzündəki əhalinin böyük bir hissəsi liberal demokratiya, azad bazar, insan hüquqlarının tanınması,

[51] http://arctogaia.com/ftp/fp/016.pdf

parlament idarəçilik modeli, Konstitusiyaya müvafiq olaraq vəzifə bölgüsü və s. şərtlərə müvafiq şəkildə yaşayır.[52] Təbii ki, yeni şərait yeni tələblər yaradır və bu tələblərə uyğun həll yollarının müəyyənləşdirilməsini zəruriləşdirir. Yəni artıq liberallar mövcud şəraitdə suallara adekvat cavab verə biləcək siyasi dilin formalaşdırılmasına cəhd göstərməlidirlər. Başqa sözlə, liberal diskurs özünün siyasi və ideoloji təqdimatında, bir qayda olaraq, diqqətini konkret məsələlərə yönəldir və təbii ki, bu tarixi məqsəd hər bir dövrə müvafiq siyasi dilin təqdimatını zəruri edir.

Bu gün artıq liberalizmin iflasa uğraması, qlobal liberal sivilizasiya proyektinin uğursuzluğu barədə çoxları danışır. Bu şərait, ilk növbədə, Amerikanın bütün dünya üzərində hegemonluq iddiasının baş tutmaması, İslam dünyasında baş verən proseslərin nəzarətdən çıxması, yeni maliyyə böhranı dalğalarının yüksəlməsi ehtimalı, Avroittifaqın dağılma tendensiyaları və s. ilə əlaqələndirilir.[53]

Baş verən proseslər onu deməyə qənaət yaradır ki, ictimai-siyasi və sosial-iqtisadi proseslərin tənzimlənməsində siyasi dilin əhəmiyyəti olduqca böyükdür, çünki siyasi dilin əsas funksiyalarından biri paradiqmanı dəyişmək istiqamətinə yönəlib. Yəni hakimiyyət strukturlarında dəyişikliklərin baş verməsinə müvafiq olaraq dilin funksiyasında da dəyişikliklər yaranır və təbii ki, əks proses də müşahidə olunur. Bunun bariz nümunəsi kimi, sosialist inqilabından sonra yaranan sovet hakimiyyətini göstərmək olar. Bu hakimiyyətin əsas məqsədi "yeni insan", kommunist şəxsiyyət tipinin formalaşdırılmasından ibarət idi və müvafiq ideologiyanı insanların təfəkkürünə yeritmək üçün uyğun nitq üslubu müəyyələşdirildi. Yeni üslub rəsmi, yəni konformist diskursun sərhədlərini sərt şəkildə müəyyən etdi və təbii ki, bu halda

[52] http://evrazia.org/article/2100
[53] Yenə orada.



artıq alternativ paradiqmalara yer qalmadı. Onu da nəzərə almaq lazımdır ki, o dövrdə əhalinin müəyyən hissəsi savadsız idi və yazılı dil onlar üçün əlçatmaz idi. Partiya və kütlə arasında qarşılıqlı əlaqələrdə ictimai çıxışlar dominantlıq təşkil edirdi.[54]

Qeyd olunan siyasi dilin əsas struktur elementləri bunlardan ibarət olub: sosializmin tərəqqisinə etibar etmək, kommunizmin kapitalizmdən daha müasir forma olduğuna inam, kommunizmin tərəqqisinə və qələbə çalmasına əminlik; xalqla dövlətin, demək olar ki, eyniləşdirildiyi sosialist ideologiyası, marksist doqmatizmi, "xalq demokratiyası"; partokratik quruluş, cəmiyyətin total ideolojiləşdirilməsi, antiliberalizm, kollektivizm, antibazar, antifərdiyyətçilik, planlaşdırma siyasəti; geosiyasi internasionalizm, bütün qeyri-liberal dünya, o cümlədən Üçüncü dünya, Asiya ölkələri, inkişafda olan ölkələr mövqeyindən çıxış etmək; partiyanı, bütövlükdə, ideoloji cəhətdən dövlət elitasını ifadə edən birpartiyalı sistem; dünyada sosializmin qələbəsi naminə sosialist cəbhəsində səyləri fəallaşdırmağa istiqamətlənmə və üçüncü ölkələrdə atlantizmə (Əfqanıstan, Latın Amerikası, Anqola və s.) qarşı durmaq; sovet təsərrüfat və siyasi sisteminin ən uğurlu sistem olmasına əminlik.[55]

Konformist dil üslubunun mövcud olması demokratik quruluşa malik bir çox ölkələrdə inkar edilsə də, onun müxtəlif səpkili təzahürləri hətta güclü demokratik ənənələrə malik ABŞ-da da müşahidə olunur. Belə ki, ABŞ-da fikir müxtəlifliyinə münasibətdə tolerantlıq nəzərdə tutulur, lakin müəyyən konformist zona mövcuddur və bu kontekstə daxil olmayan fikir, mülahizə təcridə məruz qalır, sıxışdırılır. Nonkonformist siyasi dil, hər yerdə olduğu kimi, Amerikada da təqib edilir, lakin digər siyasi sistemlərdən fərqli olaraq, liberal dəyərlərə

[54] http://superinf.ru/view_helpstud.php?id=4662
[55] arctogaia.com/ftp/fp/016.pdf

istinad edən Amerika cəmiyyətində bu məqam o qədər də qabarıq şəkildə baş vermir. Qanun gücünə malik ümumi qərar mənbə kimi deyil, daha çox iki fikir, iki münasibət arasında seçim kimi nəzərdə tutulur ki, burada da hər kəs seçim etməkdə sərbəstdir. Lakin hər iki fikir ümumi dil matrisasından irəli gəldiyindən burada seçim konformizm və nonkonformizm arasında deyil, konformizmin müxtəlif versiyaları arasında edilir. Qeyd etmək lazımdır ki, müasir dövrün ən nüfuzlu linqvistlərindən sayılan Noam Homski (Çomski) ABŞ-ın siyasi sisteminə qarşı ən tənqidi mövqeyə malikdir və bu münasibət dil sahəsində də fundamental nonkonformist mövqedə ifadə olunur. Homskinin nöqteyi-nəzərincə, Amerikanın siyasi sitemi kütləvi şüurun manipulyasiyasına istiqamətlənib.[56]

Homski "soft ideology" (yumşaq ideologiya) mövqeyini qəbul etmir və hesab edir ki, bu, "gizli totalitarizm" və "demokratiyanın saxtalaşdırılmasıdır". Homski göstərir ki, söhbət ABŞ-ın "siyasi dili"nin təməl elementlərindən gedən zaman ortaya klassik cəza metodları gəlir, lakin daha kəskin, daha riyakar formada. Homskini, bütövlükdə, narahat edən bu fakt deyil. Onu qane etməyən cəhət Amerikada "hər bir fikrə, rəyə açıq olmaq", "tam tolerantlıq"la ziddiyyət təşkil edən məqamlardır. Yəni bu dəyərləri ilə öz üstünlüyünü bütün dünyaya bəyan edən Amerika heç də açıq şəkildə totalitar siyasi sistemlərin mövcud olduğu ölkələrdən fərqlənmir.[57]

Sovetlər sisteminin son dövrlərində sovet ideologiyasının təbliğində problemlər yarandı, yəni adət olunmuş ideoloji nitq artıq öz funksiyasını yerinə yetirə bilmirdi. Təbii ki, bunun ciddi səbəbləri var idi. Belə ki, sərt konformist siyasi dil yeni paradiqmaların yaranmasına imkan vermədiyindən mövcud siyasi

[56] arctogaia.com/ftp/fp/016.pdf
[57] Yenə orada, s. 403



şəraitə müvafiq ola biləcək siyasi dilin formalaşdırılması reallaşa bilmədi və bu situasiya sonrakı dövrlərdə baş verən hadisələrə ciddi təsir göstərdi.

Nəticədə, belə bir şərait yarandı: o dövrdə marksizm ortodoksları artıq təməl ideoloji prinsipərin reallıqlara adekvat şəkildə tətbiq edilməsi qabiliyyətini çoxdan itirmişdilər və onların zamanın tələblərinə uyğunlaşdırılması təşəbbüsləri lazımi nəticə verə bilmədi. Problemin kökü isə ondan qaynaqlanırdı ki, hər bir halda artıq sintaqmaların yığımından deyil, müvafiq dil paradiqmalarından istifadə etmək zərurəti yaranmışdı. Bunları isə həyata keçirmək mümkün deyildi. Bu səbəbdən də XX əsrin 80-90-cı illərində sovet sisteminin "siyasi dilində" reformaların aparılmasına cəhdlər baş tutmadı.[58]

Fikrimizi belə ümumiləşdirə bilərik ki, faktların, hadisələrin siyasi dildə təqdim edilməsi üsulları insanların ideoloji strukturdan uzaqlaşmasına səbəb oldu, çünki sovet ideologiyası fikir müxtəlifliyini deyil, hamı üçün məcburi olan, ümumi xarakter daşıyan, yəni standart fikirlərin təqdim edilməsində maraqlı idi. Bu rakursda belə bir mövqe formalaşır ki, sovet sisteminin dağılmasında qeyd edilən amilin də rolu böyük olmuşdur. Hiperkonformizm sovet ideologiyasında dəyişikliklərə səbəb oldu, çünki siyasətin bu yeni dili xalqa yad idi, xalq onu dərk edib anlaya bılmirdi. Ümumiyyətlə, ictimai həyatın hər hansı bir strukturunda baş verən və ya həyata keçirilən dəyişikliklər xalqın təfəkkürü, mental xüsusiyyətləri, inkişaf səviyyəsi, psixoloji durumu nəzərə alınmadan cəmiyyətdə reallaşması çətinliklərlə qarşılaşır. Bu mənada o dövrdə Azərbaycan üçün "siyasi dil" məsələsi özündə daha çox mürəkkəbliklər ehtiva edirdi. Əvvəla, ideologiyanın təbliği və həyata

[58] arctogaia.com/ftp/fp/016.pdf

keçirilməsində istifadə olunan material tərcümə vasitəsilə reallaşırdı. Qeyd edək ki, tərcümə, ümumiyyətlə, çox mürəkkəb prosesdir və bu vasitə ilə gerçəkliyi tamlıqda ifadə etmək qeyru-mümkündür, digər tərəfdən isə, ümumiyyətlə, rus və Azərbaycan dilləri geneoloji cəhətdən bir-birindən fərqlidirlər (rus dili flektiv, Azərbaycan dili isə aqqlütinativ dil strukturuna aiddir). Sözsüz ki, qeyd edilən fərqlilik xalqların təfəkkür tərzinə də təsirsiz ötüşməmişdir. Bu isə kifayət qədər ciddi məsələdir. Görünür, təfəkkür tərzlərində mövcud olan fərqliliklər, hər bir xalqın özünəməxsus xüsusiyyətlərinin nəzərə alınmaması sayəsində bu ərazidə yaşayanlara sovet ideologiyası həmişə yad və anlaşılmaz olub.

XX əsrin 90-cı illərində meydana gələn fundamental böhran dil boşluğuna səbəb oldu. Siyasətçilər dağılmış sovet matrisasını bərpa etmək və təbii ki, siyasi şəraitə müvafiq siyasi dil ifadə üslubu yaratmaq əvəzinə, alternativ model olaraq, amerikan siyasi dilinə üstünlük verdilər və bu dil, demək olar ki, bütün postsovet cəmiyyətləri üçün normativ dil üslubu kimi qəbul edilirdi. Lakin istər paradiqmal, istərsə də sintaqmatik kontekstdə bir-birinə tamamilə zidd olan bu iki siyasi dil üslubu, təbii olaraq, çox qarışıq situasiyanın yaranmasına səbəb oldu. Belə sual yarana bilər ki, situasiyadan çıxış yolu ola bilərdimi? Bəlkə də, milli-siyasi tarixdə varislik prinsipinə əməl edilməsini, eləcə də milli ideologiya, demokratiya, dövlətçilik, cəmiyyətin mədəni, milli, mənəvi əsaslarına söykənilərək konsolodasiyanın həyata keçirilməsini, Avrasiya, Avropa və Asiya ölkələri arasında geosiyasi balansı və s. məsələləri nəzərdə tutan və postsovet məkanında yaşayan xalqların siyasi tarixinin xüsusiyyətlərini nəzərə ala biləcək siyasi dilin formalaşdırılması situasiyadan çıxış yolu ola bilərdi. Lakin bu mövqeyin reallaşmasına nə müvafiq şərait, nə də zaman var idi.



# III FƏSİL. İNFORMASİYA CƏMİYYƏTİNDƏ ÜNSİYYƏT VƏ KOMMUNİKASİYA

## 3.1. Sivilizasiyanın müasir mərhələsində ünsiyyətin spesifik xüsusiyyətləri

Bu gün dünyada təqribən 6-7 min dilin olduğu iddia edilir. Təbii ki, bu dillərin hər biri özünəməxsusluğu ilə fərqlənir, lakin eyni zamanda onları ümumiləşdirən çox mühüm cəhətlər də mövcuddur. Bu baxımdan tipoloji və ya genetik nəzəriyyələrə əsaslanaraq dillərin fərqləndirilməsi bir çox hallarda suallar doğurur. Belə ki, alimlər dünya dillərində fundamental oxşarlıqların mövcud olduğunu qeyd edirlər. Bu, doğrudan da, belədir. Bütün dillər oxşar struktura malikdir. Bütün dillərdə universal xarakter daşıyan məqamlar mövcuddur. Yəni hər bir dildə sait və samit səslərin olması (birində az, birində çox), sintaktik strukturda mövcud olan oxşarlıqlar və s. qeyd oluna bilər. Bu baxımdan dillərin ümumi strukturunda bu qədər bənzərliyin mövcudluğu onların dünyanın müxtəlif yerlərində bir-birindən asılı olmayaraq yaranması fikrini şübhə altına salır. Bir çox tədqiqatçılar üçün isə bütün dillərin eyni mənşəyə malik olması fikri gerçək görünmür. Bununla belə, müasir elmi araşdırmaların nəticələri daha çox monogenez nəzəriyyəsinin üstünlüyünü təsdiq edir.

Qlottogenez elmi (qlottoqoniya, qlottogenez-təbii, səsli insan dilinin, eləcə də ayrı-ayrı etnosların dillərinin yaranmasının, formalaşmasının, təşəkkülünün tarixi prosesi) XIX əsrdə və XX əsrin əvvəllərinə qədər antropoloji və arxeoloji məlumatlara əsaslanan təhlilləri nəzərdə tuturdu. XX əsrin son onillikləri və XXI əsrin elmi nəticələri müasir insanın təkamülü məsələlərinə münasibəti dəyişdi. Təbii ki, alınan yeni elmi nəticələr qlottogenez məsələlərinə də münasibətdə dəyişikliklər yaratdı. Genetika sahəsində əldə edilən qənaətlərə görə.

bioloji növ olaraq müasir insan 140-200 min il əvvəl Afrika ərazisində meydana gəlmiş və aktiv şəkildə digər kontinentlərə köç etmişdir[59]. Alimlər belə təxmin edirlər ki, təqribən 71 min il əvvəl (bəzi məlumatlara görə, 74 min il) İndoneziya arxipelaqının Sumatra adasında Toba supervulkanı püskürmüşdür[60]. Bu püskürmədən sonra min il boyunca soyuqlar müşahidə olunmuşdur. "Vulkanik qışın" ardınca minillklər ərzində davam edən soyuqların və aclığın nəticəsində yer üzündə canlı aləm məhv olmuşdur. Belə hesab olunur ki, Ekvatorial Afrikanın şərqində flora və faunanın salamat qalmış hissəsində müvafiq temperaturun mövcud olduğu şəraitdə az bir qisim insan sağ qala bilmişdir. Təbii ki, bu yerlərin sakinlərinin müxtəlif dillərdə danışdıqları fikri gerçək görünmür. Bunlar eyni dilin müxtəlif dialektləri ola bilərdi. Belə olan təqdirdə daha çox monogenezdən söhbət gedə bilər. Deyilənlərə rəğmən, hələ də elmdə dillərin yaranmasında monogenez və poligenez nəzəriyyələrinin tərəfdarları arasında ümumi qənaət əldə edilməyib.

Dil işarələr sistemi olaraq, insan və cəmiyyət həyatında mühüm funksiyalar icra edir. Bu mənada onun ünsiyyət funksiyası əlahiddə mahiyyət daşıyır, çünki bu və ya digər şəkildə insan həyatı ünsiyyətlə bağlıdır. Ünsiyyət bəşər övladının həyatında bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edib və dünya durduqca bu, davam edəcək. Bununla belə, ünsiyyət haqqında saysız-hesabsız əsərlər yazılsa da, tədqiqatlar aparılsa da, bu fenomenin kiçicik bir probleminin tam həll

[59]Templeton A. Out of Africa again and again// http://www.bioguider.com/ebook/biology/pdf/Templeton_n2002.pdf)

[60] Zielinski G.A. Potential atmospheric impact of the Toba mega-eruption ~71 000 years ago / G.A. Zielinski, P.A. Mayewski, L.D. Meeker, S. Whitlow, M.S. Twickler // Geophysical research letters № 8. - 1996. - P. 837-840. // http://www.philology.ru/linguistics1/noranovich-10.htm



olunduğu haqqında fikir söyləmək çətindir, çünki mahiyyət etibarilə ünsiyyət elə bütövlükdə insanın varlığı, mövcudluğu deməkdir. *İnsanın öz daxili aləmi və ətrafı ilə ünsiyyət qurmaq bacarığı onun həyatının ən çətin sınağıdır* və bunu gerçəkləşdirmək üçün onda bir çox kefiyyətlər olmalıdır. Təbii ki, bu məsələ çox mürəkkəb və çoxşaxəlidir. Bir məqamı isə mütləq qeyd etmək lazımdır ki, ünsiyyətin, qarşılıqlı anlaşmanın reallaşmasında ən ümdə məqam özündən əvvəl qarşındakını görmək, onun fikirlərinə diqqət yetirmək və bundan sonra şəraitə, məqama, kontekstə uyğun fikir söyləmək mühüm əhəmiyyət daşıyır. Ancaq bu gün dünyada həyatın bütün sahələrində müşahidə olunan şərait ondan ibarətdir ki, əksər hallarda hər kəs yalnız öz fikrinin, öz düşüncəsinin düzgün olduğu qənaətindədir və heç bir alternativi qəbul etmir. Təbii ki, belə şəraitdə ünsiyyətdən danışmaq əbəsdir. İşin təşviş doğuran məqamı da məhz elə bundadır. Çünki anlaşmaya niyyət olmadan, qarşıdakının fikirlərinə etinasız, aşağılayıcı münasibət bəşəriyyətin sonuna gətirib çıxara bilər.

Elmi ədəbiyyatda "kommunikasiya" və "ünsiyyət" ifadələrinə müxtəlif səpkili, fərqli münasibətlər izlənilir və bu baxımdan mövcud yanaşmalara diqqət yetirməyə cəhd edək. Qeyd edildiyi kimi, insan həyatında ünsiyyət, kommunikasiya proseslərinin əlahiddə rolu vardır. Ona görə də ünsiyyət, kommunikasiya məsələləri *kommunikativistika, fəlsəfə, psixologiya, sosiologiya, kulturologiya, linqvistika* ilə məşğul olan mütəxəssislərin daima diqqət mərkəzindədir. Ünsiyyət proseslərinə XX əsrin ikinci yarısından etibarən daha çox əhəmiyyət verilməyə başlandı. 1950-1960-cı illərdə daha çox məlumatların formalizasiyası, onların kodlaşdırılması və kodsuzlaşdırılması və s. məsələlər diqqət mərkəzinə gətirildi. Tədqiqatlar o dövr üçün yeni olan kibernetika və informatika elmləri

istiqamətində aparılırdı və ünsiyyət burada birtərəfli informasiya prosesi kimi nəzərdən keçirilirdi. Daha çox məlumatın formalizasiyasına diqqət verilirdi. 1960-1970-ci illərdə ünsiyyət prosesinin ayrı-ayrı aspektləri psixoloqları və linqvistləri maraqlandırmağa başladı. Psixoloqlar və linqvistlər, əsasən, ünsiyyətin psixoloji və sosial xarakterinə, kommunikativ aktların semantik interpretasiyasına, nitqin qayda və xüsusiyyətlərinə diqqət yetirirdilər. 1980-ci ildə ünsiyyətin sosial mahiyyətinin təhlili ilə məşğul olan sosioloqlar onun müxtəlif üsullarını öyrənməyə cəhdlər göstərdilər. Bu araşdırmalarda cəmiyyətin inkişaf qanunauyğunluqlarına, onun üzvlərinin qarşılıqlı əlaqələrinə, şəxsiyyətin, təşkilatların, ictimai institutların təşəkkülünə diqqət yetirildi. Təqribən o dövrlərdə ünsiyyətin məntiqi-semantik və kulturoloji mahiyyətinə maraq artdı. Bu elmi istiqamətlərin çərçivəsində ünsiyyətin bu və ya digər mədəniyyət tipinə aid olmasını müəyyənləşdirmək mümkün oldu.

Mövzu bir çox tədqiqatçıların diqqətini cəlb etdiyindən problemlə əlaqədar müxtəlif mövqelər formalaşdı. Birinci yanaşma hər iki anlayışı eyniləşdirir (L.S.Vıqotski, A.A.Leontyev, T.Parsons, K.Çerri və b.). İkinci yanaşma isə bu anlayışları fərqləndirir. İkinci yanaşmanın bariz tərəfdarı tanınmış filosof M.S.Kaqandır. O, hesab edir ki, kommunikasiya və ünsiyyət, ən azı iki əsas məqama görə fərqlənirlər. Əvvəla, "... ünsiyyət praktik, maddi, mənəvi, informasiya" mahiyyəti daşıdığı halda, kommunikasiya bu və ya digər məlumatın ötürülməsində informasiya prosesidir. İkincisi isə kommunikasiya subyekt-obyekt əlaqəsidir, yəni burada subyekt informasiyanı ötürən, obyekt isə onu qəbul edəndir. Kaqana görə, bu, biristiqamətli prosesdir. Ünsiyyət isə, əksinə, subyekt-subyekt əlaqəsidir, başqa sözlə, burada məlumatı



ötürən və qəbul edən yoxdur, həmsöhbətlər vardır.[61] Hər iki anlayışa müxtəlif münasibətlər olsa da, ünsiyyətin kommunikasiyadan daha geniş məna kəsb etməsi heç kəsdə şübhə doğurmur.

Ünsiyyət prosesini təhlil edərkən xarici tədqiqatçılar daha çox "kommunikasiya" anlayışından istifadə edirlər. "Ünsiyyət" sözü fikir, informasiya mübadiləsini, insanlar arasında emosional təəssüratları ifadə edir. Bu mənada ünsiyyət və kommunikasiya arasında fərq yoxdur. Yəni burada ünsiyyət dilin kommunikativ funksiyasının müxtəlif nitq situasiyalarında reallaşdırılması kimi başa düşülür. Lakin hadisənin mahiyyətinə dərindən vardıqda müəyyən fərqliliklərin mövcud olduğu məlum olur. Məsələn, psixologiyaya və sosiologiyaya aid ədəbiyyatlarda ünsiyyət və kommunikasiya sinonomik deyil, kəsişən ifadələr kimi nəzərdən keçirilir. Burada XX əsrin əvvəllərində yaranmış kommunikasiya terminindən, informasiyanın bir insandan digərinə ötürülməsi prosesində istifadəsindən, eləcə də sosial proseslərə təsir etmək məqsədilə cəmiyyətdə informasiya mübadiləsindən söhbət gedir. Ünsiyyət isə insanların qarşılıqlı münasibətlərində idraki və affektiv-qiymətləndirici informasiya əlaqəsi kimi nəzərdən keçirilir.

Qeyd etmək lazımdır ki, ünsiyyət kateqoriyası sosial-humanitar elmlərin aparıcı terminlərindən biridir. O, sosial və şəxsiyyətlərarası münasibətlərin qurulmasında və tənzimlənməsində mürəkkəb xarakterə malik bir prosesdir və həmsöhbətlə dərketmə və qarşılıqlı əlaqə sayəsində reallaşır. Hesab etmək olar ki, bu mənada kommunikasiya ünsiyyət prosesinin tərkib hissəsidir, yəni burada kommunikasiya ünsiyyət anlayışı ilə eyniyyət təşkil etmir, çünki onları fərqləndirən

---

[61] Каган М.С. Мир общения: Проблема межсубъектных отношений. — М.: Политиздат, 1988.// https://www.studmed.ru/view/kagan-ms-mir-obscheniya-problema-mezhsubektnyh-otnosheniy_6bd5bde497e.html

cəhətlər də mövcuddur. Əvvəla, kommunikasiya ünsiyyətin mühüm olsa da, yeganə komponenti deyil. Məlumatların qəbul edilməsi və ötürülməsində çoxşaxəli proses olan kommunikasiya ünsiyyət subyektləri arasında davamlı olaraq yaranan fərdlərarası mürəkkəb əlaqələri, eyni zamanada, demək olar ki, bütün insanların qarşılıqlı ünsiyyətdə istifadə etdikləri obrazlı təfəkkürü əhatə edə bilmir. Lakin məhz bu prosesdə qruplar arasında birgə fəaliyyət optimallaşır, çünki məqsədyönlü informasiya mübadiləsinin reallaşması üçün bir sıra üsullar mövcuddur: qrupa aid ümumi dil və dialekt, müvafiq termin və anlayışlar, qrupun nümayəndələrinə aydın olan qeyri-verbal işarələr, simvollar və s. Beləliklə, belə bir ümumiləşdirmə aparmaq olar ki, kommunikasiya informasiya mübadiləsidir, ünsiyyət isə daha çox ünsiyyətə girən subyektlərin qarşılıqlı əlaqələrində onların psixoloji vəziyyətlərinə təsiri, eləcə də bu prosesdə fərdi xüsusiyyətlərin dərkini nəzərdə tutur.

Aparılan təhlillərdən alınan qənaətə görə, biz "kommunikasiya" və ya "ünsiyyət" analyışlarından məqsədəuyğun şəkildə istifadə etməyi nəzərdə tuturuq.

Dünya ictimaiyyəti həyatın bütün sahələrində çətin mərhələdən keçir. Vəziyyəti mürəkkəbləşdirən mühüm amillərdən biri də informasiya texnologiyalarının sürətli inkişafıdır. Yəni texnika və texnologiyaların inkişafı cəmiyyətin iqtisadi, siyasi və mədəni sahələrini getdikcə daha çox əhatə edir. Baş verən hadisə interaktiv mahiyyət daşıdığından müasir elmin bütün sahələrində təhlil olunur.

Hazırda texnologiyanın sürətli inkişafına imkan yaradan informasiya əsri sürətli, qlobal kommunikasiyalara və şəbəkə texnologiyalarına əsaslanan müasir cəmiyyət formalaşdırır. Bu cəmiyyətdə ünsiyyət xüsusi əhəmiyyət kəsb edir və bu kontekstdə xarici dillərin öyrənilməsinin vacibliyi ön plana keçir. İngilis dili bu sırada ön plandadır. Bunun da yetərli



səbəbləri vardır. Belə ki, hazırda transmilli korporasiyaların inkişafı ingilis dilinin fəaliyyət dairəsinin genişlənməsinə səbəb olur, çünki bu təşkilatların baş qərargahları Şimali Amerikada, Qərbi Avropada və Yaponiyada yerləşir. Transmilli korporasiyalar qeyri-ingilis dilli ölkələrdə yerli şirkətlər yaratdıqları zaman, bir qayda olaraq, ingilis dilini ünsiyyət dili kimi tələb edirlər. Eyni zamanda, ingilis dili əksər beynəlxalq təşkilat və konfranslarda, elmi və bir sıra akademik nəşrlərdə, beynəlxalq bank işində, beynəlxalq turizmdə, beynəlxalq hüquq və insan hüquqlarında, informasiya texnologiyalarında və internet vasitəsilə ünsiyyətdə işçi dil kimi fəaliyyət göstərir. İngilis dilinin internetdə üstünlük təşkil etməsi bu dilin fəaliyyət dairəsini genişləndirir. Bir çox Avropa ölkələri, o cümlədən Almaniya, Fransa, İtaliya, İspaniya, İsveçrə və s. ölkələr üzun illərdir ki, ingilis dili, qismən fransız və digər Avropa dilləri vasitəsilə ünsiyyət qurur.

Bugün ünsiyyət vasitəsi olaraq ingilis dilinin dünya miqyasında aparıcı mövqeyi danılmazdır. Lakin bir sıra Afrika ölkələrində fransız, keçmiş SSRİ-də isə rus dilinin fəaliyyət dairəsinin geniş olmasını da qeyd etmək lazımdır. Bununla belə, bu ölkələrdə də, xüsusilə beynəlxalq sferalarda, ingils dilindən daha geniş şəkildə istifadə tendensiyası özünü göstərir. İlk baxışdan belə qənaət yaransa da, gerçəkdə fərqli situasiyalar da müşahidə olunur. Belə ki, məşhur ingilis linqvisti D. Qraddol əmindir ki, yer üzünə hakim olan ingilis dilində danışanların sayı getdikcə azalır və bu tendensiya davam etdikcə o (yəni ingilis dili) öz statusunu itirəcəkdir. İnternetdə ikinci ən işlək dil Çin dilidir. Müasir cəmiyyətdə internetin əsas informasiya qaynağı olması nəzərə alınarsa, bu dillərin dominantlığı bir çox məsələlərdən xəbər verir. 1,2 milyarddan çox insan çin dilinin müxtəlif variantlarında danışırlar. Bu, ingilis dilini doğma dil hesab edənlərin sayından üç dəfə

çoxdur. D. Qraddolun fikrincə, ingilis dili 2050-ci ildə üçüncü yerə enəcək. ikinci yeri isə ispan və ərəb dilləri də daxil olmaqla, Asiya və hind-Avropa dilləri bölüşəcəklər[62]. Qlobal dünyada artıq müəyyən süni dil vasitəsilə beynəlxalq ünsiyyətin gerçəkləşdirilməsi ətrafında ciddi müzakirələr gedir və bu dilin esperanto dili olması ideyası üzərində daha çox dayanılır. Arqument olaraq göstərilir ki, millətlər arasında real ünsiyyətin gerçəkləşməsinə nail olmaq üçün süni dilə ehtiyac vardır.

Hazırda ingilis dilinin geniş şəkildə yayılmasına baxmayaraq, bu dil beynəlxalq ünsiyyət vasitəsi rolunu effektiv şəkildə icra edə bilmir, çünki ingilis dili təbii dil olaraq milli özünəməxsusluğa malikdir. Məhz bu cəhət fərqli dillərdə danışan insanlar arasında anlaşmanı çətinləşdirir. Çünki dil həm də fərqli mədəniyyət, təfəkkür, dünyagörüşü deməkdir. Digər baxımdan, ingilis dilinin dünya miqyasında funksiyasının getdikcə daha çox artması linqvistik imperializm meyillərinin yaranmasına səbəb olur. Bu isə imperializmin digər təzahürlərinin formalaşmasına münbit zəmin yarada bilir. Hesab olunur ki, qeyd edilən mənada problemin ən uğurlu həlli beynəlxalq əlaqələrdə süni dildən istifadədir və belə bir fikir irəli sürülür ki, esperanto beynəlxalq kommunikasiya proseslərində daha müvafiq fəaliyyət nümayiş etdirə bilər. Yəni artıq bir əsrdən çoxdur ki, dünyanın 120-dən çox ölkəsində aprobasiyadan keçmiş, milyonlarla tərəfdaşı olan esperantonun üstün cəhətləri ondan ibarətdir ki, o həm tələffüz, həm istifadə, həm də yazılış baxımından çox sadə və rahatdır.

1905-ci ildə Beynəlxalq Konqresdə qəbul edilən "Esperantizm Bəyannaməsi"ndə esperanto və esperantizmin mahiyyəti dəyərləndirilərək belə qənaətə gəlinmişdir ki,

[62] Graddol D. English On Decline For World Youth // www.guardian.co.uk.britain/article. - 27.02.2004. c.1



esperantizm xalqların daxili aləminə nüfuz etməyə, milli dilləri sıxışdırmağa istiqamətlənməyən, lakin müxtəlif dillərdə danışan insanlar arasında ünsiyyət qurmağa imkan verən bir vasitədir[63].

Esperantistlər ingilis dilinin dünya dili mövqeyindən uzaqlaşmasını istəyirlər və inandırıcı şəkildə iddia edirlər ki, esperanto beynəlxalq ünsiyyət dili kimi qəbul edilməlidir. Tetrasosiologiya sivilizasiyanın can atdığı sosial və fərdi harmoniyanın dördölçülü plüralistik elmi sahəsi olaraq özünəməxsus fəlsəfi əsaslara malikdir və elmi ədəbiyyatda tetrafilosofiya (və ya tetrizm) adlandırılır.[64] Tetrasosiologiya *sosial statika*-cəmiyyətin resursları, *dinamika*-təkrar yeniləşmə, *strukturatika*-cəmiyyətin struktur sferaları və *genetika*-sosial inkişafın mərhələləri haqqında təlimləri nəzərdə tutur.[65]

Tetrasosiologiya esperantonu milli dillərə alternativ olaraq görür və hesab edir ki, yalnız esperanto dövrün qlobal dil çağırışlarına adekvat cavablar verə bilər. Tetrasosiologiya sosial zaman-məkan kontekstində qlobal nəzəriyyə olaraq esperantonu dünya dili fəaliyyəti səviyyəsində aşağıdakı arqumentlərlə ümumiləşdirir:

1. Kommunikasiya və texnologiyaların yaratdığı müasir dünyanın qlobal məkan-zaman mühiti vahid dünya dilinin yaradılması məsələsini kəskinləşdirir. Texnologiyaların, əməyin, mədəniyyətin diversifikasiyasını və inkişafını təmin edə, internetin yaratdığı güclü plüralizmə adekvat mühit formalaşdıra biləcək vahid dil mühitinin yaradılması zərurətə çevrilir.

2. Dünyada çox yayılmış ingilis dili dünya dili statusuna iddia edə bilməz, çünki o, dünyaya baxışı labüd olaraq

[63] http://www.tetrasociology2002.spb.ru/
[64] https://www.peacefromharmony.org/?cat=ru_c&key=371
[65] http://www.russika.ru/t.php?t=2969

ingilisdilli baxışla məhdudlaşdırır (A.Turen, T.Sudzuki), bu isə digər milli dillərə və ümumbəşəri mədəniyyətə "ziyanlı" ola bilər.

3. Bütün süni dillər sırasında istifadəsi çox asan olan və əsrlərin təcrübəsindən keçmiş dil esperantodur. Vahid dil funksiyasını yerinə yetirməyə iddialı ikinci bir dil yoxdur və s.[66]

Təbii ki, bir çox hallarda esperantonun tərəfdarları haqlıdırlar. Vahid informasiya şəbəkəsinin fəaliyyət göstərdiyi qlobal dünyada vahid dilin də fəaliyyəti getdikcə daha çox labüd görünür.

Yüz illər boyunca mədəni ikidillilik prosesi mövcud olub. Bu mənada yazılı dil hər zaman elitar mövqe tutub. Görünür, buna görə yazılı dillər çox zaman müqəddəs hesab olunublar. Nadir hallarda yazılı ana dili çoxluğa aid olub. Belə şəraitə malik olan sivilizasiyalar tez bir zamanda tərəqqi edə biliblər. Buna misal olaraq, Qədim Yunanıstanı və Romanı göstərmək olar. Yeni eranın əvvəllərinə və orta əsrlərə mədəni ikidillilik şəraiti xarakterik olub. Yəni kilsədə, təhsildə, elm sahəsində dövr üçün nüfuz kəsb edən dillərdən (sanskrit, venyan, qədim yunan, latın, ədəbi ərəb, klassik fars, kilsə slavyan), gündəlik ünsiyyətdə isə (o cümlədən yazılı, lakin "sadə") yerli, xalq dillərindən istifadə olunub. Mədəni ikidillilik situasiyası sabit olub: latın dili 1000 il boyunca Qərb xristianlığının və mədəniyyətinin; kilsə slavyan dili yeddi yüz il ərzində pravoslav slavyanların ədəbi dili olub. Yəni uzun əsrlər boyunca, müəyyən mənada, yad dillər "doğru" dil kimi qəbul edilib. Təbii ki, belə şəraitdə dillərə demokratik münasibətdən danışmaq olmaz. Mədəni ikidillilikdən milli dilə keçid prosesi dillərin demokratikləşməsində mühüm addım kimi qiymətləndirilə bilər. Sosiumun öz etnik dilini kilsənin, məktəbin, yüksək mədəniyyətin dili kimi qəbul etməsi yeni tip ədəbi dilin

---

[66] Yenə orada.



yaranmasından xəbər verir. Bu dil artıq yalnız dar çərçivədə xüsusi mahiyyət kəsb edən funksiyaları yerinə yetirməklə məhdudlaşmır, o, çoxfunksiyalı və açıqdır. Kənar dilin ədəbi xalq dili ilə əvəz edilməsi sayəsində normativ nitqin ifadə sahələri, həmçinin dil standartlarının daşıyıcılarının sosial tərkibi genişləndi. Bu da öz növbəsində, dil normalarının demokratikləşməsi və ondan istifadə üsullarının liberallaşdırılması prosesini gerçəkləşdirdi.

Buradan belə bir sual yarana bilər ki, dilin demokratikləşməsi dil siyasəti ilə əlaqədar ola bilərmi? Təbii ki, ədəbi dil tipinin dəyişilməsi dillərin demokratikləşməsi tarixində kifayət qədər genişmiqyaslı proses olmasına baxmayaraq, onu dil siyasətinin nəticəsi kimi qəbul etmək olmaz. Çünki dillərin demokratikləşməsi prosesi mədəniyyətin, sivilizasiyanın, kommunikasiya texnologiyalarının inkişafında uzunmüddətli, təbii tendensiya daşıyır. Latın və ya kilsə slavyan dillərinin xalq dilləri tərəfindən sıxışdırılması tamamilə fərqli hadisələrin nəticəsidir. Bu, ilk növbədə, ictimai varlığın intensifikasiyası və insan birliklərinin homogenezasiyası ilə əlaqəlidir. Milli mədəniyyətlərin əsas dili kimi xalq dillərinin fəaliyyətlərinin möhkəmlənməsi və genişlənməsi feodal quruluşdan industrial quruluşa keçidlə, ictimai həyatın sekulyarlaşması, şəhər əhalisinin sayının artması, kitab çapının, təhsilin geniş yayılması, aşağı səviyyəli xalq mədəniyyətinin tədricən kütləvi mədəniyyətə transformasiya olunması və s. ilə əlaqədar olub.

*****

Qloballaşma epoxasında dil mədəniyyəti mühafizə edən mühüm amillərdən biridir. Bu gün dünya dil məkanında mədəniyyətlər arasında dialoqun qurulması son dərəcə aktual və geniş mahiyyət alıb. Yaranmış çox mürəkkəb və kifayət qədər qeyri-müəyyən semiotik mühitdə müsbət və ondan da çox mənfi xüsusiyyətlər təzahür tapır.

Aydındır ki, dil hər bir xalqın, hər bir millətin mənəvi həyatının tərkib hissəsidir. Vitgenşteynin fikrincə, dil həyat formasıdır, yəni xalqın təbii-tarixi inkişaf prosesi özünün praktik ifadəsini dildə tapır, onun həyatının, tarixi təkamülünün izləri yenə də dildə təcəssüm olunur. Buna görə də insanların həyat tərzlərinin xüsusiyyətlərini dildə axtarmaq cəhdi heç də əbəs deyildir. Xalqların və millətlərin elm, bədii ədəbiyyat və mənəvi mədəniyyətlərinin bütün sahələrinin inkişafı dilin bilavasitə iştirakı ilə həyata keçirilir. Məhz buna görə də hər bir azad xalq öz milli mədəniyyətini inkişaf etdirməklə yanaşı, milli dilini də qoruyub saxlamağa və inkişaf etdirməyə çalışır.

XX əsrin sonu XXI əsrin əvvəllərində YUNESKO yeni bir termin–*informasiya yoxsulluğu* anlayışını təqdim etdi. Bu anlayışın elmi dövriyyəyə daxil edilməsinin əsas səbəbi onunla izah olunur ki, dünya informasiya məkanında informasiya cəhətdən geridə qalmış ölkələr mövcuddur. Buna səbəb isə bu ölkələrin sosial inkişafının və həyat keyfiyyətinin aşağı səviyyədə olmasıdır[67]. İnformasiya yoxsulluğu ilə mübarizə XXI əsrin dünya birliyinin qlobal probleminə çevrilib. Bu baxımdan, fərdin informasiya mədəniyyətinin linqvistik aspektlərinin mahiyyəti yaxın gələcəkdə daha çox artacaq. Çünki məhz biliyin təqdim edildiyi dildən istifadə etmək qabiliyyətindən asılı olaraq insanın işgüzar və gündəlik həyatında kommunikasiya imkanları reallaşır. Buna görə də informasiya sahəsində hökm sürən linqvistik qeyri-bərabərlik getdikcə daha da kəskinləşəcək və bu sahədə xüsusi tədbirlərin görülməsi zəruri məsələdir.

Müasir informasiya mədəniyyəti linqvistik mədəniyyətin yüksək səviyyədə olmasını tələb edir. İngilis dili bu gün millətlərarası ünsiyyət vasitəsi olmaqla yanaşı, qlobal informasiya cəmiyyətinin aparıcı dilidir. Hazırda dünyada kitab

---

[67]https://studbooks.net/2106416/literatura/informatsionnaya_bednost_lingvisticheskaya_kultura



məhsullarının-27, elmi ədəbiyyatın 90- və elektron məlumat bazalarının 80 %-i ingilis dilindədir[68]. Təbii ki, belə şəraitdə ingilis dilini bilmədən məhsuldar nəticələrin əldə edilməsindən söhbət gedə bilməz. Bununla belə, ingilis dilinin dünya miqyasında geniş fəaliyyət göstərməsi ABŞ-ın "mədəni imperializm" siyasətinin, demək olar ki, dünyanın bütün milli mədəniyyətlərini əhatə etməsi kimi ciddi problemlər yaradır və bu istiqamətdə mühüm və adekvat tədbirlərin görülməsi zamanın tələbidir.

İnformasiya cəmiyyəti şəraitində formalaşan yeni mədəniyyət tipi fərqli cəhətlərdən xarakterizə olunur. Bunu səciyyələndirən əsas məqam ondan ibarətdir ki, burada hər bir mədəniyyət özünəməxsusluğu, unikallığı ilə qəbul edilir. Yaranan yeni informasiya mədəniyyəti müxtəlif mədəniyyətlərin spesifikliyi ilə yanaşı, onlarda sosial reallığın universal elementlərinin mövcudluğunu da inkar etmir. Bunun məntiqi açıqlaması onunla izah oluna bilər ki, sosial proseslər və hadisələr insanların qarşılıqlı əlaqələrinin reallaşdığı vahid məkandır. N.Lunan müasir sosial nəzəriyyə çərçivəsində cəmiyyəti bir sistem olaraq nəzərdən keçirir və hesab edir ki, cəmiyyət özünü ətraf mühitdən ayırmağa və eyni zamanda onun sərhədlərini yenidən bərpa etməyə qadirdir. Bu o deməkdir ki, cəmiyyətin özünü təsvir etmək imkanları ona yenidən bərpa olmaq şəraiti yaradır. Qeyd edilən situasiya isə məhz kommunikasiya prosesində reallaşır.

Texnologiyaların dəyişməsi yeni kommunikasiya üsulları yaradır və bir çox tədqiqatçılar hesab edirlər ki, məhz bu cəhət tarixi prosesin əsas hərəkətverici qüvvəsidir. Başverən proseslərə diqqət yetirildikdə, gəlinən qənaət şübhə doğurmur. Dünyanın vahid kommunikasiya məkanına çevrilməsi nəsillərin vərdiş

---

[68] Колин К.К. Информационное пространство культуры: проблема многоязычия в информационном обществе // Вестник КемГУКИ. - 2011. - №15. - С. 9.//file:///C:/Users/USER/Downloads/Inf._prostranstvo_kulturyi.pdf

etdikləri norma, dəyər və meyarları transformasiyaya uğradır. Bu proseslər, şübhəsiz ki, əsas kommunikasiya vasitəsi olan dilin inkişafına və fəaliyyətinə də güclü təsir göstərir və biz bu halda yenə də diqqəti ingilis dilinin üzərinə çəkmək istərdik. İngilis dilinin qlobal dil mövqeyinin güclənməsi bu və ya digər şəkildə dil müxtəlifliyinin deqradasiyaya uğramasına şərait yaradır. Yəni informasiya mədəniyyəti özü ilə yeni dil problemləri gətirir. Bunun bir çox səbəbləri vardır, lakin əsas səbəb kimi müasir dünya düzənində amerikan modelinin hökm sürməsi göstərilə bilər. Bir faktı qeyd etmək kifayətdir ki, dərin tarixi köklərə, zəngin lüğət tərkibinə və mükəmməl qrammatik struktura malik olan alman dili kimi güclü bir dil ingilis dilinin təsirlərinə tab gətirə bilmir. Hətta alman dilinin lüğət tərkibində baş verən dəyişikliklər Almaniyada ingilis dilinə rəsmi dil statusu verilməsinə tələbat yaratmışdı, lakin bu təklif qətiyyətlə rədd edildi. Hadisələr onu göstərir ki, artıq ingilis dili anqlo-amerikan həyat tərzini dünyaya yayan ciddi ideoloji amilə çevrilir. Belə bir şəraitdə hətta inkişaf etmiş dillərin belə, assimilyasiyasına ciddi təhdidlər meydana çıxır. Nəticədə, bütün dillərin və mədəniyyətlərin inkişafında mühüm aparıcı hadisə olan multilinqvizm prinsiplərinin pozulmasına şərait yaranır. Qeyd edilən məqamlar milli dillərin və mədəniyyətlərin funksiyasına və harmonik inkişafına mənfi təsir edir. Gerçəklik onu göstərir ki, artıq dünyada sürətlə vahid kommunikasiya məkanı formalaşır və yaranan bu, yeni şəraitə uyğun olaraq vahid ünsiyyət vasitəsinin müəyyənləşdirilməsi tələbatını yaradır. Lakin hər bir dil, hər bir mədəniyyət ümumbəşəri dəyərdir və dilin, mədəni müxtəlifliyin qorunub saxlanması çox vacib məsələdir. Belə ki, dil və mədəniyyət ayrı-ayrı millətləri var edən deməli həm də bəşəriyyəti mövcud edən varlıqlardırlar.

Qloballaşan dünyada harmoniyaya bəşəriyyətin birliyi sayəsində nail oluna bilər. Lakin dünya birliyi kifayət qədər



mürəkkəb və gerçəkləşməsi qeyri-real görünən bir prosesdir. Bununla belə, bu ideyanın tərəfdarlarının fikrinə görə, qeyd edilən şəraitin gerçəkləşməsi üçün dəfedilməz maneələr yoxdur. Bundan başqa, onlar hesab edirlər ki, mövcud durum artıq epoxanın imperatividir. Bu gün dünya elə bir vəziyyətə gəlib çatıb ki, artıq bəşəriyyətin mövcudluğu barədə düşünmək lazımdır. O da aydındır ki, belə bir vəziyyətdən dövlətlərin və xalqların birgə səyləri sayəsində çıxmaq mümkün ola bilər. Burada bir məsələyə də diqqət yetirmək istərdik. XX əsrin ikinci yarısında Amerika transmilli korporasiyaları ölçüyəgəlməz kapital toplaya biliblər və məhz bu məqam ABŞ-ı vahid supergüc statusuna yüksəldib. Bu fonda milli dillərin, mədəniyyətlərin "əriməsi" və amerikan nümunəsinə əsaslanan kosmopolit dəyərlərin formalaşması prosesi baş verir. Əslində, belə bir təəssürat yaranır ki, dünya dillərinə və mədəniyyətlərinə bu şəkildə müdaxilənin qarşısını almaq mümkün olmayacaq və bunun ciddi fəsadlar törədəcəyinə şübhə yoxdur. Lakin belə bir məqamı da qeyd etmək lazımdır ki, ABŞ öz liderlik rolunu bugünkü dünyanın gerçəkliklərini nəzərə almaqla, digər dövlətlərin maraqlarına hörmətlə yanaşmaqla və bütövlükdə, beynəlxalq birliyin tələblərini gözardı etməməklə saxlaya bilər. Reallıqda isə hələlik tamamilə başqa hadisələr baş verir.

## 3.2. İnformasiya cəmiyyətində kommunikasiya problemi

Bu günün reallığı tamamilə yeni şərtlər irəli sürür, çünki əvvəlki dövrlərdən fərqli olaraq hadisələr insanın həyatında sürətlə, bir an içində dəyişir. Belə şərait mövcud prinsiplərin yenidən nəzərdən keçirilməsini, bəzi hallarda isə ümumiyyətlə, onlardan imtinanı tələb edir. Vahid gerçəkliyin mövcudluğuna inam sürətlə azalır və onu plüralizm əvəz edir. Hətta belə fikirlər də səslənir ki, gerçək və gerçək olmayan, xeyir və şər, xeyirxahlıq və bədxahlıq arasında fərq yoxdur. Rasionalizmi irrasional, mistik təsəvvürlər sıxışdırıb aradan çıxarır və s.[69] Bir məqam da qeyd olunmalıdır ki, elmi əsaslandırmanı nəzərdə tutmayan qeyri-elmi ideyaların da cəmiyyətə yol aça bilməsi ehtimalı getdikcə daha çox aydın görünür.

Hazırda sosial nəzəriyyədə böhran vəziyyətinin hökm sürdüyü müşahidə olunur. Bu böhranın bir sıra səbəbləri vardır, lakin əsas səbəb sosial reallıqda baş verən dəyişikliklər, transformasiya prosesləridir. İndustrial cəmiyyətdən postindustrial, yəni informasiya cəmiyyətinə keçidin yaratdığı yeni şərait klassik nəzəriyyələrdən çıxış etməklə təhlilə tabe olmur. Çünki sosial nəzəriyyə hər hansı bir müəyyənliyin əldə edilməsində rasional təhlilin mümkünlüyünü nəzərdə tutur. Təbii ki, yeni şərait, yəni inkişafın informasiya modeli informasiya cəmiyyətinin kommunikativ xarakterinə adekvat olan nəzəriyyələrin işlənib hazırlanmasına tələbat yaradır. Bu şərait kommunikativ problematikanı aktuallaşdırır və proseslərə tamamilə fərqli yanaşma tələb edir, çünki artıq cəmiyyət hər hansı bir sosial təsisat kimi deyil, sosial proseslərin həm

[69] Миронов В. В. Современные философские проблемы естественных, технических и социально-гуманитарных наук. М., Гардарики. 2006.// https://narfu.ru/university/library/books/0095.pdf



dinamikasını, həm də mahiyyətini əhatə edən kommunikativ mexanizm kimi nəzərdən keçirilir. Sosial proseslərin kommunikasiya nöqteyi-nəzərindən araşdırılması sosial elmlərin təməl intensiyasını (şüurun, təfəkkürün hər hansı bir obyektə yönəldilməsi) ifadə edir.

Kommunikasiya proseslərini bu və ya digər kontekstdən xarakterizə edən müxtəlif səpkili nəzəriyyələr mövcuddur. Bunlardan daha mühüm olanları üzərində dayanaq.

*Nitq aktları* nəzəriyyəsinin təməli Vitgenşteyn tərəfindən qoyulub. Vitgenşteyn qeyd edirdi ki, sözə mənanı insan verir. Aydın mənaya malik sözlər vardır və bu mənalar asan şəkildə təsnif olunurlar. Elə sözlər də vardır ki, onlar qradual şəkildə (qradual-hər hansı bir əlamətin, fəaliyyətin tədricən artmasının və ya zəifləməsinin xarakterizə edilməsi) bir-birinə keçən minlərlə müxtəlif mənalarda istifadə olunurlar[70]. Nitq aktlarının transpozisiyasının (yer dəyişdirmə, yerini dəyişdirmə) əsasını dil oyunları təşkil edir. Vitgenşteyn "dil oyunları" terminini danışanın istifadə etdiyi dili konvensional qaydalar sistemi kimi elmi dövriyyəyə daxil etmişdir. Dil oyunları anlayışı mənaların plüralizmini nəzərdə tutur. Vitgenşteyn dil oyunlarının da "həyat formaları" qədər müxtəlif olduqlarını iddia edirdi. Yəni dil oyunları sayəsində mənanın intensiyasının nədən ibarət olduğu üzə çıxır, çünki bunlar dil oyunlarından təcrid şəkildə təsəvvür edilə bilməz.[71] Vitgenşteyn məsələnin mahiyyətinə aydınlıq gətirərək qeyd edir ki, dilin mənası bilavasitə onun faktik istifadəsindən asılıdır. Gündəlik həyatda istifadə olunan dil müəyyən qaydalara tabedir və dil oyunudur.

[70] Витгенштейн Л. Голубая книга - М., 1999, с. 50.
[71] http://doxa.onu.edu.ua/Doxa6/125-134.pdf

J.Liotar Vitgenşteynin dil oyunları tədqiqatlarını yüksək qiymətləndirirdi və qeyd edirdi ki, o, pozitivist təfəkkür stereotiplərini aşa bilmiş, yeni legitimləşmə performativliyi müəyyənləşdirmişdir. J.Liotar hesab edirdi ki, müasir informasiya cəmiyyətini məhz performativliklə xarakterizə etmək olar. (Performativlik anlayışı ingilis filosofu Dj.Ostin tərəfindən elmi dövriyyəyə gətirilmişdir və onun məşhur "Söz – fəaliyyət kimi" əsərində qeyd olunur ki, elə dil ifadələri vardır ki, onlar gerçəkliyi təsvir etmirlər, onlar öz-özlüyündə fəaliyyətdirlər. Məsələn, deyəndə ki,"mən səni təbrik edirəm" hər-hansı bir fəaliyyət haqqında söhbət açılmır, o, icra olunur[72].

Nitq aktı nəzəriyyəsinin ünsiyyətdə mühüm rolu vardır, çünki danışan nitq prosesində müxtəlif müəyyənləşdirmələrdən və davranış qaydalarından istifadə edır. Nitq aktı bu prosesdə başverənləri dərk etməyə imkan yaradır və analiz sayəsində danışıqda əmələ gələn anlaşılmazlıqlar aradan qalxır ki, bunun sayəsində qarşılıqı ünsiyyət reallaşa bilir. *Psixolinqvistik nəzəriyyəyə* əsasən dil fikrin, mühakimənin məhsulu olduğundan ümumi təhlilə açıqdır. Həmçinin dil koqnitiv funksiyalar yerinə yetirir. Koqnitiv linqvistika beynin dil funksiyalarını onun (yəni beynin) digər funsiyaları ilə əlaqəli şəkildə nəzərdən keçirir. *Freyminq (frame-çərçivə) nəzəriyyəsinin* əsasını freyminq effekti təşkil edir. Freyminq effekti koqnitiv təhrifi nəzərdə tutur, yəni informasiyanın təqdimedilmə forması onun (yəni informasiyanın) insan tərəfindən qəbul edilməsinə təsir göstərir. Daha dəqiq desək, eyni fikir ifadə tərzindən və məna çalarlarından asılı olaraq həm pozitiv, həm də neqativ şəkildə təqdim oluna bilər.[73] Bu məqam ünsiyyət prosesində kifayət qədər ciddi mahiyyət daşıyır, çünki

[72] https://postnauka.ru/faq/17608
[73] https://studfile.net/preview/5461897/page:21/



cəmiyyət üzvlərinin yaşadıqları dünyanı dərk etmələrində və buna adekvat reaksiyalarında qeyd edilən bacarığın mühüm əhəmiyyəti vardır. Freyminq özündə üç əsas məqamı ehtiva edir: dil, fikir, əhatəli düşüncə. Burada dil əsas funksiya daşıyaraq bizə informasiyanı yadda saxlamağa, situasiyanı müəyyənləşdirməyə imkan yaradır. Lakin insanlar dildən istifadə edərək dünyanın dərk edilməsində şəxsi interpretasiyanı əhatə edən fikrə, münasibətə malik olmaqla yanaşı, mütəmadi olaraq situasiyalara müvafiq obrazlar yarada bilməlidirlər. Bu prosesi reallaşdırmaq üçün isə mövzuya dair ətraflı bilgiyə, düşüncəyə ehtiyac yaranır.

*Sosial şəbəkə ideyası* 50 ildən artıqdır ki, ortaya çıxıb. Sosial psixologiya, antropologiya, siyasi elm, riyaziyyat və kommunikasiya daxil olmaqla, bir çox istiqamətlər üzrə geniş yayılmışdır. Ümumiyyətlə, şəbəkə nəzəriyyəsi insanlar arasında münasibətləri nəzərdə tutur. Bütövlükdə, bu münasibətlər insanların bir-birinə olan duyğularını ifadə etmək imkanını və informasiya mübadiləsini nəzərdə tutur və ən müxtəlif aspektlərdə realizə oluna bilir.

*Sosial-koqnitiv nəzəriyyə* 1970-ci illərdə inkişaf etmişdir. Bu nəzəriyyə insanların müəyyən davranış modellərinin əldə edilməsini və davamlılığını müəyyənləşdirir. Burada davranışın qiymətləndirilməsi üç əsas parametrdən asılıdır: ətraf mühit, insan, davranış və s. [74] Ətraf mühit dedikdə isə insanların davranışlarına təsir edən amillər nəzərdə tutulur.

Göründüyü kimi, kommunikasiya nəzəriyyələri çoxdur, lakin müasir sosial tədqiqatlar içərisində daha çox iki konsepsiyaya önəm verilir: Habermasın kommunikativ fəaliyyət nəzəriyyəsi və Lumanın sistem nəzəriyyəsi. Bu iki nəzəriyyənin qeyd edilməsinin məntiqli səbəbləri vardır. Belə ki, burada

[74] Yenə orada.

hər iki filosofun tədqiqatlarında ənənəvilik prinsipinin nəzərə alınması müşahidə olunur. Yəni Habermasın kommunikativ fəaliyyət nəzəriyyəsi Frankfurt məktəbinin ideyalarına əsaslanır, Lumanın konsepsiyası isə sistem nəzəriyyəsi ilə kommunikasiya nəzəriyyəsinin sintezini ehtiva edir. Bu qəbildən olan kommunikativ modellərin mühüm mahiyyəti ondan ibarətdir ki, burada tədqiqatların əsasını sosial reallığın reprezentativ formaları deyil, kommunikativ mexanizmlər təşkil edir. Qeyd edilən yanaşma sosial nəzəriyyənin inkişafında yeni mərhələ kimi dəyərləndirilir. Təbii ki, sosial tədqiqatların aparılmasında varislik prinsipi, fəlsəfi analizin mahiyyətində baş verən transformasiyaların analizi mühüm əhəmiyyət daşıyır, lakin bunlar sosial proseslərin autentik (həqiqi, doğru) təhlili problemini tam əhatə edə bilmir. Sosial mühitin informatizasiyası proseslərinin məhz kommunikasiya nəzəriyyəsi nöqteyi-nəzərindən təhlili isə zərurət olaraq özünü göstərir. Burada əsas məsələ informasiya cəmiyyətində kommunikasiya proseslərinin mahiyyətini ifadə edən kommunikasiya modellərinin seçilməsidir. Lumanın və Habermasın təqdim etdikləri modellər, yuxarıda qeyd edildiyi kimi, müxtəlif parametrləri nəzərdə tutsa da, əsas olaraq kommunikasiyanın konseptuallaşmasının müxtəlif üsullarını ehtiva edirlər.

Dünyəvi həyat elə bir ilkin və şərtsiz təməldir ki, o həm sosiallığın formalarını, həm də onun interpretasiya üsullarını şərtləndirir. Bu mənada Habermasın fikri yerinə düşür. Çünki o, hesab edir ki, sosiallığın reprezentativ formalarının analizindən əvvəl gündəlik həyatda kommunikativ proseslərin təhlili mövcud olmuşdur. Habermas "Müasirliyin fəlsəfi diskursu" (The Philosophical Discourse of Modernity. 1985) əsərində fəlsəfənin inkişaf yollarını analiz edərkən təhlilinin ümumi əsasını dil fəlsəfəsinə dönüş kimi təqdim edir. Bu yanaşmada, təbii ki, fəlsəfədə və sosial elmlərdə linqvistik metodlar



aktuallaşır. Habermas apardığı tədqiqatlarda qeyd edir ki, kommunikasiya dilə münasibətdə zahiri mexanizm deyil, o, təməlindən dil məkanına xas olan strukturdur. Bundan başqa, analizin obyekti kimi dil praqmatik ölçüdə, yəni nitq kontekstində çıxış edir. Vitgenşteyn kimi Habermas da dil strukturlarının analizinə deyil, bilavasitə dilin real olaraq nitqdə təcəssümünü təhlil edir. Habermas ehtimal edir ki, dil formaları yalnız kommunikasiya prosesində təhlil oluna bilər, çünki məhz nitqdə anlamanın və fəaliyyətin elə mexanizmləri mövcuddur ki, onların sayəsində dil ünsiyyətdə simvolik vasitə olaraq gerçəkləşə bilir.

Gerçəkliyin tam şəkildə əks etdirilməsində kommunikativ fəaliyyətin məkan olaraq nəzərdən keçirilməsi üçün nəzəri cəhətdən əsaslandırılmış rakurs mövcud olmalıdır. Lakin hətta belə bir yanaşmada da müəyyən tarixi kontekstdə həyatın konkret sahələri deyil, ümumiyyətlə, onun müxtəlif sferalarını əhatə edən formal-praqmatik ifadələrin işlədilməsi mümkün olur. Təbii ki, belə halda interaksiyanın iştirakçıları mövcud vəziyyətə yaradıcı şəkildə təsir etmək imkanına malik deyillər, burada onlar, başlıca olaraq, şəxsiyyət kimi formalaşmalarına birbaşa təsir göstərən ənənələrin daşıyıcıları kimi çıxış edirlər. Başqa sözlə, təkrar olunan funksiyalar aktor fəaliyyətinin perspektivini formalaşdıran amildir. Belə halda dünyəvi həyat da bu səviyyədə öz-özünü yenidən yaradır, yəni mədəni ənənələr davam edir, ictimai davranış normaları sayəsində sosial qruplar inteqrasiya edir və gənc nəslin nümayəndələri ictimai münasibətlərə daxil olurlar[75]. Yuxarıda qeyd edildiyi

[75] Хабермас Ю. Философский дискурс о модерне. Пер. с нем. -М.: Издательство «Весь Мир», 2003.// http://yanko.lib.ru/books/philosoph/habermas-ilosof_diskurs_o_monerne-2003-8l.pdf

kimi. Luman təklif edir ki, cəmiyyət sistem nəzəriyyəsi çərçivəsində nəzərdən keçirilməlidir və bu təhlildə sistemin və ərtaf mühitin nəzərdə tutulması əsas məqam kimi çıxış etməlidir. O, ətraf mühit dedikdə, həm təbiəti, həm də mədəniyyəti nəzərdə tutur.[76] Kommunikasiyanın təbiətinin öyrənilməsində N.Lumanın sistem yanaşması tamamilə fərqli ideya ortaya çıxarır. Belə ki, o, hesab edir ki, kommunikasiya sosial sistemin bir hissəsi olduğundan cəmiyyətin özünürefe-rensiya və özünübərpa qabiliyyətini üzə çıxarır[77]. Luman kommunikasiyanın mövcudluğunu sosial əlaqələrin əsası kimi qəbul edir və onun sayəsində (yəni kommunikasiyanın) çoxsaylı seçim situasiyalarına malik informasiya məkanı yaranır[78].

Lumana görə, kommunikasiya sosial mahiyyət daşıyan qarşılıqlı əlaqə faktını əks etdirir. O, vahid təsvir və idarə etmək üsullarına malik deyil, ən azı ona görə ki, prosesə təsadüfi amillərin təsir imkanları həddindən artıq çoxdur. Yəni burada iki məqam özünü göstərir. Bir tərəfdən kommunikasiya reallıqda və cəmiyyətin təhlilində mövcud gerçəklikdir, digər tərəfdən isə o, idarəyə tabe olmayan amillərlə müşayiət olunan prosesdir. Bu baxımdan, informasiya cəmiyyəti insanı kommunikasiya qaydalarının tələblərinə uyğun çərçivələrə salır. Təbii ki, belə halda qeyd edilən həyat tərzinə müvafiq ünsiyyət üsulu olmalıdır, yəni burada dəqiq, sürətli, mobil kommunikasiya əlaqəsi nəzərdə tutulur. İnformasiya cəmiyyətinə xas olan yeni kommunikasiya səviyyəsinə Luman belə münasibət

[76] http://journals.tsu.ru/uploads/import/1167/files/8-loskutnikova.pdf
[77] Луман Н. Реальность массмедиа. М., Праксис, 2005 // http://socioline.ru/files/5/84/luman_realnost_massmedia_0.pdf)
[78] Луман Н. Понятие общества // Проблемы теоретической социологии. СПб. ТОО «ТК Петрополис». 1994 //https://gtmarket.ru/laboratory/expertize/2969).



bildirir: "Yeni şəraitdə mədəniyyət kommunikasiya texnologiyalarında yaranan dəyişikliklərə rəğmən inkişaf edir".[79]

Adları qeyd edilən alimlər problemin dərinliklərini araşdırmışlar və mövzunun kifayət qədər ciddi olduğunu dərk etmişlər, çünki hər bir yeni dövr özünəməxsus ünsiyyət üsubu tələb edir və bu yeni ünsiyyət üslubu öz növbəsində, dövrün şərtlərini müəyyənləşdirir, onun inkişafını istiqamətləndirir. Luman öz tədqiqatlarında qarşılıqlı anlaşmanın kommunikasiya prosesində informasiya, məlumat və anlama yolu ilə reallaşdığını qeyd edir. Habermas isə kommunikasiya mexanizmlərinin fəaliyyətini dilin daxili strukturu ilə əlaqələndirir. Subyektlər kommuniksiya prosesində qarşılıqlı anlaşma əldə etməyə cəhd göstərirlər. Kommunikasiyanın dinamikasını irəlicədən bu anlaşmanı gerçəkləşdirən sxemlər müəyyənləşdirir. Burada kommunikasiya prosesinin reallaşması üçün prinsip olaraq kommunikativ rasionallıq çıxış edir. Yəni kommunkativ rasionallıq fikir və mülahizələri əsaslandırmağa imkan verir. Konsensus (qaşılıqlı anlaşma) müasir informasiya cəmiyyətində kommunikasiyanın reallaşmasında ideal nümunə olaraq sosial fəaliyyətin effektiv modeli kimi çıxış edir. Bu mənada Luman hesab edir ki, konsensus yalnız ideal modeli nəzərdə tutur, lakin belə bir sxem real kommunikasiya proseslərini tam əks etdirmir. Lumana görə, informasiya cəmiyyətində kommunikasiyanın müasir texniki aspektləri, elektron kommunikasiya sahələrinin genişlənməsi kommunikasiyanın mahiyyətini dəyişmir, çünki bu, müasir cəmiyyətin sistem mexanizmlərinin təzahürüdür. Habermas kommunikasiya nəzəriyyəsinin normativ əsaslarını müəyyənləşdirərkən kommunikasiyanı

[79] Луман Н. Невероятность коммуникации // https://gtmarket.ru/laboratory/expertize/2972

dilin praqmatik funksiyası kimi təyin edir və deməli o, informasiyanı kommunikasiya üçün kifayət qədər əhəmiyyətli amil hesab etmir.

Əslində, Luman və Habermas dövrün kommunikasiya proseslərinin müxtəlif aspektlərini-məzmun və funksionallığı nəzərdə tuturlar. Kommunikasiya dilin kommunikativ imkanlarının reallaşdırılmasında üsuldur. Lakin kommunikasiyanın real şəkildə funksiyası dilə münasibətdə xarici mexanizmlərlə, yəni siyasi, iqtisadi, ən əsası, kütləvi informasiya vasitələri ilə müəyyənləşir. Habermas isə hesab edir ki, bunlar xarici təsirlər deyil, əksinə, proseslərin məğzini təşkil edən amillərdir.

Sosial kommunukasiyanın təbiətinin öyrənilməsi bugün sosiohumanitar elmlərin ən müxtəlif istiqamətlərinin maraq dairəsindədir. Buna yaranan zərurət onunla əsaslandırıla bilər ki, hazırda informasiya texnologiyalarının sürətlə yayılması fərdlərarası münasibətlərin məzmun və istiqamətini dəyişir və bu da öz növbəsində, kommunikasiyada yeni davranış tərzlərinin yaradılmasını şərtləndirir. Habermasın kommunukativ fəaliyyət nəzəriyyəsi kontekstində sosial kommunikasiya "hamının hamı ilə" şüurlu dialoqunu nəzərdə tutan rasional hadisə kimi dəyərləndirilir. Hesab olunur ki, qeyd edilən şərait cəmiyyətdə vətəndaş həmrəyliyini formalaşdırır[80]. Yəni mövcud yanaşma qarşılıqlı anlaşmanı nəzərdə tutur.

Liotar "Postmodernin vəziyyəti" (Состояние постмодерна) əsərində Habermasın kommunikasiyanın əsasında razılıq, həmrəylik fikrini qəbul etmir, əksinə, o, hesab edır ki, kommunukasiyada fikir ayrılığı, ziddiyyət özünü göstərir. Liotar sosial-siyasi münasibətlərin reallaşmasında dil məkanını effektiv üsul hesab edir. O, yazır: "... danışmaq-mübarizə etməkdir; dil

[80] Хабермас Ю. Моральное сознание и коммуникативное действие. Наука, 2006, с. 303.



aktları ümumi mübarizəni ifadə edirlər"[81]. Təbii ki, burada Liotar mübarizə dedikdə, zorakılığı deyil, müəyyən qaydalarla tənzimlənməni nəzərdə tutur. Qaydaları isə dil oyunlarının düzgün reallaşdırılması gerçəkləşdirir. Bu qaydaları lazımi şəkildə müəyyənləşdirə və istiqamətləndirə bilən tərəf udur.

Sözsüz ki, tərəflər arasında razılığın yaranmasında qarşılıqlı anlaşma mühüm şərtdir, lakin razılığın əldə edilməsində *niyyət* mühüm məsələdir. Yəni tərəflər ümumi razılığın əldə edilməsinə, konsensusun gerçəkləşməsinə fərqli niyyətlərdən yanaşarlarsa və burada hər bir tərəf öz mənafeyini güdürsə, belə şəraitdə razılığın əldə edilməsi mümkün ola bilməz. Bu zaman situasiya daha da çətinləşir və belə vəziyyətdə tərəflər həqiqi niyyətlərini gizlətmək üçün "gerçəyəbənzər" dialoq modellərindən istifadə edirlər. Təbii ki, bu da məsələni daha çox mürəkkəbləşdirir. Yəni rasionallıq nöqteyi-nəzərdən Habermasın irəli sürdüyü mütləq razılığın əldə edilməsi inandırıcı görünmür və özündə kifayət qədər ziddiyyətli məqamları ehtiva edir. Bununla belə, Habermasın kommunikativ konsensus ideyası bu gün öz aktuallığını saxlayır, çünki konfrantasiyalarla, qarşıdurmalarla dolu olan dünya zorakı yollarla deyil, məhz arqumentlərə əsaslanan razılıqla gələcəyini qura bilər.

Sosial kommunukasiyanın təbiətini fransız sosioloqu, postmodernist J.Bodriyyar özünəməxsus şəkildə izah edir. Onun nəzərincə, "nəhəng simulyasiya prosesi" kommunikasiyanın bütün sahələrini "fantom məzmun"la (fantom–bir şeyin görüntüsü) doldurur[82]. O, müasir simulyakrlar (simvolik kodlar) haqqında qeyd edir ki, işarəvi mühit daima öz-özünü

[81] Yenə orada, s. 160

[82] Бодрийяр Ж. Соблазн. М.:2000, с.281// https://www.dissercat.com/content/etika-simulyakrov-zhana-bodriiyara-analiz-postmodernistskoi-retseptsii-eticheskogo

törədən prosesdir (yəni ifadə olunan ifadə edəndən törənir). Bu baxımdan, müasir simulyakrlar müstəqil həyat "yaşayan" və ifadə etdikləri predmetlərlə birbaşa əlaqələrini itirmiş işarələrdir. Bodriyyara görə, kütləvi informasiya vasitələri ilə reallıq müasir insanın təsəvvürünə birbaşa yayım rejimində nüfuz edir. Təbii ki, audio-və vizual obrazlar məkanında KİV-in zaman daxilində sürətlə dəyişən dinamikası real sosial proseslərin ritminə təsir etmək imkanına malikdir.

Müasir dövrün nüfuzlu sosioloqlarından olan P.Burdye isə əsərlərində sosial kommunikasiyanın problematikasına dair sosial məkan fenomeninə diqqət yetirir. Bu anlayışa o, subyektlərin yalnız real məkanda mövcudluğunu deyil, həmçinin onların şəxsi dünyasını da aid edir. Burdyeyə görə, məkan sosial münasibətlərin müəyyənləşmiş, strukturlaşmış, nisbətən qapalı, avtonom sosial kommunikasiya sahəsidir. Qeyd edilən kontekstdə tədqiqatçı cəmiyyəti müəyyən sferalara ayrılmış kommunikasiyaların məcmusu kimi təqdim edir və öz işlərində müfəssəl şəkildə "hüquqi sahə", "sosial elmlər sahəsi", "iqtisadi sahə", "siyasi sahə", "jurnalistika sahəsi" və s. sahələri analiz edir[83]. Qeyd olunan yanaşmalardan məlum olur ki, həyat tərzinin dəyişilməsi fərdi münasibətlərdə də yeni qaydaların müəyyənləşdirilməsini vacib edir. Çünki müasir informasiya cəmiyyəti şərtləri daxilində kommunikasiya, əsasən, şəbəkə formatında dövr edən çoxölçülü diskursiv əlaqələr şəklində təzahür edir. Deyilənlərdən çıxış edərək,

[83]Бурдье П. Социальное пространство: поля и практики. М., Институт экспериментальной социологии. СПб., 2005, с.78 // https://www.academia.edu/6419540/%D0%91%D1%83%D1%80%D0%B4%D1%8C%D0%B5_%D0%9F_%D0%A1%D0%BE%D1%86%D0%B8%D0%B0%D0%BB%D1%8C%D0%BD%D0%BE%D0%B5_%D0%BF%D1%80%D0%BE%D1%81%D1%82%D1%82



kommunikasiyanın müasir dövr üçün xarakterik xüsusiyyətlərini, ümumilikdə, belə xarakterizə etmək olar:

- öz mövqeyinin səhv ola biləcəyi fikrini qəbul etməyə hazır olmaq;
- dialoqda qarşılıqlı anlaşmanın əldə olunması üçün həmsöhbətlərin prinsipial məqamlarda mövqelərini tənzimetmə bacarığı;
- kommunikativ təcrübənin plüralizmi; kommunikasiyanın bütün iştirakçılarına qarşı tolerant münasibət.

Bu prinsiplər sırasında kommunikasiyanı rasional hadisə kimi nəzərdən keçirənlər də vardır, lakin bu yanaşma perspektivli görünmür. İnformasiya cəmiyyətinin şəbəkə tipi informasiya selinin misilsiz sürəti ilə bağlıdır. Belə şərait biliyin "silinməsi" effektini yaradır. Fərdin şüurunda özünə möhkəm yer etməmiş norma və dəyərlər natamam forma alır, tez sıradan çıxır və ya yeni təsəvvürlərə qarışır.

Beləliklə, sosial kommunikasiyanın təbiətinə dair fikirləri belə ümumiləşdirmək olar ki, fərdlərin qarşılıqlı əlaqələrində razılaşma və anlaşmanın mühüm yer tutması, sosial kommunikasiyanın diskursiv mahiyyət daşıması aparıcı mahiyyətlər kimi dəyərləndirilə bilər. Yəni kommunikasiyanın bütün iştirakçıları dərk etməlidirlər ki, gerçək münasibət dialoqda formalaşa bilər.

Müasir insan mürəkkəb sosial mühitdə yaşayır. Belə ki, o, cəmiyyət içində, insanların əhatəsindədir, digər tərəfdən isə onu informasiya axını əhatə edir. Cəmiyyət tədricən informasiya texnologiyalarının iştirakı ilə yaranan ölçüyəgəlməz kommunikativ imkanlara malik "Ümumdünya Hörümçək Toru" həyat tərzinə köklənir. İnternetə daxil olaraq insanlar mühitə adaptasiya olmağa, digər insanlarla təmas qurmağa, sosiallaşmağa cəhd edirlər, lakin bu əlaqələr birbaşa kommunikasiya vasitəsilə deyil, əsasən, "Dünya şəbəkəsi"nin

təqdim etdiyi işarələr vasitəsilə gerçəkləşir. Başqa sözlə, mövcud şəraitdə insan bilavasitə insanlarla deyil, işarələrin təqdim etdiyi reallıqla qarşılaşır. İşarələr vasitəsilə təqdim edilən reallıq, təbii ki, hər bir fərd tərəfindən özünəməxsus şəkildə qavranılır, yəni burada fərdin dünyagörüşü, bilik səviyyəsi, interpretasiya imkanları və s. ilə bilavasitə bağlı olan mürəkkəb proseslər nəzərdə tutulur. Başqa sözlə, insanın dünyanı qavraması, baş verənlərə münasibəti məhz işarələrdən aldığı məlumatlar vasitəsilə formalaşır. Burada o, (yəni insan) sosial fəaliyyətin iştirakçısı kimi kənarda qalır və bu məqamda dilin mühüm əhəmiyyət daşıyan birbaşa inteqrasiya funksiyası aradan çıxır.

Fərdlərin davranışı ətraf mühitdən alınan fərqli və mürəkkəb məlumatlarlar vasitəsilə müəyyənləşir. Bir məqama da diqqət yetirməyə dəyər: belə ki, postmodernizm rasional idrakın və reallığın izahının mümkünlüyünü bu və ya digər şəkildə inkar edir. Bununla əlaqədar olaraq Liotar ictimai quruluşu təhlil edən qlobal nəzəriyyələri ictimai fikrin manipulyasiyasına cəhdlər kimi dəyərləndirir. Bu manipulyasiyanın məqsədi isə tarixi inkişafa təsir etməkdir və buradan belə qənaət yaranır ki, əgər bütün nəzəriyyələr mahiyyətlərində manipulyasiyadırlarsa, deməli, gerçək ola bilməz[84]. Qeyd etmək lazımdır ki, postmodernistlərin müasir cəmiyyətdə dilin roluna dair özünəməxsus mövqeləri vardır. Onlar hesab edirlər ki, dil insanın həyatı boyu təmasda olduğu yeganə reallıqdır. Yəni dil elə bir varlıqdır ki, o, ictimai həyatın bütün sahələrini əhatə edir və məhz dil vasitəsilə bu sahələrin dərk edilməsi prosesi reallaşır.

[84]http://knigi.link/teoriya-kommunikatsii_1295/postmodernistyi-yurgen-habermas-38590.html



Liotara görə, informasiya bu gün yalnız tələbatlılığı və faydalılığı qədərində lazımdır. O, informasiyanı bir əmtəə kimi nəzərdən keçirir və bu yanaşmasında tamamilə haqlıdır. Yəni informasiya cəmiyyətini xarakterizə edən əsas məqam elə budur. Belə ki, əvvəllər insan dünyanı özü üçün açmaq, onu dərk etmək naminə biliyə can atırdısa, bu günün insanı ilk növbədə biliyin əldə edilməsinə sərf etdiyi zamanın onun pul qazanmasına nə qədər fayda verəcəyi haqqında düşünür.

Bodriyar müasir mədəniyyəti işarələr sistemi kimi nəzərdən keçirir və hesab edir ki, hazırkı cəmiyyətin sənayeyəqədərki və sənaye cəmiyyətindən fərqi ondadır ki, müasir dövrün insanının bir gün ərzində qəbul etdiyi işarələri əvvəlki dövrlərdə yaşayan insanlar bütün ömürləri boyu mənimsəyirdilər və belə şəraitdə işarələr təsvir etdikləri gerçəkliklərdən uzaqlaşırlar. Badriyarın təbiri ilə desək, onu simulyasiya edirlər. Yəni işarələr artıq öz autentikliklərini itirirlər. Təbii ki, bu, ilk növbədə, bugünkü həyatın son dərəcə sıx və intensiv xarakter daşıması ilə əlaqədardır.

Mövcud situasiyanı dəyərləndirərək Bodriyar "simulyakr" (orijinalı olmayan kopiya) anlayışını elmi dövriyəyə daxil etdi. Yənu bu anlamda işarə öz mövcud gerçəkliyi ilə əlaqəsini itirir, artıq özü bir gerçəklik, reallıq kimi çıxış edir və bu gerçəklik hər cür hadisəni, faktı real mahiyyətindən uzaq, daha çox təqdim edənin məqsəd və istəklərinə müvafiq şəkildə ifadə edir və təbii ki, reallığı əvəz edir. Bu gün kompüter qrafikası hər bir hadisəni gerçəyəbənzər şəkildə simulyasiya etmək imkanına malikdir.

Alman filosofu, və sosioloqu Yurgen Habermas postmodernistlərin müasir dünyanın işarələr sistemindən ibarət olması ilə razılaşırdı, lakin o, işarənin birmənalı şəkildə autentlik təşkil etməməsi fikrini qəbul etmirdi. Yurgen Habermas hesab edirdi ki, informasiya cəmiyyətində işarələr insanlara xidmət

etməli, cəmiyyətin inkişafına imkanlar yaratmalıdırlar. O, hesab edrdi ki, KİV-lərin dünya mənzərəsini təhrif etmələrinə yol verilməməli, cəmiyyətdə yaranan problemlər rasional şəkildə müzakirə edilməli və hər bir şəxs ilkin informasiya əldə etmək imkanlarına malik olmalıdır.

Habermasın təqdim etdiyi model, mahiyyət etibarilə, heç bir zaman mövcud olmayıb. Bu, heç mümkün də deyil. Əvvəla, ona görə ki, məsələlərə dair müxtəlif münasibətlər və qiymətləndirmələr mövcuddur, yəni burada subyektiv amil diqqətdən kənarda qalmamalıdır, digər tərəfdən isə hadisələrin, faktların müəyyən niyyətlər və məqsədlər çərçivəsində manipulyasiyasına hər zaman cəhdlər edilib və bundan sonra da ediləcək.

Qlobal informasiya cəmiyyətinin formalaşmasında və onun inkişafında ortaya çıxan problemlər sırasında dil maneəsi mühüm yerlərdən birini tutur. Bugün informasiyanın böyük bir qismi, qeyd edildiyi kimi, internetdə ingilis dilində təqdim olunur. Lakın başqa dillərdə də kifayət qədər ciddi əhəmiyyət daşıyan, maraqlı materiallar az deyil. Burada dillərarası kommunikasiya imkanlarının inkişafı mühüm əhəmiyyət kəsb edir. Bunun aradan qaldılması asan məsələ deyil, lakin daha optimal yol kimi, məlumatların bir çox dillərdə istifadəçilərə təqdim edilməsi ola bilər. Yalnız belə şəraitdə internet beynəlxalq ünsiyyəti real şəkildə gerçəkləşdirə bilər. Alınan məlumatlar belə deməyə imkan verir ki, bu istiqmətdə intensiv tədqiqat işləri aparılır və yaxın gələcəkdə dəyişikliklərin yaranacağına ümid etmək olar.

Qeyd edilən şəraitdə linqvistika bugün böyük məsələlərin həllinin astanasındadır, belə ki, kommunikasiya məsələləri dövrün ən aktual problemlərindən biri kimi təzahür edir və bunların araşdırılması dərin nəzəri, metodoloji təhlil



aparılmadan, linqvistikanın yeni reallıqda rolu müəyyənləşdirilmədən mümkün deyil.

Burada bir mühüm cəhət də ondadır ki, informasiya cəmiyyətində elmin funksiyası dəyişir; o, elmi biliklərin istehsalı və yayılmasında əsas resurs rolunu oynamağa başlayır. Bu prosesdə linqvistika prioritet yerlərdən birini tutur, çünki informasiya cəmiyyətinin əsas tipoloji xüsusiyyətini ehtiva edən qlobal kommunikasiya problemləri onun əsas tədqiqat sahələrindəndir. Təbii və süni dillərin informasiya məkanı, xüsusi və ümumi linqvistika, dillər, onlar haqqında elmdə sinergetik təsəvvürlər, kompüter texnologiyalarında dilin tətbiqi və s. məsələlər informasiya cəmiyyətində meydana gələn problemlərdir[85]. O da nəzərdən qaçırılmamalıdır ki, bütün bu deyilənlərə rəğmən, qeyd edilən məsələlərin araşdırılmasını gerçəkləşdirmək üçün hələ müvafiq üsul və metodlar qətiləşməyib.

Biliyin ötürülməsində əhəmiyyətli amillərdən biri kimi çıxış edən informasiya bütün cəmiyyətlərdə çox vacib rol oynayır. İnformasion, postindustrial konsepsiyalar istehsal resursları bilik və informasiya olan cəmiyyətləri nəzərdə tutur. Qeyd edək ki, E.Masuda informasiya cəmiyyətini postsənaye cəmiyyətinin yüksək mərhələsi kimi müəyyənləşdirir. D.Bell cəmiyyətin inkişafında informasiyanı resusr kimi dəyərləndirir. Qeyd olunan cəmiyyətlərdə istehsalın strukurunda kommunikasiya dominant mövqe tutur. Yəni informasiya cəmiyyətində yalnız istehsal deyil, bütövlükdə həyat tərzi dəyişir. Yuxarıda qeyd edildiyi kimi, biliyin istehsalı və istehlakı əsas cəhət kimi özünü göstərir. Bunun da nəticəsi olaraq əqli əməyin payı artır. İnformasiya cəmiyyətinin sosial

[85] https://lingvistics_dictionary.academic.ru/1318/

təşkili kommunikativ aktivliyi stimullaşdırır, informasiyanı ictimai həyatın inkişafının, sabitliyinin, təhlükəsizliyinin mühüm qarantı kimi reallaşdırır. Müasir tədqiqatçıların bir çoxu (N.Luman, M.Maklüyen, Y.Xabermas, U.Eko və b.) sosiumu ünsiyyət dünyası kimi təqdim edirlər. Bunun həyata keçməsində informasiya vasitələrinin əhəmiyyətli rol oynadığını, insanların dünyada öz mövqelərini müəyyənləşdirməkdə, bir-biri ilə qarşılıqlı əlaqələr qurmaqda mühüm üsul olduğunu qeyd edirlər. Yaxın keçmişə qədər informasiyanın qəbul edilməsində əsas vasitələr televiziya, radio və çap nəşrləri idi. Ümumdünya İnternet şəbəkəsinin yaranması ilə yeni kommunikativ mühit formalaşdı. Elə bir spesifik məkan yarandı ki, orada hər bir şey virtual vəziyyətdə təqdim oluna bilir. İnsanın ölçüyəgəlməz informasiya əldə etmək imkanları yaranır. Virtual reallıq müasir cəmiyyətdə kommunikasiya proseslərində mühüm yer tutur. Yeni şərait virtual reallığın insanın həyatında yetərliliyi məsələsini ön plana çıxarır və bu istiqamətdə mübahisəli mövqelər mövcuddur. Bu ondan irəli gəlir ki, internetdən istifadə zamanı saysız-hesabsız müsbət cəhətlərlə yanaşı, bəlkə, ondan da çox, mənfi cəhətlər meydana çıxır. Yəni insan həyatının bütün sahələrini əhatə edən mühit haqqında birmənalı qiymətləndirmə mövcud deyil. Bununla belə, fakt olaraq virtual reallıq kütləvi kommunikasiya üçün görünməmiş imkanlar açır və onu müasir cəmiyyətin ayrılmaz bir hissəsinə çevirir. O, cəmiyyətin bütün sahələrini–iqtisadiyyatı, siyasəti, mədəniyyəti, eləcə də beynəlxalq, qruplararası və fərdi münasibətləri əhatə edir. Mahiyyəti üzrə sosial məna kəsb edən kütləvi informasiya, bütövlükdə, cəmiyyətin fəaliyyətinin optimallaşdırılmasında, fərdin sosiallaşmasında və cəmiyyətə inteqrasiya olunmasında güclü təsir imkanlarına malikdir.



# IV FƏSİL. AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAF TENDENSİYALI

## 4.1. Dünya sivilizasiyasının inkişafında informasiya cəmiyyəti mərhələsi

İnformasiya cəmiyyəti müasir tariximizidə mühüm mərhələ olaraq özünü göstərir və gələcək sivilizasiyanın xarakteri bizim onu dərk və qəbul etməyimizdən çox asılıdır. Elmi-texniki tərəqqinin sürətli inkişafı nəticəsində cəmiyyətdə məhsuldar qüvvələr artır, ekoloji vəziyyət dəyişir, iqtisadi inteqrasiya həyata keçir. Texniki tərəqqi planetar cəmiyyətin bütün geosiyasi və sosial təbiətinin yenidən dəyərləndirilməsinə tələbat yaradır. Belə şəraitdə alternativ inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və hadisələrin gedişatına insanların təsiri məsələlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu mənada akademik N.N.Moiseyev qeyd edir ki, informasiya cəmiyyətini yalnız elektron və kompüter mühəndisliyi ilə deyil, sivilizasiyanın keyfiyyətcə yeni mərhələsi kimi Kollektiv Ümumplanetar Ağlın bərqərar olması ilə əlaqələndirmək lazımdır.[86]

İnformasiya cəmiyyətinin formalaşması prosesi kifayət qədər dərin olduğundan problemin təhlili tədqiqatçının üzərinə böyük məsuliyyət qoyur. Belə mürəkkəb situasiyada insan, təbii olaraq, özünüifadədə yeni formalar, fərdi azadlığın əldə olunmasında fərqli imkanlar aramağa başlayır. Mürəkkəb şərait dedikdə, ilk növbədə, formalaşan yeni mənəvi mədəniyyətin müxtəlif elementlərini ehtiva edən kompüter savadlılığı, informasiya sahəsində geniş məlumata sahib olmaq, humanitar rasionallıq kimi müasir insanı xarakterizə edən xüsusiyyətlər nəzərdə tutulur. Məhz bu cəhətlərə sahib olan fərd bu gün

[86] https://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev.pdf

informasiyanın adekvat şəkildə dərk edilməsinə, sosial mahiyyət daşıyan təfəkkür və davranış tərzinə malik ola bilir. Burada humanitar rasionallıq anlayışına münasibət bildirmək istərdik. Təbii ki, hər bir nəzəriyyə rasionallığın təzahürüdür və əksər hallarda ağıl, idrak anlayışlarına sinonim kimi işlədilir. Həqiqətdə isə insan ağlı ona sinonim kimi təqdim edilən rasionallıqdan daha dərin və çoxşaxəlidir. Ağıl canlı, fərdi təfəkkür olaraq bir çox hallarda rasionallıqdan kənardlr, çünki o, fərdi şüurdankənara istinad edə bilir, intuisiya və yaradıcı potensiala malikdir. Yəni son nəticədə, ağıl mədəniyyətin mənbəyi kimi təzahür edir. Humanitar rasionallıq dedikdə isə burada söhbət rasionallığın humanitar sahələrə tətbiqindən, onun müasir fəlsəfi biliklərə təsirinin dərk edilməsindən gedir. Qeyd edilən anlayışın aktuallaşmasına səbəb isə son dövrlərdə bəşəriyyətin ümumi idrakı və dünyagörüşü böhranından məhz humanitar idrakın inkişafının çıxış yolu olduğu fikirlərinin tez-tez səslənməsidir.

Cəmiyyətin qlobal informasiyalaşması fərdin zehni fəaliyyətinə keyfiyyətcə tamamilə yeni mahiyyət verir. Lakin burada belə bir hadisə də baş verir ki, informasiyanın böyük həcmdə daxil olması insan təfəkkürünü sanki "sözəbaxan" bir alətə çevirir, çünki informasiya texnologiyaları fikrin ifadə edilməsinə əvvəlcədən proqram verir. Yəni müasir insanın təfəkkür mədəniyyəti onun sahib olduğu informasiyanın səviyyəsindən və keyfiyyətindən asılı olur. Təfəkkür tərzlərinin səviyyəsi yüksək olan fərdlər kompüterdən alınan neqativ məlumatların təsirinə düşmürlər.

Müasir informasiya cəmiyyətinin spesifikliyi ondadır ki, o, mövcud olan mənəvi-intellektual imkanları ictimai həyatın bütün forma və strukturlarında, ilk növbədə, fəlsəfədə, sosial-iqtisadi təsisatlarda, əxlaqda, siyasətdə, dində, mənəviyyatda, humanist mahiyyət daşıyan bütün beynəlmiləl mövqelərdə həcmli şəkildə



əks etdirə bilir. Lakin cəmiyyətin inkişaf perspektivləri, yəni yeni informasiya-kommunikasiya texnologiyalarının yaranması və bunun nəticəsi olaraq əmək sferasında yaradıcı imkanların artması ilə bütün ictimai münasibətlərin humanistləşməsi və insan varlığının ictimai inkişafın əsas tənzimləyicisinə çevrilməsi prosesləri eyni zaman çərçivəsində reallaşa bilmir.

Dünyanın bir sıra ölkələrində hazırda yeni sosial-iqtisadi mərhələyə, yəni özündə milli informasiya infrastrukturunu ehtiva edən qlobal informasiya cəmiyyətinə keçid müşahidə olunur. Bu mənada ümumdünya informasiya məkanına daxilolma və informasiya infrastrukturunun inkişafının sürətləndirilməsi baxımından informasiyalaşmanın müxtəlif modelləri yaranır və təbii ki, bu proseslər müxtəlif ölkələrdə fərqli şəkildə reallaşır. Lakin, bir qayda olaraq, makroiqtisadi siyasət və informasiya cəmiyyətinin formalaşması kontekstində dövlət konsepsiyası qanunvericilik sisteminin spesifikliyini, milli mədəniyyəti, mental xüsusiyyətləri nəzərdə tutur. Şərti olaraq informasiya cəmiyyətinin iki modeli Şərq və Qərb modelləri ayrılır. Qərb modeli kontekstində, əsasən, Amerika istiqamətinə müvafiq olan Avropanın seçdiyi yol, Şərq ölkələri sırasında isə Çin (ÇXR) aparıcı mövqeyə malikdir. Mövcud situasiyada, əsasən, dövlət və bazarın rolu dəyişə bildiyindən, Avropa İttifaqı ölkələrinin makroiqtisadi siyasətinin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada dövlət tərəfindən nəzarətlə bazar qanunları arasında müəyyən balansın yaradılması nəzərdə tutulur. İnformasiya cəmiyyətinin inkişafında dövlətin rolu ilə əlaqədar 1993-cü ildə Aİ-nin qəbul etdiyi qətnamədə qeyd olunur ki, bazar və sosial istiqamətlər arasında balansın yaradılması vacib şərtdir.[87] Bununla yanaşı, Aİ bu gün informasiya-kommunikasiya texnologiyalarının özəlləşdirilməsinə və liberallaşdırılmasına böyük önəm verir. Qeyd edək ki, bir

[87]http://emag.iis.ru/arc/infosoc/emag.nsf/BPA/1f41ce7df933b2dfc32568c50027cde3

çox Avropa ölkələri üçün özəlləşdirmə problemi artıq mövcud deyil, bu ölkələrdə əsas diskussiyalar telekommunikasiyanın liberallaşdırılması ətrafında gedir və beynəlxalq səviyyədə müzakirə olunan ən vacib məsələlərdən biridir.

İnformasiya cəmiyyətinin amerikan yolu ümumi sosial-iqtisadi inkişaf modeli kimi formalaşır. Bu modeldə dövlətin funksiyası minimuma endirilir, fərdi şəxslərin fəaliyyətinə isə daha çox imkan verilir. Burada vacib olan hər şeyin özəl sektorun və bazarın əlində saxlanması, informasiya və telekommunikasiya texnologiyaları bazarının tam liberallaşdırılması məsələsidir. Bu mənada informasiya supermagistrallarının inkişafına, onların sosial istiqamətinə və universal xidmət məsələlərinə böyük əhəmiyyət verilir. Qeyd etmək istərdik ki, xidmət məsələlərində ABŞ və İngiltərə həmrəydirlər. Yəni onlar hesab edirlər ki, əvvəlcə informasiya şəbəkələri qurulmalıdır və bunların əsasında sonradan xidmət sahəsini inkişaf etdirmək lazımdır. Lakin informasiya prosesinə mədəni təsirlərə dair münasibətlərdə bu ölkələr yekdil fikirdə deyillər. ABŞ-da yeni informasiya texnologiyalarının köməyi ilə "evdə əyləncə" proqramlarının inkişaf etdirilməsinə əsas diqqət yetirilir, Böyük Britaniyada isə belə məhsullara olan tələbat mühüm mahiyyət daşımır. Yəni informasiya cəmiyyətinin inkişafı modellərinin müəyyənləşdirilməsində mühüm məsələlərdən biri də milli-mədəni xüsusiyyətlərin nəzərə alınmasıdır, çünki müxtəlif ölkələrdə məhz bu cəhət bir çox hallarda informasiya texnologiyalarına olan tələbatı müəyyənləşdirir.

İnformasiya cəmiyyətinin Şərq modelinin inkişafı Qərb modelinə alternativ olaraq işlənib hazırlanıb. Burada prioritet mövqe olaraq sənayeləşmədə, informatizasiyada və sosial inkişafda, ilk növbədə, Şərq dəyərlərinə əsaslanma nəzərdə tutulur. Asiya siyasətçilərinin fikrincə, birgəyaşayışın və



birgətərəqqinin reallaşdırılmasında dövlətin yardımı müvəffəqiyyətin əsasını təşkil edir. Şərq modeli çərçivəsində Yaponiya, *"Asiya Pələngləri"* (Cənubi Koreya, Sinqapur, Honkonq, Tayvan), Çin, Hindistan önə çıxır.

*"Asiya Pələngləri"*nin informasiya sahəsində inkişaflarının əsasında dövlətin və bazarın qarşılıqlı əməkdaşlığı modeli durur. Bu ölkələrin uğuru onunla bağlıdır ki, kapital qoyuluşunda dövlət bilavasitə iştirak etdiyindən qərarların qəbul edilməsi də onun müdaxiləsi ilə reallaşır, həmçinin informasiya infrastrukturunun yaradılmasında özü (yəni dövlət) fəal iştirak edir. Bu mövqeyə görə, ölkənin hədəfi hər bir evdə, məktəbdə və ya iş yerində kompüterlərin əlaqəsini təmin etmək imkanına malik dünyanın inkişaf etmiş milli informasiya infrastrukturuna sahib ölkələrindən biri olmaqdır.

Bir zamanlar texniki cəhətdən geridə qalan ölkə olan Çin bu gün dünyanın yeni texnologiyalarının mərkəzi hesab olunur. Hazırda Çin öz kommunikasiya şəbəkələrinin həcminə görə dünyada ikinci yeri tutur və yeni, ən mütərəqqi texnologiyaların mərkəzinə çevrilib. Hindistan isə nə tam özəlləşdirmə, nə də liberallaşdırma istiqamətlərini özü üçün inkişaf strategiyası kimi müəyyənləşdirməyib. Bu istiqamət "aralıq" model adlanır. Dövlət müəssisələri özəlləşdirilmir, rəqabət isə 49%-ni xarici müəssisələrin təşkil etdiyi yerli xidmət bazarında reallaşır. Şəhərlərarası və beynəlxaq əlaqə isə dövlətin əlindədir.[88] Qeyd etmək lazımdır ki, Hindistan qlobal informasiya cəmiyyəti istiqamətində əsas kapital olaraq insan resurslarını görür. Hazırda bu kapital ABŞ və Rusiyadan sonra üçüncü yerdədir. 1996-cı ildə Amerikanın 500 ən böyük

---

[88]Вершинская О.Н. Существующие модели построения информационного общества // Информационное общество, 1999, N 3, с. 57.// www.dzyalosh.ru/01-comm/books/stan-obshestva/1_3.html

şirkətindən 100-ü proqram təminatını Hindistandan alıb.[89] Bununla belə, Hindistan dünyanın kasıb ölkələrindən biri olaraq qalır.

Qeyd edilən şərhdən çıxış edərək, belə bir fikir söyləmək olar ki, müasir cəmiyyət inkişafının ziddiyyətli və qeyri-müəyyən dövrlərindən birini yaşayır. Yəni bilik cəmiyyətinə keçidə hazırlıq dərəcəsi, onun formalaşma modeli bu və ya digər sosiumun sosial-siyasi səviyyəsi ilə şərtlənir və bütün cəmiyyətlərin bərabər səviyyədə bu yeni mərhələyə keçidə hazır olması mümkün deyil. Buradan paradoks meydana gəlir. İnformasiya və telekommunikasiya texnologiyalarının tətbiqi iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır, onun dünya iqtisadi sisteminə inteqrasiyası imkanlarını genişləndirir, dövlət idarəçiliyinin və yerli özünüidarəetmənin səmərəliliyini artırır. Hazırkı dövrün durumu inamla bunu deməyə imkan verir ki, yeni texnologiyaların, İnternetin rolu sürətlə artacaq, yəni qeyd edilən inkişaf prosesinin artıq geriyə dönüşü yoxdur. Lakin bu proseslər dünyada mövcud olan bütün ölkələri əhatə etmir. Təbii ki, mövcud şərait dünyanın yeni mənzərəsini yaradır. Bu mənzərədə yüksək informasiya sıxlığı, inkişafın intensivliyi və yeni informasiya texnologiyalarının istifadəsi, əsasən, ABŞ, Avropa İttifaqı ölkələri, Yaponiyanın payına düşür. Digər ölkələrdə göstəricilər aşağıdır və bəzi yerlərdə isə, ümumiyyətlə, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bununla belə, elmi ədəbiyyatda belə bir fikir mövcuddur ki, hətta inkişafı yüksək səviyyədə olan ölkələr belə, tam mənada, informasiya cəmiyyəti hesab edilə bilməz. Hələ bu gün də bu ölkələrdə insanların böyük bir qismi adi əl əməyi ilə məşğuldur, bir çox sahələrdə köhnə texnologiyadan istifadə olunur, kommunikasiya infrastrukturu kifayət qədər inkişaf etməyib.

[89] Yenə orada, s.58.



Hazırda sivilizasion dixotomiya anlayışı geniş yayılıb. Burada sivilizasiyaların texnogen və ənənəvi formalara bölünməsi nəzərdə tutulur. Birinciyə resurslardan maksimal dərəcədə effektiv istifadə, fərdin müstəqilliyə can atması cəhdi xasdırsa, ikincini isə kollektiv və icma ortamının üstünlüyü xarakterizə edir. Texnogen sivilizasiyanın daşıyıcıları avro-amerikanlılardırsa, ənənəvi sivilizasiyaya Şərqin bütün sivilizasiyaları misal ola bilər. Lakin bu gün baş verən hadisələrin fonunda belə bir bölgünün yetərsizliyi məlum olur və müxtəlif xalqların, ölkələrin bu sahədə xüsusiyyətlərinin daha dərindən təhlil edilməsinə ehtiyac yaranır. Yəni Yaponiya, Sinqapur, Tayvan, Cənubi Koreya və s. bu kimi ənənəvi cəmiyyətlər texniki inkişafın yüksək mərhələsinə çata bilmişlər. Akademik N.N.Moiseyev "İnformasiya cəmiyyəti: imkanlar və reallıq" (Информационное общество: возможности и реальность) əsərində qeyd edir ki, "şəxsiyyət-cəmiyyət arasında qarşılıqlı əlaqələrdə, dəyərlər və prioritetlər sistemində, özünü, öz həyat tərzini qoruyub saxlamaq cəhdlərində bu ölkələr ənənəvi sivilizasiyalara aiddirlər. Postsənaye cəmiyyəti əsla yalnız Avropa nümunəsi deyil, o, bütün inkişaf etmiş ölkələrdə təzahür edir. İnformasiya cəmiyyətinə doğru növbəti addım hələ atılmalıdır və bu istiqamətdə Şərq və Qərb sivilizasiyalarının sintezi qaçılmaz görünür. Bu sivilizasiyalar çox fərqlidirlər, lakin bir-birinə lazımdırlar. Yəqin ki, bu sintez unifikasiya xarakteri daşımayacaq, sivilizasiya palitrasında rəngarəngliyi qoruyub saxlayacaq. Yalnız Şərq və Qərb mədəniyyətlərinin vəhdəti sayəsində meydana gələn müxtəliflik planetar cəmiyyətin mövcud olması üçün müvafiq strategiyanın müəyyən edilməsinə imkan yarada bilər".[90]

Şərq və Qərb bir çox hallarda fərqli mədəni ənənələri təqdim edir, çünki bu mədəniyyətlər özlərində müxtəlif

[90] URL: http://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev.pdf

mənəviyyat tiplərini ehtiva edirlər. Ənənələr xalqların həyat tərzlərində, psixologiyalarında, əxlaqi prinsiplərində, dəyərlər sistemində ifadə olunur. Şərq cəmiyyətlərində fərdlərin davranışını, əsasən, əsrlərdən bəri formalaşmış ənənəvilik prinsipinə söykənən dəyərlər idarə edir. Bu cəmiyyətlərin həyat tərzi davamlı təkrara istiqamətlənib. Ənənəvi cəmiyyətlər üçün özgüvən hissi həyat tərzi kimi təzahür edir. Adətlər, vərdişlər, insanlar arasında qarşılıqlı əlaqələr kifayət qədər sabitdir, fərd isə ümumi nizama tabedir. Mədəni dəyərlər və ənənələr Şərqdə Qərbdən daha çox fərdin şəxsiyyətini, onun davranışının təşkilini müəyyənləşdirir. Məsələyə bu və ya digər münasibət onu qane etməyə bilər, lakin o, ənənyə müvafiq tərzdə hərəkət etməyə məsuldur. Razılığın əldə edilməsi kollektivin bütün üzvləri ilə məsləhətləşmələrin aparılmasından sonra baş verir. Yəni Şərq insanı özünü qrupdan kənar təsəvvür etmir. Məhz kollektivdə fərd sosial hüquq və vəzifələrə malikdir və məhz bu mühitdən o, dəyərli dəstək alır.

Deyilənlər göz önündə belə bir mənzərə yaradır ki, Şərqin qabaqcıl ölkələri son onilliklərdə öz inkişaflarında əhəmiyyətli sıçrayış əldə etmişlər və bunun nəticəsində dünyanın yüksək tərəqqiyə malik ölkələri sıralarında yer tuta bilmişlər. Özü də bu sürətli tərəqqi Qərb texnologiyalarını, dəyərlərini təqlid etməklə deyil, öz ənənələrinə söykənərək bir sıra Qərb prinsiplərini yaradıcı şəkildə tətbiq etməklə reallaşıb. Məhz Şərq sivilizasiyasına məxsus güclü dövlət, cəmiyyətin şəxsiyyət üzərində prioritet mövqeyi, qarşılıqlı əlaqə və qrupa yönümlülük, harmoniya və sabitliyə meyillilik kimi ənənəvi xüsusiyyətlər bu inkişafın gerçəkləşməsinə şərait yarada bilib.



## 4.2. Azərbaycanda informasiya cəmiyyətinin inkişafı: reallıqlar və perspektivlər

İnformasiya cəmiyyətinə keçid hər bir ölkədə özünəməxsus şəkildə baş verir. Yəni informasiya cəmiyyəti sosial-siyasi hadisə olaraq, ictimai həyatın müxtəlif sahələrində artıq formalaşmış amillər üzərində qurulur. Bu amillər həmin dövr üçün cəmiyyətin inkişaf səviyyəsini əks etdirir. Bu baxımdan Azərbaycanda artıq intellektual və texniki baza sürətlə inkişaf edir və bu inkişafın xüsusiyyətlərinə müvafiq olaraq burada informasiya cəmiyyəti formalaşır. Dünyada baş verən proseslər, onları müəyyənləşdirən şərtlər bu gün belə bir gerçəklik ortaya qoyur ki, ölkənin hərtərəfli inkişafı yalnız informasiya cəmiyyəti istiqamətində reallaşa bilər. Yəni istər siyasi, istər iqtisadi, istərsə də mədəni sahədə inkişaf perspektivlərinin optimal istiqamətlərinin müəyyənləşdirilməsinin yeganə yolu informasiya cəmiyyətinin inkişafından keçir.

Azərbaycan Sovet İttifaqının tərkibində olarkən Ulu Öndər Heydər Əliyev ölkənin gələcəyinin telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafı ilə sıx bağlı olacağını bilirdi. Ona görə də hələ o dövrlərdə bu sahənin gələcəkdə inkişafını təmin etmək üçün müvafiq işlər görülməsinə xüsusi diqqət yetirirdi. Bu fəaliyyəti həyata keçirmək üçün hakimiyyətin, biznes strukturlarının və elmin birgə əməkdaşlığı lazım idi. Bu məqsədlə görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri nəticəsində 1970-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasında, ali məktəblərdə və sahə institutlarında elektron avadanlıqlar və telekommunikasiya texnologiyaları üzrə kadr hazırlığı genişləndirildi, istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, istehsalat müəssisələri tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Telekommunikasiya Elmi Mərkəzi,

hədəfi innovativ iqtisadiyyatın formalaşmasına təkan verməkdir. İqtisadiyyatın diversifikasiyası, neft sektorunun inkişaf etdirilməsi və ən əsası, bilik iqtisadiyyatının qurulması Konsepsiyanın əsas strateji istiqamətlərini əhatə edir. Təbii ki, bunların həyata keçirilməsi üçün vacib məsələ kimi, ilk növbədə ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi məsələsi qarşıda durur. Bunun reallaşdırılması üçün isə dövrün tələblərinə müvafiq olaraq İKT-nin, yüksək texnologiyaların inkişafını sürətləndirmək lazımdır. Azərbaycanda qeyd edilən sahə bu istiqamətdə müəyyən səviyyə əldə etmiş ölkələrlə müqayisədə hələ çox cavandır. Bununla belə, keçən əsrdən sürətlənən qlobal proseslərdən Azərbaycan da kənarda qala bilməzdi. Bu baxımdan ölkəmizdə də elektron hesablayıcı maşınlarla əlaqədar elmi araşdırmalar aparılmış, təhsil sistemində təlimlər keçirilmişdir. Yəni keçən əsrin 50-ci illərindən başlayaraq Azərbaycanda bu sahədə elmi-praktik işlər görülməyə başlandı və kibernetikada irəliləyişlər əldə edildi.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini ehtiva edir. Bu hədəflər informasiya cəmiyyətinə keçidi, İKT-nin inkişaf etdirilməsi sayəsində biliyə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsini, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin geniş tətbiqini və elektron xidmətlərinin inkişafını, cəmiyyətin informasiya məhsullarına və xidmətlərinə olan ehtiyaclarının təmin edilməsini və s. bu kimi müasir dövr üçün mühüm əhəmiyyət daşıyan məsələlərin həyata keçirilməsini nəzərdə tutur. Telekommunikasiya sahəsində yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin reallaşdırılması vasitəsilə region ölkələri arasında rəqəmsal fərqlərin aradan qaldırılması, güclü və davamlı informasiya infrastrukturunun yaradılması, e-ticarət və e-bazar



sistemlərinin inkişaf etdirilməsi, ölkənin qlobal informasiya məkanına inteqrasiyasının sürətləndirilməsi və s. məsələlər qarşıda həlli vacib olan prioritetlər olaraq durur. İnkişaf Konsepsiyasında informasiya sektorunda yeni təzahürlərin stimullaşdırılması ilə yanaşı, ənənəvi informasiya resurslarının səmərəli təşkili, maddi-texniki bazasının möhkəmləndirilməsi də mühüm məsələ kimi nəzərdə tutulub. Qeyd olunan fəaliyyət informasiya sektorunun ahəngdar inkişafını təmin etmək məqsədi güdür.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafı məsələləri mühüm istiqamətlərdən biri kimi yer almışdır. Strateji Yol Xəritəsi ölkədə informasiya-kommunikasiya texnologiyalarının inkişaf potensialının artırılması, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, İKT xidmətlərinə olan tələbin daxili mənbələr hesabına effektiv qarşılanması və dövlət sektorunun fəaliyyətində İKT-nin tətbiqi ilə səmərəliliyin daha da artırılması məqsədilə telekommunikasiya sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır.[93]

Yol Xəritəsi mükəmməl hazırlanmış, həyata keçiriləcək tədbirlər mərhələlərə bölünmüş, həmçinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının bugünkü inkişaf səviyyəsi ən kiçik detallarına qədər nəzərə alınmışdır. Belə ki, burada qısa, orta və uzunmüddətli dövrlər nəzərdə tutulmuşdur. Tədbirlər planında 2020-ci ilədək strateji baxış (bu dövr üçün 3 strateji hədəf və 10 prioritet istiqamət müəyyən edilmişdir),

---

[93] https://static.president.az/pdf/38542.pdf

"Neftqazavtomatika" və s. bu kimi elmi-tədqiqat müəssisələri yaradıldı, "AZON", "NORD" elm-istehsalat birlikləri, radio, elektron hesablama maşınları zavodları, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Diqqətəlayiq haldır ki, ümumən 30-dan artıq belə müəssisə təkcə Bakıda deyil, həmçinin Naxçıvanda, Mingəçevirdə, Gəncədə, Sumqayıtda, indiki Tərtər və Şirvanda da işə salınmışdır.[91]

Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ölkənin inkişafında bu sahənin aparıcı istiqamət olduğunu diqqət mərkəzinə gətirdı. Sənədin qəbul olunmasında məqsəd ölkənin dinamik inkişafını, informasiya-konmmunikasiya texnologiyalarının geniş tətbiqi sayəsində informasiya cəmiyyətinə keçidi təmin etmək olmuşdur. Qeyd edilən sənədi rəhbər tutaraq ölkə Prezidenti İlham Əliyev İKT-nin inkişafının təmin edilməsi istiqamətini nəzərdə tutan "Azərbaycan Respublikasın-da rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nı (Elektron Azərbaycan)" imzaladı. Bu sənəd ölkənin ümumi inkişafında şox mühüm bir mərhələ oldu. Belə ki, proqram elektron hökumətin yaradılması ilə yanaşı, mahiyyət etibarilə çox mürəkkəb xarakter daşıyan informasiya cəmiyyətinə keçidi təmin edə biləcək tədbirlərin reallaşdırılmasını ehtiva edirdi. Tədbirlər dedikdə isə təbii ki, ilk növbədə ölkəmizdə rabitə və informasiya texnologiyaları bazarında azad rəqabət mühitinin formalaşdırılması, investisiyaların cəlb olunması,

[91]http://www.anl.az/down/medeniyyet2008/sentyabr/medneiyyet2008_sentyabr_56.htm



ən əsası isə bu sahədə özəl sektorun inkişaf etdirilməsinə imkanların yaradılması nəzərdə tutulur. Proqramda təqdim edilən normativ-hüquqi baza Azərbaycanda, sözün gerçək mənasında, bu sahənin inkişafına güclü təkan verdi. Belə ki, telekommunikasiya infrastrukturu müasirləşdirildi, ən yeni texnologiyaların tətbiqi gücləndirildi, əhaliyə, müəssisə və təşkilatlara göstərilən rabitə xidmətlərinin kəmiyyəti və keyfiyyəti yüksəldildi. Bununla yanaşı, sözügedən proqrama uyğun olaraq dövlət orqanlarının vətəndaşlara, təşkilatlara təqdim etdikləri xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və onların təqdimolunma müddətinin azaldılması, dövlət orqanlarının işinin səmərəliliyinin artırılması məqsədilə müxtəlif məzmunlu layihələr həyata keçirildi. Əhalinin dövlət reyestrinin formalaşdırılması, vergi ödəyicilərinə elektron xidmətlərin göstərilməsi, sahibkarlıq subyektlərinin qeydiyyata alınması üçün "Vahid pəncərə", elektron sağlamlıq kartı xidməti, gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılması sistemlərinin tətbiqi, daşınmaz əmlakın milli kadastrı və qeydiyyatının şəbəkə informasiya sisteminin, təhsilin idarəolunması üzrə məlumat sisteminin yaradılması, eləcə də elektron satınalmalar, internet vasitəsilə ali məktəblərə tələbə qəbulu üzrə xidmət sistemlərinin yaradılması proqra-mın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir.[92]

Bugün Azərbaycanda iqtisadiyyatın yüksəldilməsi və sosial həyatın keyfiyyətinin artırılması məqsədilə çoxsaylı dövlət proqramları həyata keçirilir. Bu məqsədlə Azərbaycan Res-publikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edildi. Bu konsepsiyanın əsas

[92]Yenə orada.

hədəfi innovativ iqtisadiyyatın formalaşmasına təkan verməkdir. İqtisadiyyatın diversifikasiyası, neft sektorunun inkişaf etdirilməsi və ən əsası, bilik iqtisadiyyatının qurulması Konsepsiyanın əsas strateji istiqamətlərini əhatə edir. Təbii ki, bunların həyata keçirilməsi üçün vacib məsələ kimi, ilk növbədə ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi məsələsi qarşıda durur. Bunun reallaşdırılması üçün isə dövrün tələblərinə müvafiq olaraq İKT-nin, yüksək texnologiyaların inkişafını sürətləndirmək lazımdır. Azərbaycanda qeyd edilən sahə bu istiqamətdə müəyyən səviyyə əldə etmiş ölkələrlə müqayisədə hələ çox cavandır. Bununla belə, keçən əsrdən sürətlənən qlobal proseslərdən Azərbaycan da kənarda qala bilməzdi. Bu baxımdan ölkəmizdə də elektron hesablayıcı maşınlarla əlaqədar elmi araşdırmalar aparılmış, təhsil sistemində təlimlər keçirilmişdir. Yəni keçən əsrin 50-ci illərindən başlayaraq Azərbaycanda bu sahədə elmi-praktik işlər görülməyə başlandı və kibernetikada irəliləyişlər əldə edildi.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini ehtiva edir. Bu hədəflər informasiya cəmiyyətinə keçidi, İKT-nin inkişaf etdirilməsi sayəsində biliyə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsini, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin geniş tətbiqini və elektron xidmətlərinin inkişafını, cəmiyyətin informasiya məhsullarına və xidmətlərinə olan ehtiyaclarının təmin edilməsini və s. bu kimi müasir dövr üçün mühüm əhəmiyyət daşıyan məsələlərin həyata keçirilməsini nəzərdə tutur. Telekommunikasiya sahəsində yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin reallaşdırılması vasitəsilə region ölkələri arasında rəqəmsal fərqlərin aradan qaldırılması, güclü və davamlı informasiya infrastrukturunun yaradılması, e-ticarət və e-bazar



sistemlərinin inkişaf etdirilməsi, ölkənin qlobal informasiya məkanına inteqrasiyasının sürətləndirilməsi və s. məsələlər qarşıda həlli vacib olan prioritetlər olaraq durur. İnkişaf Konsepsiyasında informasiya sektorunda yeni təzahürlərin stimullaşdırılması ilə yanaşı, ənənəvi informasiya resurslarının səmərəli təşkili, maddi-texniki bazasının möhkəmləndirilməsi də mühüm məsələ kimi nəzərdə tutulub. Qeyd olunan fəaliyyət informasiya sektorunun ahəngdar inkişafını təmin etmək məqsədi güdür.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafı məsələləri mühüm istiqamətlərdən biri kimi yer almışdır. Strateji Yol Xəritəsi ölkədə informasiya-kommunikasiya texnologiyalarının inkişaf potensialının artırılması, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, İKT xidmətlərinə olan tələbin daxili mənbələr hesabına effektiv qarşılanması və dövlət sektorunun fəaliyyətində İKT-nın tətbiqi ilə səmərəliliyin daha da artırılması məqsədilə telekommunikasiya sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır.[93]

Yol Xəritəsi mükəmməl hazırlanmış, həyata keçiriləcək tədbirlər mərhələlərə bölünmüş, həmçinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının bugünkü inkişaf səviyyəsi ən kiçik detallarına qədər nəzərə alınmışdır. Belə ki, burada qısa, orta və uzunmüddətli dövrlər nəzərdə tutulmuşdur. Tədbirlər planında 2020-ci ilədək strateji baxış (bu dövr üçün 3 strateji hədəf və 10 prioritet istiqamət müəyyən edilmişdir),

---

[93] https://static.president.az/pdf/38542.pdf

2025-ciilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış nəzərdə tutulub.

2005-ci ildə qəbul edilmiş "İnformasiya əldə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda internet məlumatlarının çatdırılmasına məsul olan dövlət orqanlarının struktur bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi məsələləri də diqqətdən kənarda qalmayıb. Burada əsas fəaliyyət istiqaməti olaraq KİV tərəfindən media məlumatlarının alınması, yayılmasının sürətləndirilməsi, dövlət orqanları ilə media arasında qarşılıqlı etimadın və əməkdaşlığın gücləndirilməsinə dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.[94]

Azərbaycan hazırda həyatın bütün sahələrində böyük inkişaf dövrünü yaşayır. Bu inkişafın parametrlərini isə ilk növbədə vətəndaşların sosial müdafiəsi, qlobal dünyaya inteqrasiya, iqtisadiyyatın sürətli inkişafı və s. bu kimi məsələlər təşkil edir. Bunu təmin edən mühüm amil isə müxtəlif sahələrin inkişafını reallaşdıran və onu sürətləndirən texnologiyaların tətbiq edilməsidir. Bununla yanaşı, dünyada baş verən proseslərə qoşulmaq və onlarda aktiv iştirak etmək, demokratiya, insan hüquqlarının qorunması və inkişaf etdirilməsi, beynəlxalq münasibətlərdə düzgün strategiyanın müəyyənləşdirilməsi kimi məsələlər də ölkənin ümumi inkişafını gerçəkləşdirən sahələrdir və təbii ki, yeni texnologiyalarsız bunlar həyata keçirilə bilməz. Bunların reallaşdırılması çox mürəkkəb xarakter daşıyır. Yəni qabaqcıl ölkələrin səviyyəsinə çatmaq üçün burada elm, təhsil və iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı sahəsində düzgün siyasətin yürüdülməsi mühüm şərtdir. Təbii ki, bu siyasətin aparıcı istiqaməti informasiya-kommunikasiya texnologiyalarının məqsədyönlü və sürətli inkişafının təmin edilməsidir. İKT-nin təhsil, səhiyyə, idarəetmə, bank, biznes, turizm və s.

[94] http://physics.gov.az/future_ru.pdf



sahələrə geniş şəkildə tətbiqi cəmiyyətin hər fərdinə bu imkanlardan hərtərəfli yararlanmaq imkanı verir. Azərbaycanda dövlət siyasətinin əsas prinsipi yaxın gələcəkdə bu sahənin inkişafını təmin edəcək proqramların işlənib hazırlanmasıdır. Burada daxili imkanların nəzərə alınması şərtilə beynəlxalq təcrübəyə istinad aparıcı mövqe tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da ölkənin gələcək inkişafını təmin edə biləcək bütün məsələlər ən incə detallarına qədər nəzərə alınıb. Milli Strategiyada prioritet istiqamətlər belə müəyyənləşdirilib:

- İKT infrastrukturu və xidmətləri;
- yüksək texnologiyalar sektorunun inkişafı;
- yüksək texnologiyaların inkişafı üzrə elmi-texniki potensialın gücləndirilməsi;
- "elektron hökumət"in inkişafı;
- İKT–cəmiyyətin inkişaf amili kimi;
- kadr hazırlığı;
- informasiya təhlükəsizliyinin təmin edilməsi;
- milli kontentin inkişaf etdirilməsi.[95]

Qeyd edilən istiqamətlərin inkişafını təmin etmək məqsədilə konkret vəzifələr nəzərdə tutulub. Bunlar ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə onun sosial-

[95] https://president.az/articles/11312

iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsidir.[96]

Məlumdur ki, təbii sərvətlər bir gün tükənir və bu səbəbdən də ölkənin gələcəkdə də bütün sahələrdə davamlı inkişafını təmin edə biləcək daha ehtibarlı resursların müəyyənləşdirilməsi və reallaşdırılması vacib məsələ olaraq qarşıda durur. Hər bir ölkə üçün alternativ inkişaf istiqamətləri müxtəlifdir. Azərbaycanda bu mühitin reallaşdırılmasına qara qızılın yüksək intellektli insan resursları ilə əvəzlənməsi sayəsində nail oluna bilər. Yerli imkanlar nəzərə alınmaqla, İT sahəsində artıq böyük təcrübəyə malik ölkələrin əldə etdikləri nailiyyətlərdən bəhrələnərək cəmiyyətin bütün sahələrində sürətli inkişaf təmin edilə bilər. Aydındır ki, dünyada cəmiyyətlərin informasiyalaşdırılması prosesi gedir və hadisələrin gedişatından belə bir qənaət yaranır ki, proses bəşəriyyətdə hələ uzun müddət davam edəcək. Təbii ki, yüksək inkişaf tendensiyalarını özünə əsas hədəf seçən Azərbaycan da bu proseslərdən kənarda qala bilməz və qalmır da. Dövlət siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mühüm layihələr bunun bariz nümunəsidir. Dövlət başçısı İlham Əliyev tərəfindən gerçəkləşdirilən sosial-iqtisadi inkişaf strategiyası sayəsində ölkəmiz milli tərəqqiyə nail olur, dünya miqyasında özünəməxsus yer tutur. Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, bu gün iqtisadi inkişaf strategiyasını elmi-texniki əsaslar üzərində quran, elmə əsaslanan innovativ inkişafı reallaşdıra bilən ölkələr milli tərəqqi yolunu düzgün müəyyənləşdirə bilirlər.

Hazırda Azərbaycanda İKT-nin davamlı inkişafını təmin etmək məqsədilə Prezident İlham Əliyev bu sahədə siyasətin gerçəkləşdirilməsinə dair mühüm addımlar atır. Azərbaycan

[96] Yenə orada.



Respublikasının Prezidenti seçildikdən sonra onun ilk beynəlxalq səfəri 2003-cü il dekabrın 12-də Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində iştirakı ilə bağlı oldu. Bu Sammitdə İlham Əliyev "Qara qızılı insan qızılına çevirək" tezisini irəli sürdü və bununla ölkədə yeni iqtisadi inkişaf istiqamətini müəyyənləşdirdi. Yeni iqtisadi inkişafın, ilk növbədə, bilik və yüksək texnologiyalara əsaslanaraq reallaşdırılması nəzərdə tutuldu və İKT Azərbaycanın ümumi sosial-iqtisadi inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsi kimi müəyyənləşdi.

Bu günün reallıqları Azərbaycanın qarşısında yeni problemlərin həllini qoyur. XXI əsrin əvvəllərindən dünyada baş verən qloballaşma prosesləri fonunda daha da sürətlə inkişaf edən, genişlənən informasiya və kommunikasiya texnologiyalarının fəaliyyəti tamamilə yeni mahiyyət kəsb edir. Təbii ki, qlobal, planetar xarakter daşıyan hadisələr ölkə həyatının iqtisadi, sosial, siyasi, humanitar, mədəni və s. sahələrinə nüfuz edir. 2018-ci il sentyabrın 26-da ölkəmizin həyatında tarixi hadisə baş verdi. "Azərspace 2" peyki Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxıldı. Qeyd edək ki, son illər ərzində Azərbaycan orbitə üç peyk çıxarıb: "Azərspace 1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace 2. Hadisənin təqdirəlayiq mahiyyəti bir də ondadır ki, "Azərspace–2" peykinin orbitə çıxarılması Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edilib. Bununla əlaqədar olaraq xalqa təbrikində İlham Əliyev deyib: "Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni

zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir".[97]

2019-cu ilin oktyabr ayında ölkəmizin gələcək inkişafı üçün əlamətdar mahiyyət daşıyan hadisə baş verdi. ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhəri 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazandı. Konqres 68 ölkəni təmsil edən 398 təşkilatın üzv olduğu innovativ inkişaf sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Konqresin Azərbaycanda keçirilməsi onu göstərir ki, artıq Azərbaycanın kosmik ölkələr sırasında özünəməxsus yeri vardır.

Azərbaycanda informasiya cəmiyyətinin inkişaf etdirilməsi istiqamətində böyük işlər görülür, lakin dünya miqyasında bu proses o qədər sürətlə gerçəkləşir ki, bu sahədə daima və ardıcıl olaraq günün tələblərinə müvafiq tədbirlərin həyata keçirilməsi vacib şərtdir. Vahid informasiya sahəsinin yaradılmasına, informasiya resurslarının formalaşdırılmasına, mühafizə edilməsinə və istifadəsinə, bütün istehsal və sənaye sahələrinin informasiyalaşdırılması konsepsiyasının hazırlanmasına, informasiya texnologiyalarının yaradılmasına və tətbiq edilməsi mexanizmlərinin təsdiq edilməsinə dair dövlət səviyyəsində əsas qanunvericilik sənədlərinin qəbul edilməsinə baxmayaraq, Azərbaycanda informasiya cəmiyyətinin inkişaf etdirilməsinin sürətləndirilməsinə ehtiyac vardır.

---

[97]http://olke.az/news/detail/ilham-eliyev-azerbaycan-xalqini-tebrik-etdi-137357



# V FƏSİL. AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASINDA DİL AMİLİ

## 5.1 Azərbaycanda milli dil siyasəti

"Siyasi dil"in bir neçə səviyyələri mövcuddur. İlk növbədə, konkret siyasi sistemin ümumi və başlıca elementlərinin daha çox cəmləşdiyi ideoloji qolu qeyd oluna bilər. İdeologiya fenomeni uzun zamandır ki, müxtəlif tədqiqat istiqamətlərinin diqqət mərkəzindədir. İdeologiyanın və dilin qarşılıqlı əlaqə problemi bu aspektlərdən biridir. Bunu bir tərəfdən, semiotikaya və dilin fəlsəfəsinə artan maraqla, digər tərəfdən isə ideologiyaya dair saysız-hesabsız tədqiqatlar sırasında ideologiya və dil probleminə aid araşdırmaların kifayətsizliyi ilə əsaslandırmaq olar. Bununla belə, məhz semiotik yanaşma ideoloji fenomenlərin mahiyyətinin izah edilməsində əhəmiyyətli potensiala malikdir, çünki işarə eyni zamanda həm ümumini, həm də fərdini ifadə etməklə, kollektiv və fərdi şüuru əhatə edə bilir. İdeologiyanın ontoloji izahı, əsasən, ideyalar kompleksini, sosial qrupun ətraf mühitə və özünə münasibətinin dəyər və normalarının xüsusiyyətlərini nəzərdən keçirir. Bu yanaşma diqqəti ideologiyanın mental mahiyyətinə yönəldir. İdeoloji dəyərlər sistemi sosial məkanda kollektivin dünyaya özünəməxsus, unikal mövqeyini əks etdirir. Yəni ideologiya kollektiv identikliyin mühafizə və ifadə edilməsində mexanizm rolunu oynayır. Dil və ideologiyanın qarşılıqlı münasibəti kifayət qədər mürəkkəb, rekursivdir və eyni zamanda bu anlayışlar ayrılmaz şəkildə bir-birinə bağlıdırlar. İdeologiyanın dili, başlıca olaraq, insanların sosial gerçəklilyi dərk etməsinə və onun qiymətləndirilməsinə münasibəti ifadə edir, çünki ideyalar dildən kənarda mövcud deyil. *İdeologiya şüurda yaranan, dildə ifadə olunan anlayışlar sistemidir.* Amerikan yazıçısı, dramaturqu P.Q.Ceyms

qeyd edir ki, biz sözləri elə tərzdə ifadə edirik ki, onlar bizim həyati maraqlarımızın, dəyərlərimizin, istəklərimizin, mövcudluğumuzun və ünsiyyətimizin mədəni düyasını əks etdirir.[98]

XX əsrin sonları kommunist sisteminin iflası, mürəkkəb polietnik dövlət quruluşlarının süqutu, dünyada bir sıra ölkəlrin sosial-siyasi həyatında etnik faktorun mahiyyətinin artması ilə yadda qaldı. Azərbaycanda keçən əsrin 90-cı illərində sovet rejimi çökdükdən sonra hər bir xalqın milli varlığını müəyyən edən başlıca amillərdən sayılan milli dil konsepsiyasının işlənib hazırlanması ehtiyacı yarandı. Sovetlər dövründə mövcud rejim qeyri-rus millətlərinə qarşı diskriminasiya siyasəti yeridirdi. Yeni şəraitdə milli siyasətdə mövcud olan neqativ məqamların həll edilməsi mürəkkəb xararakter daşımaqla yanaşı, həm də kifayət qədər aktuallıq kəsb edirdi. Bu baxımdan, uzun illər aparılan yanlış siyasətin nəticəsi olaraq dil və digər sahələrdə yaranmış neqativ nəticələrin aradan qaldırılması mühüm vəzifələrdən biri kimi qarşıda dururdu. Bunu həyata keçirmək isə o qədər də asan məsələ deyldi. Azərbaycan dilinin dövlət dili kimi cəmiyyət həyatının bütün sahələrində öz sosial funksiyasını tam şəkildə həyata keçirməsini təmin etmək üçün bir sıra mühüm addımlar atılmalı idi. Azərbaycan polietnik bir dövlətdir. Burada müxtəlif xalqların nümayəndələri yaşayır, lakin tarix boyu bu ərazidə Azərbaycan dilinin ümumünsiyyət dili kimi funksiya göstərməsi heç bir zaman şübhə altında olmayıb. Xalqımızın

[98] James, P.G. Social Linguistics and Literacies: Ideology In Discourses / P.G. James. – Taylor and Francis, 2008. // http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.476.9477&rep=rep1&type=pdf



dilinə müxtəlif adlar verilib, lakin o, bütün dövrlərdə burada yaşayan xalqların doğma dili, ünsiyyət vasitəsi olub.

O dövrlə bağlı bir məsələni də qeyd etmək istərdik ki, SSRİ-nin dağılması ilə milli özünüdərklə müşayiət olunan etnomədəni aktivlik dalğası bütün postsovet məkanını əhatə etdi və bu zaman bir çox xalqlar sovetlər dövründə özlərinin etnodil sahəsində pozulmuş hüquqlarının bərpasına qalxdılar. Bu tələblərin siyasi spekulyasiya predmetinə çevrilməsi şəraiti bir az da mürəkkəbləşdirdi. Yəni sovet rejimində mövcud olmuş milli dil siyasətinin neqativ istiqamətlərinin məsuliyyətini Azərbaycan hakimiyyətinə yönəltmək cəhdləri ilə separat əhval-ruhiyyəni gərginləşdirməyə bağladılar. Lakin gün kimi aydın idi ki, bu məsələlərin Azərbaycanla bilavasitə əlaqəsi olmamışdır, bunlar Kremlin səlahiyyətində olan məsələlər idi. Bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da yaşayan xalqların etnik oyanışı iqtisadi böhranla müşayiət olunurdu və bu şərait sosial gərginliklərə sərait yaradırdı. Bu proseslər dünya praktikasından artıq məlumdur. İqtisadiyyatın çökməsi, bir qayda olaraq, etnoslararası münasibətlərin gərginləşməsinə səbəb yaradır. Daha doğrusu, müxtəlif separatçı hərəkatların nümayəndələri məqsədyönlü şəkildə gərginliklərə etnik rəng verməyə cəhd göstərirlər. Azərbaycanda bu situasiya daha qəliz xarakter daşıyırdı. Belə ki, XX əsrin 90-cı illərinin əvvəllərində burada baş verən hadisələr birbaşa Azərbaycanın ərazi bütövlüyünü təhdid altına alırdı. Digər tərəfdən isə məsələni mürəkkəbləşdirən cəhət ondan ibarət idi ki, hələ yeni yaranmış və kifayət qədər möhkəmlənməmiş dövlət strukturları milli sahədə olan gərginliklərə operativ şəkildə müdaxilə etməyə və təcili tədbirlər görməyə hazır deyildilər. Belə çətin və mürəkkəb şəraitdə

milli dil sahəsində yeni dövlətçilik konsepsiyasının formalaşdırılması mühüm məsələlərdən biri kimi qarşıda dururdu.

Milli dil sosial-tarixi hadisə olaraq, millətin təşəkkülü prosesində formalaşır və əhəmiyyətli dərəcədə onun varlığını, inkişafını şərtləndirir. Azərbaycan Respublikasının 30 ildən çox bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, yaxşı bilirdi ki, dil milli varlığı şərtləndirən mühüm amillərdəndir. Hakimiyyətə gəldiyi ilk günlərdən və bütün fəaliyyəti boyu Azərbaycan dili onun diqqət mərkəzində olmuşdur. Ulu Öndər Azərbaycan dilinə dövlət dili statusu verilməsi istiqamətində çox böyük işlər görmüş və Sovet İttifaqının bu məsələlərə ən sərt münasibət göstərdiyi zamanlarda belə, hələ 1978-ci ildə Konstitusiyada Azərbaycan dilinə dövlət dili statusu verilməsinə nail ola bilmişdi. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu addım o dövr üçün çox cəsarətli bir addım idi. Ulu Öndər son dərəcə uzaqgörən şəxsiyyət idi. Bu fəaliyyət məhz Azərbaycanın gələcəyinə, onun müstəqil dövlət olacağı zamana istiqamətlənmişdi. Bununla belə, artıq bu qərardan sonra Azərbaycanda idarəçilikdə, müxtəlif miqyaslarda keçirilən yubiley tədbirlərində, elmi, ədəbi-bədii ədəbiyyatın Azərbaycan dilində çapında Azərbaycan dilindən geniş istifadə olunmağa başlandı. Təbii ki, bu məqam milli şüurun inkişafına güclü təkan verdi. Heydər Əliyev tərəfindən işlənib hazırlanan və həyata keçirilən dövlət quruculuğu strategiyasının tərkib hissəsi kimi, dil siyasəti kontekstində 1970-ci illərdə istər Azərbaycan dilinin tarixi, istərsə də müasir dövrünün problemləri ciddi şəkildə öyrənilir və bu sahəyə dair çoxsaylı elmi-nəzəri tədqiqatlar aparılırdı.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra artıq Azərbaycan dili xalqımızın ictimai-siyasi və sosial-iqtisadi həyatında dövlətin rəsmi dili olaraq müstəsna



əhəmiyyət daşımağa başladı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən Azərbaycan dilinin adı ilə bağlı müxtəlif xarakterli mübahisələr meydana çıxdı. Lakin sonda böyük əksəriyyət dövlət dilinin Azərbaycan dili adlanmasına tərəfdar oldu.

Bu bir həqiqətdir ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul edildi, lakin qərar icra olunmadı. Yalnız Heydər Əliyevin verdiyi "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanlarından sonra respublikada bütün yazılı sənədləşmələr latın qrafikası ilə aparıldı. 2 yanvar 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə imzalanan fərmanlar sayəsində ədəbi dilimizin fəaliyyət dairəsi daha da genişləndi, dil mədəniyyətinin inkişaf etdirilməsi sahəsində yeni imkanlar açıldı. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nda deyilir: "Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə, onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi

qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur.[99]

Akademik Ramız Mehdiyev "Heydər Əliyevin siyasi portretinin cizgiləri" məqaləsində yazır: "Hamıya məlumdur ki, xalqın ümummilli mənəvi birliyinin Heydər Əliyev tərəfindən yaradılması konsepsiyasında Azərbaycan dili çox mühüm yer tutur. Heydər Əliyev özü bu dilin parlaq bilicilərindən olmuşdur. Onun nitqləri, çıxışları, müsahibələri yeni siyasi üslubu formalaşdırmış və Azərbaycan dilini o qədər əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, tədqiqatçıların hələ neçə-neçə nəsli natiqlik sənətinin bu nümunələrinə müraciət edəcəkdir".[100]

Ulu Öndər Azərbaycan dilinə məhz azərbaycançılığın mənəvi əsası kimi yüksək qiymət verirdi: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə–Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır."[101]

İlham Əliyev prezidentliyə başladığı dövrdən, bütün sahələrdə olduğu kimi, dil siyasəti sahəsində də mühüm tədbirlər həyata keçirir. Bu baxımdan Prezidentin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamları olduqca böyük

---

[99]https://az.wikisource.org/wiki/%E2%80%9CD%C3%B6vl%C9%99t_dilinin_t%C9%99tbiqi_i%C5%9Finin_t%C9%99kmill%C9%99%C5%9Fdirilm%C9%99si_haqq%C4%B1nda%E2%80%9D_Az%C9%99rbaycan_Respublikas%C4%B1_Prezidentinin_F%C9%99rman%C4%B1_(18_iyun_2001-ci_il)

[100]http://azertag.az/xeber/HEYDAR_ALIYEVIN_SIYASI_PORTRETININ_CIZGILARI-310656

[101]Yenə orada.



ictimai-tarixi əhəmiyyət kəsb edir. Bu sərəncamlardan sonra 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi və bu istiqamətdə işlər bugün də davam etdirilir.

Hər dövr öz reallıqlarını ortaya qoyur və hazırda dil problemləri hər zaman olduğundan daha artıq ön plana çıxır, çünki texnika və texnologiyanın sürətli inkişafı, dünya miqyasında qloballaşma proseslərinin geniş şəkildə yayılması özü ilə müsbət tendensiyalar gətirməklə yanaşı, mənfi çalarlar da gerçəkləşdirir. Sözsüz ki, bu proseslər ictimai həyatın bütün sahələri ilə yanaşı dil hadisələrini də əhatə edir. Bunlar nəzərə alınaraq "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" adlı mühüm sənədin hazırlanıb Azərbaycan Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilməsi dövrün tələblərini əhatə edən tarixi hadisədir.[102] Sərəncamda mövcud situasiya dərindən təhlil edilmiş, qloballaşma şəraitində ortaya çıxan problemlərin aradan qaldırılması sahəsində görüləcək işlər ətraflı şəkildə öz ifadəsini tapmışdır.

Azərbaycan dili dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlət müstəqilliyimizin əsas qarantlarından biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş misilsiz əsərlər yazılmışdır. Hər bir azərbaycanlı dilimizin müxtəlif tarixi dövrlərdə dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi duyur. Müəyyən dövrlərdə ölkəmizin müxtəlif imperiyaların tərkibində qalmaq məcburiyyətində olmasına baxmayaraq, Azərbaycan dili hətta belə mürəkkəb və çətin zamanlarda belə, milli ideologiyanın, milli şüurun, milli-

---

[102]https://president.az/articles/7744

mənəvi dəyərlərin mövcud olmasını və inkişafını layiqincə təmin edə bilmişdir. Dilimizin qorunması və ona qayğı göstərilməsi bu gün hər bir azərbaycanlının müqəddəs borcudur. Azərbaycan dili ifadə imkanlarının zənginliyi, səs quruluşunun rəvanlığı, səlisliyi və qrammatik strukturunun stabilliyi ilə xarakterizə olunur. Müasir Azərbaycan dili son dərəcə zənginliyi ilə ictimai-siyasi, elmi-mədəni sferalarda geniş şəkildə istifadə edilmək imkanlarına malikdir.

Doğma dil mili-mənəi sərvət, hər bir xalqın mədəni irsidir. İstər Azərbaycan, istərsə də Azərbaycan dili tarix boyu təcavüzə məruz qalmışlar, buna baxmayaraq, öz varlıqlarını qoruyub saxlaya bilmişlər. 2010-cu ildə Azərbaycanın əhalisi 10 milyonu keçmişdir. Soydaşlarımız Yer üzünün 5 qitəsində məskunlaşmışlar. Onlar dünyanın 70 ölkəsində yaşayırlar.[103] Azərbaycan xalqının etnik, sosial-siyasi maraqlarını bu gün (əslində, yarandığı gündən bəri), birinci növbədə, Azərbaycan Respublikası təmsil edir-hər şeydən əvvəl, ona görə ki, Azərbaycan Respublikası Azərbaycan xalqının milli (müstəqil) dövlət axtarışlarının məhsuludur. Yalnız həmin respublikanın vətəndaşları deyil, həmhüdud ölkələrdə tarixən məskunlaşmış (xalq kimi məhz həmin ölkələrin ərazisində formalaşmış!) azərbaycanlılar-əsasən Azərbaycan türkləri də ona öz milli dövlətçilik ideallarının ifadəçisi (və müdafiəçisi!) kimi baxırlar. Müxtəlif səbəblər üzündən dünyanın ən müxtəlif ölkələrinə səpələnmiş Şimaldan və Cənubdan olan azərbaycanlılar üçün də Azərbaycan dövləti və onun rəmzləri müqəddəsdir.[104]

[103] http://kayzen.az/blog/Az%C9%99rbaycan-co%C4%9Frafiyas%C4%B1/2410/az%C9%99rbaycan-%C9%99halisi.html

[104] Cəfərov N. Azərbaycanşünaslığın əsasları. -Bakı: Pedaqogika, 2005.// http://elibrary.bsu.az/kitablar/927.pdf



Azərbaycan dili İran İslam Respublikasında yaşayan 35 milyondan artıq azərbaycanlının doğma dilidir. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olsalar da, azərbaycanlılar bir-birini asan şəkildə başa düşürlər. Yəni hazırda Yer üzündə 50 milyiondan çox insan Azərbaycan dilində danışır. Azərbaycan xalqının etnik tərkibinin əsasını təşkil edən Azərbaycan türkləri burada eradan əvvəl mövcud olmuşlar. Türk mənşəli Azərbycan dili ta qədim zamanlardan burada yaşayan xalqların ünsiyyət dili olmuşdur. Bu ərazidə yaşayan türk tayfalarının sayı artdıqca, həmçinin iqtisadi, siyasi mədəni əlaqələr genişləndikcə dilin fəaliyyət dairəsi də genişlənmişdir. Nəticədə, bu ərazidə yaşayan etnik qruplar öz etnik, antropoloji xüsusiyyətlərini saxlamaqla, burada fəaliyyət göstərən ümumünsiyyət dilinin sayəsində ümumi dini, mədəni dəyərlərə malik vahid millətə çevrilə bilmişlər. Azərbaycan türkləri çox qədim, şanlı tarixə malikdir və onların Qafqazın, Yaxın Şərqin tarixində özünəməxsus yeri vardır. Bu fikri bir çox dünya alimləri də qeyd edirlər. Məsələn, Litva tarixinə dair sanballı əsərlərin müəllifi olan Algimantas Lekis "Переселение народов на Кавказе XX в." (XX əsrdə xalqların Qafqaza köçürülməsi) əsərində qeyd edir: "Bir çox yüzilliklər boyu azərbaycanlıların özlərinə məxsus dövlətçilikləri olub. Qafqazda ən erkən dövlət e.ə. IX əsrdə azərbaycanlıların ulu əcdadları tərəfindən yaradılmış Manna çarlığı 200 min il mövcud olub.[105] Prof. Q. Qeybullayev qeyd edir ki, qədim türk xalq-

[105] Альгимантас Л. Переселение народов на Кавказе XX в. Вильнюс, 2016, с.9.

larının tarixində Manna ilk türk dövlətidir.[106] Azərbaycanlıların dövlətçilik ənənəsinin tarixi Mannadan başlanır.[107]

Azərbaycan dili uzun təkamül yolu keçmiş ən qədim dillərdən biridir. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Bu kontekstdən çıxış edilərsə, Azərbaycan dilinin ünsiyyət dili kimi mövcudluğunun ən azı 1300 illik yaşı vardır, lakin belə bir bitkin əsərin araya gəlməsi, təbii ki, qısa zaman içərisində baş verə bilməzdi. Yəni bunun üçün kifayət qədər inkişaf etmiş şifahi xalq ədəbi dili mövcud olmalı idi. Bununla yanaşı, azərbaycanca və farsca yazıb-yaratmış sufi şair İzzəddin Həsənoğlunun qəzəlləri və ya XIII əsrdə Azərbaycan dilində qələmə alınmış "Dastani-Əhməd Hərami" və s. sübut edir ki, Azərbaycan ədəbi dili öz köklərini çox qədimdən götürmüşdür.

Qeyd etmək lazımdır ki, azərbaycançılığın ideologiyaya çevrilməsində Azərbaycan dilinin müstəsna rolu vardır. Çoxmillətli dövlətdə dil məsələsi mühüm amildir və bu sahədə düzgün siyasətin qurulmasının əhəmiyyəti böyükdür. Bu barədə Azərbaycanı unikal dövlətlər sırasına aid etmək olar. Çünki burada yaşayan xalqlar öz ana dillərini, mədəniyyətlərini, adət-ənənələrini qoruyub saxlamaqla yanaşı, çox sərbəst şəkildə bir-biri ilə ünsiyyət saxlaya bilirlər. Bu isə ölkədə milli həmrəyliyin mövcud olmasına, onun inkişaf etdirilməsinə çox gözəl şərait yaradır. Bunun sayəsində isə həyatın bütün sahələrində siyasi, iqtisadı, mədəni-uğurlu inkişafın əldə edilməsinə münbit zəmin yaranır.

---

[106] Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı, 1994, s. 36

[107] Azərbaycan tarixı (yeddi cilddə). I cild. Bakı, 2007, s. 465



## 5.2. Azərbaycançılıq milli və ümumbəşəri ideyaların sintezi kontekstində

Elmi-siyasi ədəbiyyatda ifadə etdikləri məna yükü baxımından kifayət qədər mürəkkəb, nəzəri-metodoloji kontekstdə müəyyən məqamlarda mübahisə doğuran milli ideya, milli ideologiya anlayışlarına münasibət bildirməyə çalışaq. Milli ideya millətin formalaşdırdığı, inkişaf etdirdiyi, həmçinin yeni ideyalarla zənginləşdirərək tarixi yaddaş vasitəsilə nəsildən-nəslə ötürməklə millətin və dövlətin inkişaf istiqamətini müəyyən edən mühüm amildir. Bu baxımdan milli ideya millətin milli ideologiyasının sistemyaradıcı təməli, milli mədəniyyətin, milli dövlətin mahiyyətini ifadə edən dünyagörüşüdür. Milli ideologiya ideyaların, baxış və metodların, milli potensialın inkişafının kompleks konsepsiyalarının məcmusudur. *Milli özünüdərk olmadan milli ideologiyanın mövcudluğu mümkün deyil.*

Mahiyyət etibarilə müəyyən mənada milli ideya milli ideologiyadan fərqli çalarlar daşıyır. Belə ki, demokratik cəmiyyətdə dövlət ideologiyası rasional təbiətə malikdir və ictimai problemlərin həllində vətəndaşların şüurlu şəkildə iştirakını nəzərdə tutur. Milli ideologiya isə vətənə, insanın doğulduğu yerə sevgisi kimi məqamları da özündə ehtiva edir. Təbii ki, bu cəhətlər irrasional mahiyyət də daşıyır. Dövlət ideologiyası mütəxəssislər tərəfindən işlənib hazırlanır və dövlətin funksiyası, inkişaf konsepsiyası, onun vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsi məsələlərini əhatə edir. O, xalqın şüurunda, milli mədəniyyətində formalaşır, inkişaf edir və mövcud olur. Dövlət ideologiyası və milli ideya mahiyyətlərinə müvafiq olaraq müxtəlif ifadə üsullarına malikdirlər. Bu mənada dövlət ideologiyasının dili konkret elmi anlayışlara və kateqoriyalara, əsasən də, siyasi və hüquqi terminlərə

əsaslanır. Milli ideya isə, ilk növbədə, poeziyanın, ədəbiyyatın, incəsənətin dili ilə təqdim edilir. Təbii ki, bu dil dəqiq anlayışlardan daha çox simvollarla, metaforalarla, bədii obrazlarla təsvir edilir.

Azərbaycançılıq Azərbaycan xalqının ideologiyasının əsasını təşkil edir. Akademik Ramiz Mehdiyev qeyd edir ki, "Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir".[108] Müstəqil, suveren Azərbaycan dünyəvilik prinsipinə əsaslanan sivil, demokratik dövlətin qurulmasını strategiya olaraq müəyyənləşdirib. Bu ideologiyanın mahiyyətini Azərbaycanı özünə vətən bilən hər bir kəsin milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası təşkil edir. Azərbaycançılıq ideyasının təkamülünə nəzər salsaq görərik ki, bunu XIX əsrin sonu XX əsrin əvvəli ilə əlaqələndirmək olar. Belə ki, 1828-ci ildə İranla müharibə nəticəsində Rusiya imperiyasının tərkibinə daxil edilmiş Şimali Azərbaycanda dini identiklikdən milli ideyanın başlanğıcı sayılan etnik identikliyə keçidə cəhd edilmişdir. O dövrdə dini şüurun etnik şüurdan ayrılması ümdə məqsəd kimi qarşıya qoyulmuşdu və bu istiqamətdə bir sıra Azərbaycan ziyalılarının gördükləri işlərin olduqca böyük əhəmiyyəti vardır. Təbii ki, bunu təsadüfi hadisə kimi qəbul etmək olmaz. Belə ki, milli ideya bir günə yaranmır. Bu anlayışa çatmaq üçün xalq müəyyən tarixi yol keçməlidir. O, (yəni milli ideya) ilk olaraq milli şüurun oyanması sayəsində müstəqillik uğrunda mübarizə ilə başlanır. Bu, ilk növbədə, hər bir xalqın mədəniyyətində, fəlsəfəsində, mentalitetində ifadəsini tapmış özünəməxsus ruhu, onu (yəni xalqı) irəli aparan iqtisadiyyatı, siyasəti, elmi

---

[108] Mehdiyev Ramiz. Yeni dünya nizamı və milli ideya.B., "Şərq-Qərb", 2016, s.20.



və təbii ki, müəyyən olunmuş ərazisidir. Qeyd etmək lazımdır ki, çoxmillətli dövlətlərdə ərazi bütövlüyünün qorunub saxlanması ideyası dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarının müqəddəs borcudur.

İdeya və ideologiya xalqların və cəmiyyətlərin həyatında öz spesifik xüsusiyyətləri və mahiyyətləri etibarilə bir-birindən fərqlənirlər. Bu fərqlər milli xüsusuyyətlərə əsaslanır. Azərbaycançılıq ideologiyamızın əsasını milli müstəqillik prinsipi təşkil edir. Qanunun aliliyi prinsipi milli müstəqillik ideologiyasının hüquqi əsasını ifadə edir. Əlbəttə ki, siyasi institut olaraq dövlət ölkənin stabilliyinin və inkişafının qarantıdır. O, cəmiyyətdə sosial-siyasi stabilliyi, milli təhlükəsizliyi, qanunun aliliyini, sosial ədaləti təmin edir.

Ümumbəşəri demokratik prinsiplərin həyatımızda möhkəm kök salması respublikanın qanunverici aktlarında və beynəlxalq hüquq normalarında əks olunan məqsəd və qayələrin tələblərə müvafiq şəkildə həyata keçirilməsindən asılıdır. Hüquq, insan azadlığı və azadfikirlilik prinsipləri milli müstəqillik ideologiyasının sosial mahiyyətini müəyyənləşdirir. Konstitusiya və qanunlarda vətəndaşın bütün hüquq və vəzifələri tam şəkildə öz əksini tapıb. Milli müstəqillik ideologiyasının prinsipləri bu hüquqi əsaslara istinad edilərək reallaşdırılır.

Milli müstəqillik ideyasının həyata keçirilməsi prosesində şəxsiyyət azadlığı məsələsi mühüm yer tutur, çünki yalnız hüquq və vəzifələrini yaxşı bilən, öz gücünə və imkanlarına güvənən insan ətrafda baş verən hadisələrə müstəqil şəkidə münasibət göstərə bilər, şəxsi maraqları ilə ölkənin, xalqın maraqları arasında harmoniya yarada bilər. Qeyd edək ki, "azadlıq" anlayışı son dərəcə geniş məna kəsb edir. Bu mənalar sırasında həm müsbət, həm də mənfi çalarlar təzahür edir. Əgər şəxsiyyət maddi və mənəvi nemətlərdən şüurlu şəkildə istifadəyə cəhd göstərirsə, digərlərinin maraqlarına

zərər vermirsə, bu, azadlığın müsbət aspektidir. Əksinə, əgər insan öz məqsədinə çatmaq naminə digərlərinin azadlığını və maraqlarını nəzərə almırsa, belə "azadlıq" mənfi mahiyyət daşıyır.

Fikir plüralizmini ehtiva edən milli müstəqillik ideologiyası demokratik cəmiyyətin qurulmasının təməl prinsiplərindəndir. Bu prinsiplər insanların ümumi məqsəd ətrafında müxtəlif görüşlərini, fikir və mülahizələrini əhatə edir. Məhz bu şəkildə müvafiqlik milli müstəqillik ideyasını hərəkətverici qüvvəyə çevirir.

Milli müstəqillik ideologiyası prinsiplərindən biri də milli və ümumbəşəri dəyərlər arasında harmoniyanın yaradılmasıdır. Bu prinsip böyük gələcəyin qurulmasında insanların inamının möhkəmləndirilməsinə, vətəndaşların siyasi mədəniyyətinin artırılmasına, tərəqqinin düzgün dərk edilməsinə qulluq edir. Professor İlam Məmmədzadənin fikrincə: "Milli mədəniyyətə və ideologiyaya qapanmaq müasir dünyanın ümumi inkişaf xəttinə ziddir. Bununla belə, milli identiklik problemi öz düzgün həllini tapmalıdır. Bildiyimiz kimi. Respublika Prezidentinin ölkənin sosiomədəni modernləşmə və əsaslı transformasiya xətti milli ideologiyaya tələbat doğurur. Bu ideologiyanın əsas istiqamətlərinin, strategiyasının təməlini Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev və Prezident İlham Əliyev qoymuşlar".[109]

Milli dəyərlərə sadiqlik müstəqillik ideyasının dayağıdır. Bu prinsip göstərir ki, hər bir Azərbaycan vətəndaşı öz milli dəyərlərini zənginləşdirərək və qoruyaraq onları gələcək nəsillərə ötürməyi öz üzərinə götürməlidir. Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələri öz doğma dillərini, mədəniyyətlərini, adət-ənənələrini qorumaq və inkişaf etdirmək imkanına malikdirlər.

---

[109] Məmmədzadə İ. Elitaların təşəkkülü məsələsinə dair // AMEA Fəlsəfə İnstitutu. Elmi Əsərlər, №1-2 (13), Bakı, 2009, s.7.



Milli müstəqillik ideologiyası insana öz mənəvi dünyasını zənginləşdirməyə geniş imkan yaradır. Bunun reallaşdırılması, ilk növbədə, hərtərəfli təhsilli, mənəvi, əqli, fiziki cəhətdən yetkin nəslin formalaşdırılması ilə bağlıdır. Sağlam, kamil nəslin yetişdirilməsi, azad vətəndaş mənəviyyatına malik insanın formalaşdırılması da milli müstəqilliyin inkişafına və davamlı olmasına güclü təkan verən amillərdəndir. Belə keyfiyyətlərə malik şəxsiyyət ideoloji proseslərdə fəal iştirak edə, digər insanların şüurlarına milli müstəqillik ideologiyasının prinsiplərini təlqin edə bilər. Təbii ki, aktiv, məqsədyönlü şəxsiyyət dövlətin ideologiyasının mahiyyətini daha mükəmməl şəkildə insanlara çatdıra bilər.

Ölkəmiz milli və və ümumbəşəri dəyərlərə, xalqımızın zəngin irsinə, inkişaf etmiş dövlətlərin təcrübəsinə istinad edərək vətəndaş cəmiyyəti qurur. Vətəndaşlıq azərbaycançılıq ideologiyasının mühüm atributlarından biridir. O özündə vətəndaşların siyasi, əxlaqi, hüquqi və sosial xüsusiyyətlərini birləşdirir. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində qeyd olunur ki, "Azərbaycan dövlətinə mənsubluğu, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır". 53-cü maddədə isə bu hüququn təminatına dair ayrıça müddəalar müəyyənləşdirilmişdir. Bu müddəalara görə, Azərbaycan Respublikasının vətəndaşı vətəndaşlıqdan məhrum edilə, Azərbaycandan qovula bilməz. Bu maddənin ayrıca bir bəndində isə bidirilir ki. dövlət hətta Azərbacan Respublikasının ərazisindən kənarda daimi və ya

müvəqqəti yaşayan vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.[110]

Vətəndaşlıq insan və dövlət arasında qarşılıqlı hüquq və vəzifələrdə ifadə tapan sabit siyasi-hüquqi əlaqədir. Monarxiya idarə üsuluna malik ölkələrdə şəxsin dövlətlə əlaqəsi təbəəlik formasında, yəni bütövlükdə, dövlətlə deyil, bilavasitə monarxla reallaşır. Hazırda isə bir çox monarxiya üsulu ilə idarə olunan ölkələr bu konsepsiyadan imtina ediblər və təbəəlik institutu vətəndaşlıq institutu ilə əvəzlənib. Vətəndaşlıq konstitusiya hüququnun institutlarından biridir və öz ifadəsini dövlətin konstitusiyasında (əsas qanununda) və digər normativ-hüququ akrtlarda tapır.

Vətəndaşlıq kollektiv qərarların qəbul edilməsində mühüm amildir, çünki bu kontekst cəmiyyətdə həm hüququn, həm də əxlaqın inteqrasiyasını həyata keçirməyə imkan verir. İnsanın vətəndaşlıq mövqeyi onun cəmiyyət həyatında aktiv iştirakında öz ifadəsini tapır. Bu mövqe şəxsi və ictimai dəyərləri ağıllı şəkildə əlaqələndirilməklə reallaşdırılmanı nəzərdə tutur. Elmi ədəbiyyatda aktiv vətəndaşlıq mövqeyinin, əsasən, üç komponenti qeyd edilir: sosial aktivlik, vətəndaş özünüdərki və vətəndaşlıq keyfiyyətləri.[111] Bu komponentləri nəzərdən keçirdikdə belə qənaət yaranır ki, sosial aktivlik əməyə və ictimai-siyasi fəaliyyətə şüurlu və yaradıcı münasibət kimi təzahür edir və nəticədə, fərdin özünüreallaşdırması təmin olunur. Təbii ki, qeyd edilən proses öz-özlüyündə həyata keçmir. Bunun üçün dərin bilik, hərtərəfli inkişaf etdirilmiş qabiliyyət və vətəndaşlıq şüuru mövcud olmalıdır. Başqa sözlə, sosial aktivlik ictimai inkişafın qanunauyğunluqlarının dərindən dərk edilməsi sayəsində reallaşa bilir.

---

[110] azerbaijan.az/portal/General/.../constitution_01_a.html

[111] www.dissercat.com



Vətəndaşlıq anlaşıyışının mahiyyətində, ilk olaraq, vətənə sevgi, vətənpərvərlik ideyaları durur. İnsanlarda vətəndaşlıq, vətənpərvərlik mövqeyinin formalaşdırılması müasir siyasətin prioritet istiqamətlərindəndir. Vətəndaşlıq, vətənpərvərlik şəxsin fundamental keyfiyyətlərindəndir və bu keyfiyyətlər erkən yaşlardan formalaşdırılmalıdır. Azərbaycan xalqı əsrlər boyu, hətta tarixin ən mürəkkəb dövrlərində də, bu xalqa mənsub olduqları ilə qürur duyublar.

Müasir milli ideyanın əsasını fərdin və cəmiyyətin iqtisadi rifahına qayğı, siyasi müstəqilliyin, mədəniyyətin, ərazi bütövlüyünun, xalqımızın həyat tərzinin qorunub saxlanılması kimi mühüm amillər təşkil edir. Bu baxımdan vətənpərvərlik və milli maraq milli ideyanın iki qoludur.

Demokratikləşmənin cəmiyyət həyatında dərinləşməsi prosesi milli ideologiyanın prinsiplərindən biridir. Praktik olaraq, bu prinsip nəzərdə tutulmuş məqsədlərin, müəyyən proqramların və qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edir. Vətəndaş cəmiyyətinin əsaslarının formalaşdırılması və demokratik institutların fəaliyyətlərinin genişləndirilməsi uzunmüddətli prosesdir. Bu o zaman baş tutur ki, artıq demokratiya cəmiyyətdə dəyərə çevrilir. Təbii ki, bu, tez bir zamanda baş verə bilməz. Xalqın mədəniyyətində yer almayan demokratiya onun həyat tərzinin tərkib hissəsi ola bilməz. Demokratiyanın prinsiplərinin mənimsənilməsinə isə uzun müddət tələb olunur. Burada bir haşiyə çıxmaq istərdik ki, hər bir cəmiyyət, hər bir dövlət özü üçün məqbul olan demokratik inkişaf yolunu seçməlidir. Akademik Ramiz Mehdiyev "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" məqaləsində bildirir: "Bu gün Azərbaycan demokratiyanı əsas məqsəd kimi deyil, tarixi təcrübənin və ənənələrin dönüş dövrlərində hər bir xalqın keçdiyi tarixi tərəqqi prosesi kimi başa düşərək, öz inkişaf modelini nümayiş etdirir. Azərbaycan

cəmiyyətinin demokratikləşməsi sonsuz prosesdir və milli xüsusiyyətlər gözlənilməklə, müstəqil dövlət quruculuğu və milli identikliyin qorunub saxlanılması şərtilə həyata keçirilir. Prezident İlham Əliyevin anlamında demoktariya milli inkişaf və şüurun ayrılmaz atributudur. Lakin o, cəmiyyətin siyasi və iqtisadi inkişaf səviyyəsi ilə ahəngdar olmalıdır".[112]

Demokratiya milli maraqların və dövlət müstəqilliyinin ziyanına olaraq kənardan zorla qəbul edilə bilməz. Bu gün başqa geosiyasi və etnik-milli məkanlarda yüzilliklər boyu formalaşmış təcrübəni "qəflətən daxil etmək", "kor-koranə köçürmək", "gətirmək" olmaz.[113]

İdeya olaraq demokratiya Qərbdən gəlsə də, seçki sisteminin, dövlətçiliyin, siyasi hərəkatların, ictimai rəyin, kütləvi informasiya vasitələrinin və s. Şərqdə də spesifik xüsusiyyətləri vardır. Bu hakimiyyətə etibar ənənəsində özünü göstərir. Bütüt bunlar tarixi proseslərin nəticəsi kimi dəyərləndirilə bilər, çünki ədalətli və müdrik hökmdar ideyası Şərq xalqlarının həyatında hələ "Avesta"nın yarandığı dövrlərdən inkişaf etməyə başlamışdır. Şərq mütəfəkkirləri cəmiyyətin inkişafında dövlətin rolunu, əsasən, iki mühüm amilin həyata keçirilməsində-sosial sabitliyin bərqərar olmasında və sosial ədalət prinsiplərinin reallaşdırılmasında görürdlər. Qanunvericilik və əxlaq normaları sistemi bu məqsədlərə qulluq edirdi. Yəni Azərbaycanda da, bir Şərq ölkəsi olaraq, qədimdən bəri özünəməxsus demokratik ənənələr mövcud olmuşdur.[114]

Tarix boyu xeyirxahlıq və ümumbəşəri ideyaları mənimsəmək qabiliyyəti sayəsində xalqımız müasir demokratik dəyərləri istifadə etməyə can atıb. Müasir Şərq demokratiyasında,

[112] https://azertag.az/xeber/Muasir_Azerbaycan_milli_ideyanın_tecessumu_kimi-524355
[113] Yenə orada.
[114] *static.bsu az › huquq › muhazireler*



təbii ki, Azərbaycanda da, tolerantlıq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, mərdlik, alicənablıq, ədəb, böyüklərə ehtiram, doğma vətənə sonsuz sevgi və bu kimi qəbildən olan yüksək insani keyfiyyətlər geniş şəkildə ifadə tapıb və bunlar milli müstəqilliyimizin reallaşdırılmsında əhəmiyyətli rol oynayıb.

Milli ideyanın formalaşmasının mühüm atributlarından biri də tolerantlığın təbliğ və tərbiyə edilməsi, digər xalqların mədəniyyətlərinə hörmətlə yanaşılmasıdır. Bu gün dünyada millətlərarası münasibətlər çox mürəkkəb xarakter alıb. Bu situasiyanı yaradan səbəblər isə müxtəlif mədəniyyətlərə, həyat tərzlərinə, dini etiqadlara, inanclara, vərdişlərə qarşı müasir dövrdə dözümsüzlüyün, ədavətin, qərəzçiliyin, düşmənçiliyin daha da artmasıdır. Müxtəlif səpkili səbəblərdən dünyanın gah bir, gah da digər bir yerində müharibələr baş verir. İnsanlar ev-eşiyindən didərgin düşür, qanlar tökülür. Bunları gördükcə, tolerantlığın insanlar arasında birgəyaşayışın ən uğurlu üsulu olduğuna inam daha da artır.

Tolerantlıq qlobal problemdir və onu formalaşdırmaq, insanlar arasında həyat tərzi səviyyəsinə qaldırmaq isə son dərəcə mürəkkəb məsələdir. Lakin dərindən düşünəndə insan mənəviyyatı, əxlaqi dəyərləri ilə əlaqədar nə varsa tərbiyə ilə bağlıdır. Tərbiyə çox geniş məna daşıyır və bu istiqamətdə o, erkən yaşlarından insanı dialoqa, qarşıdakını eşitmək bacarığına malik olmağa, ünsiyyətdə manipulyasiyaya deyil, məhz qarşılıqlı anlaşmaya cəhdi nəzərdə tutur. Belə davranış fərdin tolerant ruhda tərbiyə olunmasına şərait yaradır. Tolerant davranış tərzi isə insanda sərbəst, müstəqil təfəkkürün formalaşmasına, tənqidi düşüncəyə və əxlaqi dəyərlərə söykənən mühakimələrin irəli sürülməsinə imkan verir.

Danılmaz bir həqiqət mövcuddur ki, azərbaycançılığın müstəqil Azərbaycan dövlətinin ideya əsasını təşkil etməsi,

onun bütün dünya azərbaycanlılarının birlik ideologiyasına çevrilməsi Ulu Öndər Heydər Əliyevin tarixi xidmətidir. Bu fikrə əsas verən məqam ondan qaynaqlanır ki, hələ sovetlər dövründə Heydər Əliyev sovet imperiyasının bütün təzyiq və təqiblərinə baxmayaraq, bu ideyanın ictimai dəyər mahiyyəti alması üçün Azərbaycan ədəbiyyatında, kinosunda, musiqisində, təsviri incəsənətində və digər sahələrdə Azərbaycan xalqının ruhunu, milli-mənəvi varlığını, tarixini təbliğ edən saysız-hesabsız əsərlərin yaradılmasına imkan yaratmışdı. Bütün bunlar Ulu Öndərin Azərbaycana böyük sevgisi və ardıcıl səyi sayəsində reallaşa bilmişdi. O dövrlərdə Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, Azərbaycanın sərhədlərindən kənarda yaşayan azərbaycanlıların mütəşəkkilliyinə çox böyük önəm verirdi və bununla müxtəlif ölkələrdə Azərbaycan diasporunun formalaşmasına nail olmağa çalışırdı. 1990-cı illərdə yenidən hakimiyyətə qayıtdıqdan sonra da o, bu məsələləri daima diqqət mərkəzində saxlayırdı, çünki Azərbaycanın sərhədlərindən kənarda yaşayan soydaşlarımızın tarixi vətənləri ilə sıx əlaqələrinin mühüm əhəmiyyəti ondan ibarətdir ki, onlar yaşadıqları ölkələrdə müstəqil Azərbaycanın dayaqlarıdırlar.

Azərbaycan tarixən müxtəlif dinlərin birgə mövcud olduğu, müxtəlif xalqların birgə yaşadığı multikultural dəyərlərə söykənən tolerant ölkədir. Burada xalqlara, millətlərə eyni münasibət mövcud olmuşdur. Bu səbəbdəndir ki, Azərbycanda azərbaycançılıq ideologiyasının bərqərar olması heç bir çətinliklə qarşılaşmayıb. Azərbaycançılığın əsas qayəsi istər azərbaycanlılara, istərsə də dünyada yaşayan xalqlara qarşı multikultural münasibət göstərməkdir. Multikultural dəyərin dili isə qarşılıqlı əməkdaşlıq, həmrəylik, bir-birinə hörməti özündə ehtiva edir. Yəni bu gün Azərbaycan bütün dünya ilə anlaşaraq münasibət qurmağa cəhd göstərir. Hazırda bu dildə



danışmaq, təbii ki, o qədər də asan deyil, çünki dünyanın siyasi səhnəsində sərt dil, fikirlərə aqressiv münasibət artıb. Siyasət belə dildə danışmağı davam etdirdikcə insanlar, ölkələr, dövlətlər arasında gərginlik getdikcə daha çox artacaq. Baxışlar sistemi olaraq, azərbaycançılıq ideyası adətləri, ənənələri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini birləşdirərək, ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, ələlxüsus, dövlət quruculuğuna müstəsna pozitiv təsir göstərir. Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini və demokratik inkişafını qorumağı qarşıda məqsəd qoyduğundan aqressiv milliyətçiliyə və şovinizmə qarşı ideologiya kimi formalaşmışdır. Azərbaycançılıq ideyasının əsasında milliyyətçilik deyil, vətəndaşlıq dəyərləri qərar tutur. Bu ideyanın məqsədi demokratik inkişaf və çoxmillətli Azərbaycan xalqının konsolidasiyasını təmin edə biləcək dəyərlər sistemini formalaşdırmaqdan ibarətdir. 9 noyabr 2001-ci ildə Dünya Azərbaycanlılarının I qurultayında Azərbaycan dövlətinin siyasətini səciyyələndirən Ulu Öndər Heydər Əliyev bu siyasətin prioritet istiqamətini göz önünə belə gətirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".[115]

Azəbaycançılığın mahiyyətini müxtəif xalqların və ənənələrin ayrılmaz, üzvi birliyi təşkil edir. Dil, ərazi, vətəndaşlıq, ənənə, adətlər və ideologi birlik kimi dəyərlərin vəhdəti azərbaycançılıq ideologiyasının əhatə dairəsini hüdudsuz edir. Azərbaycançılıq özündə vətəndaşlıq, vətənpərvərliklə yanaşı, hər bir vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətini də ehtiva edir.

---

[115] multiculturalism.preslib.az/az_a2.html

Bu gün dünyada baş verən qloballaşma prosesləri hər bir cəmiyyəti istər-istəməz milli ideologiya və ümumbəşəri dəyərlər arasında qarşılıqlı ahəng yaratmaq tələbatı qoyur. Bu, çox mühüm və eyni zamanda çox çətin məsələdir. Belə ki, qloballaşma proseslərini dərindən dərk etmək və bu şəraitdə öz milli-mənəvi dəyərlərini qoruyub caxlamaq, onu inkişaf etdirmək hər bir müstəqil dövlətin ümdə vəzifələrindəndir. Azərbaycançılığın dərin mahiyyəti dünyada baş verən mürəkkəb, müəyyən məqamlarda qeyri-müəyyən proseslər fonunda həm milli-mənəvi dəyərlərin qorunub saxlanmasına, həm də ümumdünya dəyərlərinə inteqrasiyanın reallaşdırılmasına imkan yarada bilir.

Azərbaycançılıq ideologiyası ölkəmizin Prezidenti İlham Əliyevin idarəçiliyi dövründə özünəməxsus inkişaf istiqaməti götürüb. O, dövlətçiliyimizin əsasını təşkil edən azərbaycançılıq ideologiyasını belə xarakterizə edir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır" .[116]

[116] https://sesqazeti.az/news/politics/715097.html



# NƏTİCƏ

İndustrial cəmiyyət spesifik dünyagörüşü, təfəkkür tərzi, mədəniyyət, fərqli dəyərlər yaratdı. İndustrializm dövrün ictimai inkişafının aparıcı istiqamətinə çevrildi və bu cəmiyyət üçün ümumi iqtisadi, siyasi-təşkilati prinsiplər xarakterik səciyyə daşımağa başladı. Dünya miqyasında informasiyanın azad şəkildə dövr etməsi isə industrial eranın süqutunu gerçəkləşdirdi və sosial varlığın bütün sahələrində ciddi dəyişikliklərin yaranmasına səbəb oldu. Artıq XX əsrin ikinci yarısından etibarən informasiya cəmiyyəti konsepsiyası (xüsusilə, inkişaf etmiş ölkələrdə) haqqında söhbət açıldı.

Yaranan şərait cəmiyyətin bütün sahələrində tamamilə yeni şərtlər formalaşdırmağa başladı:

- məşğulluq strukturunda dəyişiklik, istehsalın və mülkiyyətin yeni formalarının təşkili, "əmtəə" olaraq informasiyanın spesifikliyi, yeni sosial proqramlar və s.;
- sosial-siyasi münasibətlər sahəsində cəmiyyətin sinfi strukturunun dəyişilməsi, yeni sosial strukturların yaranması. İnformasiyanın açıqlığının və əlçatan olmasının demokratiyanın forma və məzmununa təsiri, demokratik strukturların təkamülü, ənənəvi və yeni elita problemi;
- mənəvi dəyərlər və mədəniyyət sahəsində kütləvi kommunikasiya sistemlərində gerçəkləşən çevriliş və onun nəticələri, varislik və dəyər strukturlarının ənənəvi formalardan uzaqlaşmaları. Təfəkkür prosesində və onun xarakterində baş verən keyfiyyət dəyişiklikləri, kompüterlə ünsiyyətin təsiri nəticəsində fərdin psixi durumunun təhrif olunması, şəxsiyyətin yeni tipinin-"kompüter nəslinin" yaranması və s.

Fəlsəfi nöqteyi-nəzərdən informasiyaya müxtəlif yanaşmalar mövcuddur və bu şərait informasiyanın fəlsəfəsi kimi elmi istiqamətin yaranmasına səbəb olub. İdrakın inkişaf tempinin,

əhəmiyyət kəsb edən informasiyanın artması ictimai inkişafın mühüm göstəricilərindəndir. İnformasiya öz-özlüyündə maddi və mədəni dəyərləri inkişaf etdirmək iqtidarında deyil, çünki o, texnikaya, texnologiyaya, mədəni dəyərlərə, insanların bilik və təcrübələrinə, onların ünsiyyət formalarına, ictimai münasibətlərin bütün sisteminə tətbiq ediləndə fayda verir.

Müasir dövrün mühüm dəyərləri sırasında informasiya müstəsna yer tutur. Məhz informasiya müasir epoxanın mahiyyətini dəyərləndirə və ona yeni istiqamət verə bilən mühüm amilə çevrilmişdir. Bu dəyər, ilk növbədə, koqnitiv dəyərlər kateqoriyasına aiddir. Hazırda elmi-texniki inkişafın nəticələri onu deməyə əsas verir ki, müasir sivilizasiyanın aparıcı amili təbii sərvətər və ya sənayenin inkişafı deyil, məhz elmi informasiyadır. Ona görə də XX əsrin ikinci yarısından başlayaraq informasiya xüsusi bir hadisə olaraq alimlərin diqqətini daha çox cəlb etdi və geniş şəkildə ondan bəhs edilməyə başlandı. Keçən əsrin 60-cı illərindən informasiya ən populyar anlayış olaraq qəbul edildi. İnformasiyanın öyrənilməsi ilə əlaqədar olaraq biliyin tamamilə yeni sahələri yarandı.

XX əsrin 60-70-ci illərində inkişaf etmiş ölkələrdə informasiya texnologiyaları və proseslərinin cəmiyyətin inkişafına əhəmiyyətli təsiri aydın oldu. Təsirlərin dərk edilməsinə cəhdlər informasiya cəmiyyəti konsepsiyasının yaranmasına şərait yaratdı. Bu cəmiyyət sivilizasiyanın təkamülündə yeni bir mərhələ, ictimai inkişafın yeni fazası kimi nəzərdən keçirilir.

Tədqiqatçıların məsələyə müxtəlif münasibətlərinə baxmayaraq, informasiya cəmiyyətinə dair ümumi, fundamental xüsusiyyətlər qeyd olunur:

- cəmiyyət həyatında informasiyanın və biliyin rolunun dəyişilməsi;



- informasiya sənayesinin ən dinamik, faydalı, nüfuzlu istehsal sahəsinə çevrilməsi;
- informasiya və informasiya xidmətlərinin istifadəsi üçün inkişaf etmiş bazar infrastrukturunun yaranması;
- internet və elektron media vasitələrindən istifadə edərək cəmiyyətin məlumatlandırılmasını artırmaq;
- insanların effektiv informasiya mübadiləsinin həyata keçirilməsi, onların dünya üzrə informasiya resurslarına daxil olmalarının təmin edilməsi üçün qlobal informasiya məkanının yaradılması;
- cəmiyyətin bütün sferalarında mərkəzləşdirilmiş, iyerarxik strukturların sürətlə dəyişikliklərə və innovativ inkişafa uyğunlaşan çevik şəbəkə tipləri ilə əvəz edildikləri zaman sosial təşkilatlanma və əməkdaşlıq modellərində dərin dəyişikliklərin baş verməsi.[117]

Beləliklə, belə bir fikir söyləmək olar ki, informasiya texnologiyalarının sürətlə inkişaf etməsi və yayılması informasiya sahəsində qlobal səviyyədə ciddi dəyişikliklərə səbəb olur. Bu hadisələrin dövlət strukturlarına, vətəndaş cəmiyyəti institutlarına, iqrisadi və sosial sahələrə, elm və təhsilə, mədəniyyətə və insanların həyatına güclü təsir imkanları vardır. Bunlar dünya bazarlarında informasiya və bilik, kapital və əmək faktorlarının funksiyasını təmin edən mühüm amillərdir. Burada məşhur "informasiyaya sahib olan–dünyaya sahibdir" ifadəsi tamamilə yeni məna və aktuallıq kəsb edir.

İnformasiya cəmiyyətinin qurulması sahəsində Azərbaycanda böyük işlər görülür və bu istiqamət ardıcıl xarakter daşıyır. Əsas istiqamət isə cəmiyyətin inkişafını qeyri-neft sahələrinin inkişaf etdirilməsinə yönəltməkdən ibarətdir.

---

[117] *Окинавская Хартия глобального информационного общества* // Дипломатический вестник, 2000, N 8, с. 51-56.

Təbii ki, burada dövrün və günün sosial tələblərinə cavab verən və cəmiyyətin inkişafını özündə ehtiva edən bilik cəmiyyətinin inkişaf etdirilməsi prioritet mövqe tutur. Bu barədə Prezident İlham Əliyev Azərbaycanda bu istiqamətdə işlərin gerçəkləşdirilməsi üçün bütün lazımi və müvafiq tədbirlər görür. Təsadüfi deyildir ki, "Azərbaycan–2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" bölməsində deyilir: "Konsepsiya çərçivəsində insan kapitalının inkişafı sahəsində ölkədə əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün əlçatanlığı əsas strateji xətt olaraq ön plana çəkilir. Bununla bərabər, əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi məqsədilə görülən işlər davam etdiriləcək və genişləndiriləcəkdir". [118]

- Deyilən fikir və mülahizələri ümumiləşdirərək belə bir qənaətə gəlmək olar:

- İnsan sivilizasiyasının inkişafının yeni mərhələsi tamamilə yeni anlayışlar, yanaşmalar irəli sürür və cəmiyyətdə baş verən dəyişikliklərə müvafiq tədqiqat metodlarının tətbiq edilməsini nəzərdə tutur.

- Bu sivilizasiya yeni-yeni formalaşır, dəyişikliklər çox sürətlə baş verir və əvvəlcədən fikir söyləmək, müəyyən proqnoz vermək çətindir.

- Formalaşma mərhələsində olan informasiya cəmiyyətinin fəlsəfəsində də təşəkkül prosesi baş verir. Bu, informasiya texnologiyalarında, informasiya nəzəriyyələrində meydana gələn yeni anlayış və münasibətlərin formalaşmasında özünü göstərir.

[118] https://president.az/files/future_az.pdf



Aparılan tədqiqatın nəticələrindən məlum oldu ki, bu gün sosial nəzəriyyələrdə böhran vəziyyəti hökm sürür və mövcud şəraiti yaradan bir sıra səbəblərlə yanaşı, industrial cəmiyyətdən postindustrial, yəni informasiya cəmiyyətinə keçid göstərilə bilər, çünki artıq cəmiyyət hər hansı bir sosial təsisat kimi deyil, sosial proseslərin həm dinamikasını, həm də mahiyyətini əhatə edən kommunikativ mexanizm kimi nəzərdən keçirilir. Yaranmış çox mürəkkəb və kifayət qədər qeyri-müəyyən semiotik mühitdə müsbət və ondan da çox mənfi xüsusiyyətlər təzahür edir. Bu mənada inkişafın informasiya modeli informasiya cəmiyyətinin kommunikativ xarakterinə adekvat olan nəzəriyyələrin işlənib hazırlanmasına tələbat yaradır.

Hazırki dövrdə cəmiyyətdə siyasi sahədə dilin aktiv rolu ölçüyəgəlməz dərəcədə artır. Bu baxımdan siyasi diskursun öyrənilməsinə yaranan maraq yeni bir istiqamətin-siyasi linqvistikanın (political linguistics) yaranmasına səbəb olub. Siyasi diskurs ünsiyyətin xüsusi növüdür. Əlahiddəlik onda ifadə tapır ki, bu ünsiyyət növü insanların şüurunu manipulyasiya edə bilir. Belə şəraitdə siyasi kommunikasiya mexanizmlərinin müəyyən edilməsində təsir vasitəsi kimi, dilin xüsusiyyətlərinin dərindən öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Dil və ideologiyanın qarşılıqlı əlaqələri hazırki dövr üçün müstəsna əhəmiyyət kəsb edir. Bir tərəfdən semiotika və dilin fəlsəfəsinə artan maraq, digər tərəfdən isə ideologiya və dil kontekstində mövcud olan saysız-hesabsız problemlər məsələni daha da aktual edir. Dünya alimləri belə qənaətə gəliblər ki, semiotik yanaşma elmi tədqiqatların aparılmasında və müvafiq nəticələrin əldə edilməsində əhəmiyyətli dərəcədə böyük potensial imkanlara malikdir. Təbii ki, qeyd edilən konseptdə

araşdırmaların aparılması ideoloji fenomenlərin də mahiyyətini aydınlaşdırmaq imkanları yarada bilir, çünki işarə eyni zamanda həm ümumini, həm də fərdini əhatə edə bilir.

Dil semiotik sistemdir və o gerçəkliyi passiv şəkildə əks etdirmir, əksinə, gerçəkliyin ifadə olunmasında, həmçinin bu və ya digər cəmiyyətdə reallığın dərk edilməsində çox aktiv bir qüvvədir. Dünyanın qavranması düşüncə, dil və mənanın məntiqi dərkindən kənarda mümkün deyil. Bunun fəlsəfi mahiyyəti ondan ibarətdir ki, qeyd edilən kontekst xalqın mədəniyyətini yaradır və bu da öz növbəsində sosial təcrübəni müəyyənləşdirir. Qloballaşma epoxasında dil mədəniyyəti mühafizə edən mühüm amillərdən biridir.

Azərbaycan dili əsrlər boyu formalaşmış, inkişaf etmişdir və azərbaycançılığın milli ideologiyaya çevrilməsində müstəsna rol oynamışdır. Dilimizin belə bir səviyyəyə çatması birənalı şəkildə böyük siyasi xadim və görkəmli dövlət xadimi Heydər Əliyevin dil siyasəti istiqamətində apardığı ardıcıl və məqsədyönlü fəaliyyəti ilə bağlıdır. O, hələ sovetlər dövründə hər zaman dilimizə son dərəcə böyük sayğı və sevgi ilə yanaşmış, bütün təsir və təziqlərə baxmayaraq, hər vasitə ilə onu qorumağa, inkişaf etdirməyə səy göstərmişdir.

Bu gün Azərbaycanın gələcəyini təmin edən, onu nüfuzlu dövlətlər sırasına çıxaran bütün sahələrin inkişafı ölkəmizin Prezidenti İlham Əliyevin daima nəzarətindədir. Təbii ki, xalqımızın milli varlığının təcəssümü olan ana dilimizə qayğı da bu sırada müstəsna yer tutur.



## ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. Azərbaycan tarixi (yeddi cilddə), I cild, Bakı, 2007.
2. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. -Bakı: Pedaqogika, 2005.// http://elibrary.bsu.az/kitablar/927.pdf
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2012.
4. Əliyev İlham. İnkişaf-məqsədimizdir. B.. Azərnəşr, 2017.
5. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkül tarixindən, Bakı, 1994.
6. Mehdiyev Ramiz. Yeni dünya nizamı və milli ideya.B., "Şərq-Qərb", 2016.
7. Məmmədzadə İ. Elitaların təşəkkülü məsələsinə dair // AMEA Fəlsəfə İnstitutu. Elmi Əsərlər, №1-2 (13), Bakı, 2009.

**Rus dilində:**

8. Альгимантас Л. *Переселение народов на Кавказе XX в. Вильнюс, 2016.*
9. Баранов А.Н. Введение в прикладную лингвистику/МГУ им. М.В.Ломоносова. Философский факультет. - М.: Эдиториал УРСС, 2001./ http://padabum.com/d.php?id=38073
10. Белл Д. Грядущее постиндустриальное общество. - М., 1999.
11. Бодрийяр Ж. Соблазн. М.:2000 // https://www.dissercat.com/content/etika-simulyakrov-zhana-bodriiyara-analiz-postmodernistskoi-retseptsii-eticheskogo
12. Блохина Н. А. Метафизика в аналитической философии: очерки истории. Ряз. гос. ун-т им. С.А. Есенина.- Рязань, 2011.// http://dspace.rsu.edu.ru/xmlui/bitstream/handle/123456789/3742/%D0%91%D0%BB%D0%BE%D1%85%D0%B8%D0%BD

%D0%B0%20%D0%9D.%D0%90.%20%D0%9C%D0%B5%D1%82%D0%B0%D1%84%D0%B8%D0%B7%D0%B8%D0%BA%D0%B0%20%D0%B2%20%D0%B0%D0%BD%D0%B0%D0%BB%D0%B8%D1%82%D0%B8%D1%87%D0%B5%D1%81%D0%BA%D0%BE%D0%B9%20%D1%84%D0%B8%D0%BB%D0%BE%D1%81%D0%BE%D1%84%D0%B8%D0%B8.pdf?sequence=1

13. Бриллюэн Л. Наука и теория информации. М.: Наука, 1960.

14.Бурдье П. Социальное пространство: поля и практики. М., Институт экспериментальной социологии. СПб., 2005, с.78// https://www.academia.edu/6419540/%D0%91%D1%83%D1%80%D0%B4%D1%8C%D0%B5_%D0%9F_%D0%A1%D0%BE%D1%86%D0%B8%D0%B0%D0%BB%D1%8C%D0%BD%D0%BE%D0%B5_%D0%BF%D1%80%D0%BE%D1%81%D1%82

15. Вершинская О.Н. Существующие модели построения информационного общества // Информационное общество, 1999, N 3, с. 57. // www.dzyalosh.ru/01-comm/books/stan-obshestva/1_3.html

16.Витгенштейн Л. Голубая книга.- М., 1999.

17. Гейзенберг В. Язык и реальность в современной физике // Шаги за горизонт. М.: Прогресс, 1987.

18.Гумболдт.В.фон. Избранные труды по языкознанию. М., 1984.

19.Дэвидсон Д. Истина и интерпретация. М., 2003.

20. Организация Объединенных Наций ЮНЕСКО. Всемирная встреча на высшем уровне по вопросам информационного общества (г. Женева. 2003 г.). Построение информационного общества-глобальная задача в новом тысячелетии: Декларация принципов (Документ WSIS-03/GENEVA/DOC/4-R, 12 декабря 2003 года.// https://www.un.org/ru/events/pastevents/wsis.shtml

21.Каган М.С Мир общения: Проблема межсубъектных отношений.-М.: Политиздат, 1988.//https://www.studmed.ru/view/kagan-ms-mir-obscheniya-problema-mezhsubektnyh-otnosheniy_6bd5bde497e.html

22. Колин К.К. Информационное пространство культуры: проблема многоязычия в информационном обществе // Вестник КемГУКИ.-2011. -№15.-с. 9. // file:///C:/Users/USER/Downloads/Inf._prostranstvo_kulturyi.pdf

19.Леонтьев А. Слово о речевой деятельности. М., 1965.// https://iling-ran.ru/library/psylingva/OTRD.pdf

23. Луман Н. Реальность массмедиа. М., Праксис, 2005 // http://socioline.ru/files/5/84/luman_realnost_massmedia_0.pdf)

21. Луман Н. Понятие общества // Проблемы теоретической социологии. СПб.:ТОО «ТК Петрополис», 1994 //https://gtmarket.ru/laboratory/expertize/2969).

24.Луман Н. Невероятность коммуникации // https://gtmarket.ru/laboratory/expertize/2972

25.Маркс К., Энгельс Ф. Соч. Т.3, 1955, X // https://www.marxists.org/russkij/marx/cw/t03.pdf

26.Миронов В. В. Современные философские проблемы естественных, технических и социально-гуманитарных наук. М., Гардарики, 2006.// https://narfu.ru/university/library/books/0095.pdf

27.*Окинавская Хартия глобального информационного общества* //

Дипломатический вестник, 2000, N 8, с. 51-56.

28. Организация Объединенных Наций ЮНЕСКО. Всемирная встреча на высшем уровне по вопросам информационного общества (г. Женева. 2003 г.). Построение информационного общества-глобальная задача

в новом тысячелетии: Декларация принципов (Документ WSIS-03/GENEVA/DOC/4-R. 12 декабря 2003 года.

29. Хакен. Синергетика. Иерархии неустойчивостей в самоорганизующихся системах и устройствах. М.: Мир, 1985.//http://booksshare.net/books/physics/hakeng/1985/files/sinergetikaierarhiineustoychivostey1985.pdf

30.Проблема легитимации позднего капитализма. М., издательство «Праксис», 2010.// file:///C:/Users/USER/Downloads/problema_legitimatsii.pdf

31.Современная национальная идея обогащается тем, что гражданин ощущает себя частью государства, видит в себе силы к преобразованиям, ощущает потребность в наличии сильного государства и сильного, волевого лидера // Бакинский рабочий. 16 ноября, 2011-ый год, с. 5-7.

32.Тоффлер Э. Третья волна.-М.: АСТ, 1999.// ocioline.ru/pages/elvin-toffler-tretya-volna

33. Винер Н. Кибернетика, или управление и связь в животном и машине.-М.: Сов. радио, 1958. //http://filosof.historic.ru/books/item/f00/s00/z0000889/st000.shtml

34. Фромм Э. Забытый язык // Душа человека. М.: Республика, 1992.// https://imwerden.de/pdf/fromm_dusha_cheloveka_1992.pdf

35.Хабермас Ю. Философский дискурс о модерне. Пер. с нем.-М.: Издательство «Весь Мир», 2003.// http://yanko.lib.ru/books/philosoph/habermasfilosof_diskurs_o_monerne-2003-8l.pdf

36.Хабермас Ю. Моральное сознание и коммуникативное действие. Наука, 2006.

37.Чичнева Е. А. Право и Интернет. Правовые проблемы Интернета // Вестник МГУ. Серия 7. Философия. 2002. № 3. С. 113.



38.Чугунов А.В. Развитие информационного общества: теории, концепции и программы: Учебное пособие. -СПб.: Ф-т филологии и искусств СПбГУ, 2007.// http://window.edu.ru/resource/377/57377/files/Chugunov_IST_concep2007web.pdf

39.Шпет Г.Г. Герменевтика и ее проблемы // Мысль и слово. Избр.труды. М. 2005. // http://www.losev-library.ru/materials/russian-philosophy?id=56

40.Юнг К. Г. Подход к бессознательному // Архетип и символ. М., 1991.// http://www.pseudology.org/Psyhology/Jung/Arhetip_and_simbol.pdf

**İngilis dilində:**

41. Bell D. The Social Framework of the Information Society. Oxford, 1980.// https://books.google.az/books?id=5glMH8h2hpwC&pg=PA118&lpg=PA118&dq=Bell+D.+The+Social+Framework+of+the+Information+Society.+Oxford,+1980.&source=bl&ots=oSTfuvyUO&sig=ACfU3U0bYBHa2OiYOM2_L1b4jaUWxDkw_A&hl=ru&sa=X&ved=2ahUKEwjyxoOkgpTnAhXtN-wKHXJrB1kQ6AEwBHoECAoQAQ#v=onepage&q=Bell%20D.%20The%20Social%20Framework%20of%20the%20Information%20Society.%20Oxford%2C%201980.&f=false

42.Graddol, D. English On Decline For World Youth // www.guardian.co.uk.britain/article.-27.02.2004. //www.guardian.co.uk.britain/article. - 27.02.2004. c.1

43.James, P.G. Social Linguistics and Literacies: Ideology In Discourses / P.G. James. -Taylor and Francis, 2008.// http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.476.9477&rep=rep1&type=pdf

44. Laswell H.D., Leites N. Language of politics: Studies in quantitative semantics.-N.Y.: Sewart. 1949.//

https://babel.hathitrust.org/cgi/pt?id=mdp.39015002398272&view=1up&seq=10

45. Masuda Y. The Information Society as Postindustrial Society. Wash.: World Future Soc., 1983.// https://iphras.ru/page46589323.htm

46. Templeton A. Out of Africa again and again// http://www.bioguider.com/ebook/biology/pdf/Templeton_n2002.pdf)

47. Zielinski G.A. Potential atmospheric impact of the Toba mega-eruption ~71 000 years ago / G.A. Zielinski, P.A. Mayewski, L.D. Meeker, S. Whitlow, M.S. Twickler // Geophysical research letters № 8. - 1996. - P. 837-840. //http://www.philology.ru/linguistics1/noranovich-10.htm

**Elektron resurslar:**

http://1917.com/XML/lKPQAVL23OQREbVBgp2gSnNX8Ts

https://ru.wikipedia.org/wiki/

http://www.grandars.ru/college/filosofiya/pozitivizm.html т мифа.

www.rusnauka.com/20_DNII_2012/Philologia/3_114258.doc.htm

dic.academic.ru/dic.nsf/enc_culture/1009/Имплозия

lit.lib.ru/m/martxjanow_w_s/metalanguageofpoliticalscience.shtml

http://evrazia.org/article/2100

arctogaia.com/ftp/fp/016.pdf

http://nova.rambler.ru

http://kayzen.az/blog/Az%C9%99rbaycan-o%C4%9Frafiyas%C4%B1/2410/az%C9%99rbaycan-%C9%99halisi.html

http://www.azerbaijan.az/portal/General/Constitution/doc/konstitutsiya.pdf

https://az.wikisource.org/wiki/%E2%80%9CD%C3%B6vl%C9%99t_dilinin_t%C9%99tbiqi_i%C5%9Finin_t%C9%99kmill%C9%99%C5%9Fdirilm%C9%99si_haqq%C4%B1nda%E2%80%9D_Az%C9%99rbaycan_Respublikas%C4%B1_Prezidentinin_F%C9%99rman%C4%B1_(18_iyun_2001-ci_il)

http://azertag.az/xeber/HEYDAR_ALIYEVIN_SIYASI_PORTRETININ_CIZGILARI-310656

http://www.president.az/articles/7744

azerbaijan.az/portal/General/.../constitution_01_a.html

www.dissercat.com

azpress.az/index.php?sectionid=news&id=2744

arctogaia.com/ftp/fp/016.pdf

multiculturalism.preslib.az/az_a2.html

www.xalqqazeti.com/az/news/politics/1353

http://www.dissercat.com/content/fenomen-informatsii-v-kontekste-nauchnogo-poznaniya-filosofskii-analiz

https://www.socionauki.ru/journal/articles/253171/

http://school-collection.lyceum62.ru/ecor/storage/00bbcabd-a4bc-4f76-8573-8e5d051507d4/[INF11_01_04_TI].html

https://iphras.ru/page46589323.htm

http://www.read.virmk.ru/present_past_pdf/Toffler_Tretiya_volna.pdf

http://www.un.org/ru/events/pastevents/wsis.shtml

http://www.iis.ru/library/okinawa/charter.ru.html

http://society.polbu.ru/kopylov_pravo/ch02_i.html

https://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev.pdf

http://emag.iis.ru/arc/infosoc/emag.nsf/BPA/1f41ce7df933b2dfc32568c50027cde3

URL: http://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev. pdf

http://axc.preslib.az/az_a1.html

http://www.anl.az/down/medeniyyet2008/sentyabr/medneiyyet2008_sentyabr_56.htm

http://physics.gov.az/future_ru.pdf

https://president.az/articles/all
https://president.az/files/future_az.pdf
http://olke.az/news/detail/ilham-eliyev-azerbaycan-xalqini-tebrik-etdi-137357
https://static.president.az/pdf/38542.pdf
http://www.dissercat.com/content/fenomen-informatsii-v-kontekste-nauchnogo-poznaniya-filosofskii-analiz
https://www.socionauki.ru/journal/articles/253171/
http://school-collection.lyceum62.ru/ecor/storage/00bbcabd-a4bc-4f76-8573-8e5d051507d4/[INF11_01_04_TI].html
file:///C:/Users/User-PC/Downloads/informatsionnoe-obschestvo-evolyutsiya-kontseptsii-v-istoricheskoy-perspektive.pdf
https://iphras.ru/page46589323.htm
http://www.read.virmk.ru/present_past_pdf/Toffler_Tretiya_volna.pdf
http://www.un.org/ru/events/pastevents/wsis.shtml
http://www.iis.ru/library/okinawa/charter.ru.html
http://society.polbu.ru/kopylov_pravo/ch02_i.html
https://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev.pdf
http://emag.iis.ru/arc/infosoc/emag.nsf/BPA/1f41ce7df933b2dfc32568c50027cde3
URL: http://www.civisbook.ru/files/File/1993-3-2-Moiseev.pdf
http://www.anl.az/down/medeniyyet2008/sentyabr/medneiyyet2008_sentyabr_56.htm
http://physics.gov.az/future_ru.pdf
https://president.az/articles/11312
https://president.az/files/future_az.pdf
http://olke.az/news/detail/ilham-eliyev-azerbaycan-xalqini-tebrik-etdi-137357



https://static.president.az/pdf/38542.pdf
https://www.ajol.info/index.php/ujah/article/viewFile/72634/61552
https://en.wikiquote.org/wiki/Rudolf_Carnap
https://www.krugosvet.ru/enc/gumanitarnye-naukifilisifiya/POPPER_KARL_RAMUND.ht
https://gtmarket.ru/concepts/7326
https://gtmarket.ru/laboratory/basis/5141
http://vphil.ru/index.php?option=com_content&task=view&id=348&Itemid=52
http://www.tetrasociology2002.spb.ru/
http://doxa.onu.edu.ua/Doxa6/125-134.pdf
https://postnauka.ru/faq/17608
https://sesqazeti.az/news/politics/715097.html
https://studfiles.net/preview/5461897/page:21/
http://journals.tsu.ru/uploads/import/1167/files/8-loskutnikova.pdf
http://knigi.link/teoriya-kommunikatsii_1295/postmodernistyi-yurgen-habermas-38590.html
https://lingvistics_dictionary.academic.ru/1318/37.
https://studbooks.net/2106416/literatura/informatsionnaya_bednost_lingvisticheskaya_kultura
http://xalqqazeti.com/az/news/23781
https://books.google.az/books?id=vLAlvbRkr90C&pg=PA23&lpg=PA23&dq=
http://superinf.ru/view_helpstud.php?id=4662
http://evrazia.org/article/2100
https://www.peacefromharmony.org/?cat=ru_c&key=371
http://www.russika.ru/t.php?t=2969
https://vikent.ru/author/368/

## MÜNDƏRİCAT:


GİRİŞ: .......... 3
I FƏSİL. İNFORMASİYA CƏMİYYƏTİNİN FƏLSƏFİ VƏ METODOLOJİ ASPEKTLƏRİ .......... 10
1.1. İnformasiyanın fəlsəfi mahiyyəti və konsepsiyaları .......... 10
1.2. İnformasiya cəmiyyətinin fəlsəfi, elmi-nəzəri mahiyyəti .......... 23
II FƏSİL. DİL VƏ FƏLSƏFƏ .......... 37
2.1. Dilin fəlsəfi analizi .......... 37
2.2. Analitik fəlsəfə: təkamülü və xarakterik xüsusiyyətləri 50
2.3. Dil və siyasət: siyasi diskurs anlayışı .......... 67
III FƏSİL. İNFORMASİYA CƏMİYYƏTİNDƏ ÜNSİYYƏT VƏ KOMMUNİKASİYA .......... 83
3.1. Sivilizasiyanın müasir mərhələsində ünsiyyətin .......... 83
3.2. İnformasiya cəmiyyətində kommunikasiya problemi .. 98
IV FƏSİL. AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAF TENDENSİYALI .......... 115
4.1. Dünya sivilizasiyasının inkişafında informasiya cəmiyyəti mərhələsi .......... 115
4.2. Azərbaycanda informasiya cəmiyyətinin inkişafı: reallıqlar və perspektivlər .......... 123
V FƏSİL. AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASINDA DİL AMİLİ .......... 133
5.1 Azərbaycanda milli dil siyasəti .......... 133
5.2. Azərbaycançılıq milli və ümumbəşəri ideyaların sintezi kontekstində .......... 143
N Ə T İ C Ə .......... 155
Ə D Ə B İ Y Y A T : .......... 161




AFAQ RÜSTƏMOVA

**AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFININ FƏLSƏFİ PROBLEMLƏRİ: DİL və KOMMUNİKASİYA**


***Nəşriyyatın direktoru:*** ***Ceyhun Xəlilov***
*Dizayner:* *Vüsalə Qəribova*
*Operator:* *Cəmilə Nəsirova*
*Texniki redaktor:* *Şahnaz Əbdülrəhmanova*

Azəri
POLİQRAFİYA

*Çapa imzalanmışdır: 20.05.2020*
*Kağız formatı 60x84. Ofset çapı 1/16.*
*Fiziki ç.v.11. Tiraj 100.*
*Ünvan: Sumqayıt şəh., 13-cü mkr. Niyazi küç. bina 234*
*E-mail: bilik-2008@mail.ru*
*Tel.: (012) 408 39 51; (018) 656 50 42*

# QEYD

# Düzəliş

Mündəricat (səh.83)
3.1.Sivilizasiyanın müasir mərhələsində ünsiyyətin spesifik xüsusiyyətləri

(səh.160) (Birənalı)
Birmənalı